8. Еремин Е.Н. Основы химической термодинамики. Учебное пособие. М.: Высш. шк., 1978.
9. Жуховицкий А.А., Шварцман Л.А. Физическая химия. М.:Металлургия, 1976.
10. Стромберг А.Г., Семченко Д.П. Физическая химия. М.: Высш. шк., 2001.


## İNSAN VƏ HEYVAN FİZİOLOGİYASI

İnsan və heyvan fiziologiyası elminin ümumi anlayışları və metodları. Hüceyrə fiziologiyasının əsasları. Oyanan toxumaların fiziologiyası. Sinir sisteminin hərəki və inteqrativ funksiyaları. Əzələ sisteminin fiziologiyası. Sinir sisteminin ümumi fiziologiyası. Daxili sekresiya vəziləri. Reproduktiv funksiyalar, hamiləlik və qocalıq. Qan və qan

dövranı sistemi. Orqanizmin müdafiə sistemi. Tənəffüsün fiziologiyası. İfrazat sistemi və dərinin fiziologiyası. Həzmin fiziologiyası. Maddələr və enerji mübadiləsi. İstilik balansı və istilik tənzimi. Ali sinir fəaliyyəti. Sensor sistem və analizatorların fiziologiyası. Yuxu və yaddaş fiziologiyası.

**ƏDƏBİYYAT**

1. Cəfərov F.İ. İnsan fiziologiyası. I və II cildlər. Bakı, 2001.
2. Əliyev Ə.H., Əliyeva F.Ə., Mədətova V.M. İnsan və heyvan fiziologiyası (dərslik). Bakı: BDU nəşriyyatı, 2007.
3. Fərəcov Ə.N., Həsənov T.Ş. Təkamül fiziologiyası. Dərs vəsaiti. Bakı, 2004.
4. Həsənov H.H., Hacıyev Ş.M. Mərkəzi sinir sisteminin fiziologiyası. Bakı, 1998.
5. Коган А.Б. и др. Физиология человека и животных. Ч. I, II. М.: Высшая школа, 1984.
6. Орлов Р.С., Ноздрачёв А.Д. Нормальная физиология. М., 2005.

# Kimya müəllimliyi

## ÜMUMİ KİMYA

**Materiya haqqında anlayış**

Maddə və sahə – materiyanın mövcudluq formaları kimi. Kimyanın predmeti, məqsəd və vəzifələri. Kimyanın fundamental nəzəriyyə və qanunları.

**Atom–molekul təlimi**

Əsas anlayış və qanunlar**.**

Daltonun atomistikası. Atom, molekul. Nisbi atom kütləsi, nisbi molekul kütləsi. Kimyanın qaz qanunları. Kimyəvi element. İzotoplar, izobarlar.

Qeyri-üzvi maddələrin quruluşu. Qeyri-üzvi polimerlər haqqında anlayış.

Maddənin kristallokimyəvi quruluşu və xassələri. Kimyəvi individ. Kimyəvi birləşmə.

**Atomun quruluşu və elementlərin dövri sistemi**

Atomun quruluşunun modelləri. Rezerfordun təcrübələri, atomun planetar modeli. Plank tənliyi. Atomun Bor modeli, onun çatışmazlıqları.

Mikrohissəciklərin ikili-dalğa və hissəcik təbiəti. Heyzenberqin qeyri-müəyyənlik prinsipi. Şredinger tənliyi. Kvant ədədləri.

Pauli prinsipi, enerjinin minimumluq prinsipi – Kleçkovski qaydası, Hund qaydası. Dövrlər, qruplar. Əsas və əlavə yarımqruplar. Əsas, törəmə və daxili dövrilik. Dövri sistem və elementlərin analogiyasının növləri.

**Kimyəvi əlaqə**

Kimyəvi əlaqənin əsas xarakteristikaları.

İon əlaqəsi. Atomun effektiv yükü, rabitənin ionluq dərəcəsi. Kovalent əlaqə, onun xüsusiyyətləri. Valent əlaqə nəzəriyyəsi (VƏN). VƏN-in çatışmazlıqları.

Molekulyar orbitallar nəzəriyyəsi (MON). MON-da atom orbitallarının xətti kombinasiyası üsulu.

Metal əlaqə və onun xüsusiyyətləri.

**Molekullararası qarşılıqlı təsir və kompleksəmələgəlmə**

Maddənin aqreqat halları. Van-der-Vals qüvvələri. Oriyentasiya, induksiya və dispersiya effektləri. Hidrogen əlaqəsi. Hidrogen göstəricisi – pH, indikatorlar.

Kompleks birləşmələr. Vernerin koordinasiya nəzəriyyəsi. Kompleks birləşmələrdə kimyəvi əlaqə. Metallar, yarımkeçiricilər və dielektriklər. Daltonidlər və Bertolidlər. Maddənin amorf və şüşəvari halları.

Hidroliz, hidrolizin mexanizmi. Elektroliz. Oksidləşmə-reduksiya reaksiyaları, onların növləri.

### ƏDƏBİYYAT

1. Abbasov V.M. Məhərrəmov A.M. Babanlı M.B. və b. Ümumi kimyanın əsasları. Bakı: BDU nəşr., 2000.
2. İlyaslı T.M., Babanlı M.B., Əhmədov E.İ., Yaqubov N.İ. Ümumi kimya kursu. Bakı, 2002.
3. Uqay Y.A. Ümumi kimya. Bakı, 2004.
4. Ахметов Н.С. Общая и неорганическая химия. М.: Высшая школа, 1998.
5. Некрасов В.В. Основы обшей химии. М.: Химия, 1973.
6. Хаускрофт К., Констебл Э. Современный курс общей химии. В 2-х томах. М.: Мир, 2009.

## FİZİKİ KİMYA

**Fiziki kimyanın predmeti**

Əsas anlayışlar. Kimyəvi termodinamikanın əsasları. Enerjinin saxlanması və çevrilməsi qanunu. Hal tənliyi. Dönən və dönməyən proseslər. İş və istilik. Daxili enerji. Termodinamikanın I qanunu. Entalpiya. Kalorik əmsallar. Termodinamikanın birinci qanununun kimyəvi reaksiyalara tətbiqi. Hess qanunu və ondan çıxan nəticələr. Reaksiyanın istilik effektinin temperatur asılılığı. Kirxhof tənliyi. Termodinamikanın II qanunu. Karno tsikli. Entropiya. Müxtəlif proseslər üçün entropiya dəyişikliklərinin hesablanması. Plank postulatı. Termodinamikanın III qanunu. Termodinamiki potensiallar. Xarakteristik funksiyalar. Uçuculuq. Faza keçidləri. Klauzis-Klapeyron tənliyi. Doymuş buxar təzyiqinin temperatur asılılığı.

**Məhlullar. Faza tarazlıqları**

Məhlulların təsnifatı. Qatılığın ifadə üsulları. Qazların mayelərdə həll olması. Henri qanunu. İdeal məhlullar. Raul qanunu. Bərk maddələrin mayelərdə həllolması. Şreder tənliyi. Osmos təzyiqi. İkikomponentli sistemlərdə maye-buxar tarazlığı. Parsial molyar kəmiyyətlər. Gibbs-Dügem tənliyi. Konovalovun birinci və ikinci qanunları. Heterogen sistemlər. Faza, komponent, tərkib hissəsi və sərbəstlik dərəcəsi anlayışları. Gibbsin fazalar qaydası. Birkomponentli sistemlər. Su və kükürd tipli maddələrin hal diaqramları. İkikomponentli sistemlər. Üçkomponentli sistemlər.

**Kimyəvi tarazlıq**

Kütlələrin təsiri qanunu. Tarazlıq sabitinin ifadələri. İdeal və real sistemlərdə kimyəvi tarazlıq. Kütlələrin təsiri qanununun termodinamiki çıxarışı.

Reaksiyanın izoterm tənliyi. Kimyəvi reaksiyalarda izobar və izoxor potensialların dəyişməsi. Bertlo prinsipi. Standart termodinamiki kəmiyyətlərə əsasən kimyəvi reaksiyaların tarazlıq sabitinin hesablanması. Tarazlıq sabitinin temperatur asılılığı. Reaksiyanın izobar və izoxor tənlikləri. Kimyəvi tarazlığa təzyiqin təsiri. Heterogen sistemlərdə kimyəvi tarazlıq. Le-Şatelye prinsipi.

**Kimyəvi kinetika və kataliz**

Kimyəvi kinetikanın əsas anlayışları. Reaksiya sürəti və sürət sabiti. Reaksiyanın tərtibi və molekulyarlığı. Kimyəvi reaksiyanın sürət sabitinin temperaturdan asılılığı. Aktivləşmə enerjisi. Dönməyən bir, iki və üçtərtibli reaksiyalar. Reaksiyanın tərtibinin təyini üsulları. Dönər bir və ikitərtibli reaksiyalar. Paralel və ardıcıl reaksiyalar. Kimyəvi kinetikada aktiv toqquşmalar nəzəriyyəsi. Monomolekulyar reaksiyalar. Lindeman nəzəriyyəsi. Zəncirvari reaksiyalar. Şaxələnməyən və şaxələnən zəncirvari reaksiyalar. Fotokimyəvi reaksiyalar. Kataliz haqqında ümumi məlumat. Homogen kataliz. Turşu-əsas katalizi. Heterogen kataliz. Kataliz nəzəriyyələri.

**Elektrokimya**

Arreniusun elektrolitik dissosiasiya nəzəriyyəsi və onun çatışmayan cəhətləri. Kristal qəfəs və solvatlaşma enerjiləri. Debay-Hükkel nəzəriyyəsi. Elektrolit məhlulların elektrik keçiriciliyi. İonların mütəhərrikliyi. Kolrauş qanunu. İonların köçürülmə ədədi. Elektroforetik və relaksasiya effektləri. Vin və Debay-Falkenhagen effekti. Elektrod potensialı və elektrik hərəkət qüvvəsi. Elektrodların təsnifatı. Elektrod potensialının qatılıqdan asılılığı. Qalvanik elementlər. Qatılıq elementləri. Elektrokimyəvi kinetika. Elektrokimyəvi korroziya nəzəriyyəsi. Metalların korroziyadan mühafizəsi.

**ƏDƏBİYYAT**

1. Babanlı M.B., Allahverdiyeva N.X. Fiziki və kolloid kimya. Bakı, 1998.
2. Cəfərov Y.İ. Elektrolit məhlulları nəzəriyyələri. Bakı, 2007.
3. Cəfərov Y.İ. Fiziki və kolloid kimya. Bakı, 2009.
4. Əhmədov E.İ., Məmmədov S.E. Rzayeva N.A. Fiziki kimya. I hissə. Bakı, 2009.
5. Герасимов Я.И. и др. Курс физической химии. М.: Химия, 1969.
6. Дамаскин Б.Б., Петрий С.А. Электрохимия. Учеб. пособие. М.: Высш. шк., 1987.
7. Еремин Е.Н. Основы химической кинетики. Учебное пособие. М.: Высш. шк., 1976.
8. Еремин Е.Н. Основы химической термодинамики. Учебное пособие. М.: Высш. шк., 1978.
9. Жуховицкий А.А., Шварцман Л.А. Физическая химия. М.:Металлургия, 1976.
10. Стромберг А.Г., Семченко Д.П. Физическая химия. М.: Высш. шк., 2001.

# Texnologiya müəllimliyi, İbtidai sinif müəllimliyi, Korreksiyaedici təlim, Məktəbəqədər təlim və tərbiyə, Pedaqogika

## PEDAQOGİKA

**Pedaqoji tədqiqat metodları (üsulları).**

Pedaqoji tədqiqat metodlarının təsnifatı. Nəzəri tədqiqat üsulları. Təcrübi (praktik) tədqiqat üsulları. Tarixi-müqayisəli tədqiqat üsulları. Pedaqoji eksperiment. Riyazi statistik üsullar.

**Pedaqoji dəyərlər**

Dəyərlər haqqında anlayış. Ümumbəşəri və milli dəyərlər. Pedaqoji dəyərlər, onların mahiyyəti və məzmunu. Pedaqoji dəyərlərin təsnifatı. Azərbaycanda təlim – tərbiyə və məktəb haqqında pedaqoji fikirlər və dəyərlər.

**Pedaqoji proses**

Pedaqoji proses haqqında anlayış. Pedaqoji prosesin ictimai səciyyəsi. Pedaqoji prosesin komponentləri. Ümumi təhsil sistemində pedaqoji prosesin təşkili prinsipləri.

**Pedaqoji cərəyanlar**

Ənənəvi (müəllimyönümlü, bilikyönümlü) paradiqmlər. Essensializm. Biheviorizm. Neotomizm. Şagirdyönümlü paradiqmlər. Praqmatizm. Ekzistensializm. Konstruktivizm. Eksperimental pedaqogika.

XIX-XX əsrlərdə Qərbi Avropa və ABŞ-da məktəb və pedaqogika.

**Şəxsiyyətin inkişafının ümumi qanunauyğunluqları**

Şəxsiyyətin inkişafı ilə bağlı istiqamətlər (bioloji, sosioloji və biososial). Şəxsiyyəti formalaşdıran amillər. Şəxsiyyətin formalaşması ilə bağlı nəzəriyyələr. Y.A. Komenski, C. Lokk, J.J. Russo, K.A. Helvetsi, D. Didro, K.D. Uşinski, M.N. Tusinin pedaqoji ideyaları. Şəxsiyyətin inkişafının hərəkətverici qüvvələri. Daxili, xarici və ümumi ziddiyyətlər.

**Təlimin qanunauyğunluqları və prinsipləri**

Təlimin qanunauyğunluqları. Təlimin prinsipləri. Klassik Avropa pedaqoqlarının (Y.A. Komenski, C. Lokk, J.J. Russo, İ.H. Pestalossi, A. Disterveq, İ.F. Herbart, K.D. Uşinski) təlimin prinsipləri haqqında fikirləri. Təlim prinsiplərinin müasir təsnifatı.

**Təlimin metodları**

Təlimin metodları və tərzləri haqqında anlayış. Təlim metodlarının təsnifatı. Təlim metodlarının vəzifələri. Fəal təlim, mahiyyəti, əsas xüsusiyyətləri. Fəal təlim üsulları. Təlim vasitələri. İnklüziv təlim. Kəşf əsaslı təlim. Layihə əsaslı təlim. Təcrübə əsaslı təlim. Tədqiqat əsaslı təlim. Problemli təlim. Sensor təlim. Kooperativ təlim. Biliklərin tam mənimsənilməsi.

**Təlimin təşkili formaları**

Məktəbin inkişaf tarixində müxtəlif təlim sistemləri. Y.A. Komenskinin təlim nəzəriyyəsi. Sinif-dərs sisteminin yaranması və xüsusiyyətləri. C. Lokk, J.J. Russo, İ.H. Pestalossi, A. Disterveq, İ.F. Herbart, R. Ouen, C. Dyui və b. təlim haqqında fikirləri. Dərsin mahiyyəti və məqsədi. Dərsə verilən müasir tələblər. Fəal dərsin mərhələləri. Dərsin mərhələlərinin planlaşdırılması. Planlaşdırmanın növləri. Dərsin planlaşdırılmasında nəzərə alınmalı məsələlər. Müxtəlif iş formalarında dərsin təşkili. Dərsin tipləri. Dərs vaxtından səmərəli istifadə. Müəllimin dərsə hazırlaşması. Təlimin dərsdənkənar təşkili formaları.

**Təlim texnologiyaları**

Yeni təlim texnologiyaları. Təlim texnologiyasının komponentləri. Təlim texnologiyasının xüsusiyyətləri. Yeni təlim texnologiyalarının yaradılması və tətbiqi prinsipləri. Təlim taksonomiyaları (idraki, psixomotor, emosional-affektiv).Təlim texnologiyalarının təsnifatına müxtəlif yanaşmalar.

## ƏDƏBİYYAT


1. Ağayev Ə.A., Talıbov Y.P., İsayev İ.N., Eminov A.İ. Pedaqogika. Dərs vəsaiti. Bakı: Adiloğlu, 2006.
2. Əhmədov H.H., Zeynalova N.E. Pedaqogika. Bakı: Elm və təhsil, 2016.
3. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Ali məktəblərin bakalavr səviyyəsi üçün dərslik. Bakı: Elm və təhsil, 2014.
4. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, 2013.
5. İlyasov M.İ., Nəzərov M.H. Didaktika: Dərs vəsaiti. Bakı: ADPU, 2015.
6. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2011.
7.Qasımova L., Mahmudova R. Pedaqogika. Bakı, 2012.
8.Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Bakı: Nurlan, 2007.
9. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2010, 2012.
10. Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). Azərbaycan Respublikası Nazirlər

Kabinetinin 2010-cu il 3 iyun tarixli, 103 nömrəli qərarı ilə təsdiq edilmişdir. *http://www.e-qanun.az/framework/19682.*
11. Педагогика: учеб. пособие / Под ред. П.И. Пидкасистого. М.: Пед. о-во России, 2001.
12. Подласый И.П. Педагогика. Новый курс: В 2 кн. М.: Владос, 1999.
13. Сластенин В.А. и др. Педагогика: учеб. пособие для студ. высш. пед. учеб. заведений. М.: Академия, 2002.

## PSİXOLOGİYA

**Psixi proseslər və hallar**

Duyğu, qavrayış, diqqət, hafizə, təfəkkür, nitq, təxəyyül, onların psixoloji xüsusiyyətləri, təsnifatları. Hisslər və emosiyalar, onların psixoloji xarakteristikası, funksiyaları, təsnifatları.

**Fəaliyyət və onun iradi tənzimi. Ünsiyyət**

Fəaliyyət və ünsiyyət haqqında anlayış. Tələbatlar fəallığın mənbəyi kimi. İradə haqqında anlayış. Fəaliyyətin iradi tənzimi. Ünsiyyətin növləri. Ünsiyyətin kommunikativ, interaktiv və perseptiv cəhətləri. Ailədaxili ünsiyyət.

**Şəxsiyyət və şəxsiyyətlərarası münasibətlər**

Fərd, şəxsiyyət və fərdiyyət. Şəxsiyyətin strukturu. Şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətləri. Temperament, xarakter, qabiliyyətlər haqqında anlayış. Təlimdə, tərbiyədə temperamentin rolu və şəxsiyyətə fərdi yanaşma. Xarakter əlamətləri. Qabiliyyətlər və onların quruluşu. Şəxsiyyətin cins və yaş xüsusiyyətləri.

Tələbatlar və motivlər. Şüur və şüursuzluq. Mənlik şüuru və onun funksiyaları. Şəxsiyyət nəzəriyyələri. Şəxsiyyətin özünüqiymətləndirməsi və iddia səviyyəsi. Şəxsiyyətin inkişafında bioloji və sosial amillərin rolu.

Şəxsiyyətlərarası münasibətlər: müəllim-şagird, şagird-şagird. Sinifdə şəxsiyyətlərarası münasibətlərin sosial-psixoloji xarakteristikası. Qrup və kollektiv. Şagirdlərin sosiometrik və referentometrik statusu. Sinfin kiçik qrup kimi xüsusiyyətləri.

**Yaş psixologiyası**

Yaş psixologiyasının predmeti, vəzifələri, metodları. Yaş psixologiyasının əsas bölmələri. Psixi inkişafın yaş dövrləri. Akselerant, reterdant və infantil uşaqlar.

İnkişaf haqqında anlayış. Psixi inkişafın qanunauyğunluqları. Psixi inkişafın mənbələri, hərəkətverici qüvvələri. Şəxsiyyətin fərdi və yaş xüsusiyyətlərinin diferensiasiyası. İnkişafın bioloji mərhələləri ilə intellektual inkişaf arasında əlaqə. Yaş xüsusiyyətlərinin nəzərə alınmasının əhəmiyyəti. Uşaq həyatının yaş dövrləri və onların xüsusiyyətləri. Embrional inkişaf. Körpəlik, erkən uşaqlıq, məktəbəqədər dövrlərin psixoloji xüsusiyyətləri. 3 və 7 yaş böhranının xüsusiyyətləri. Psixi inkişafda oyunun rolu. Uşaqların məktəbə psixoloji hazırlığının şərtləri.

**Kiçik məktəblinin psixi inkişafı və şəxsiyyətin formalaşması**

Kiçik məktəblinin idrak və təlim xüsusiyyətləri.

**Yeniyetmələrin psixoloji xüsusiyyətləri**

Yeniyetməlik yaşı dövründə anatomik-fizioloji dəyişmələr. Yeniyetmə yaşında mənlik şüurunun formalaşması: özünütəsdiqə və özünüqiymətləndirməyə tələbat. Yaşlılıq hissi. Yeniyetmənin təlim fəaliyyətinin psixoloji xüsusiyyətləri.

**İlk gənclik dövründə şəxsiyyətin inkişaf xüsusiyyətləri**

Böyük məktəblinin təlim fəaliyyəti və peşəyönümü məsələləri. Yetkin gəncliyin psixoloji xüsusiyyətləri.

**Pedaqoji psixologiya**

Pedaqoji psixologiyanın predmeti, vəzifələri və metodları. Pedaqoji psixologiyanın əsas sahələri. Təlim və tərbiyə psixologiyası.

Təlim prosesi pedaqoji psixologiyanın problemi kimi. L.S. Vıqotskinin təlim nəzəriyyəsi. Təlimin prinsipləri. Müasir dərs və şəxsiyyət. Təlimin məqsədlərinin taksonomiyası. Təlim motivləri. Təlimdə geri qalan şagirdlərlə işin psixoloji xüsusiyyətləri.

Şəxsiyyətin formalaşması tərbiyə psixologiyasının əsas problemi kimi. Özünütərbiyə və onun motivləri. "Çətin" uşaqlar haqqında anlayış, autistik və hiperaktiv uşaqlarla işin xüsusiyyətləri.

### ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2002.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı, 2003.
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998.
4. Həmzəyev M.Ə. Yaş və pedoqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003.
5. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002.
6. Mehdizadə Z. M. Uşaq psixologiyası. Bakı, 1984 (I hissə), 1988 (II hissə).
7. Ümumi psixologiya /Dərslik/ A.V. Petrovskinin redaktəsi ilə. Bakı: Maarif, 1982.
8. Немов Р.С. Психология. Ст. Петербург, 1996.

# Riyaziyyat və informatika müəllimliyi

## RİYAZİ ANALİZ

**Çoxluqlar nəzəriyyəsinin elementləri. Həqiqi ədədlər çoxluğu.** Çoxluqlar. Çoxluqlar üzərində əməllər. İnikaslar (funksiyalar). İnikasların xassələri. İnikasların superpozisiyası. Tərs inikaslar. Həqiqi ədədlər. Həqiqi ədədlərin aksiomatik qurulması. Ədədi çoxluqlar. Ədədi çoxluqlar üçün dəqiq aşağı və dəqiq yuxarı sərhədlərin varlığı. Bir-birinə daxil olan parçalar haqqında lemma. Sonlu örtük haqqında lemma.

**Ədədi ardıcıllıqlar. Ardıcıllığın limiti.** Ədədi ardıcıllıqlar. Ardıcıllığın limiti. Yığılan ardıcıllıqlar. Yığılan ardıcıllıqların xassələri. Monoton ardıcıllıqlar. "**e**" ədədi. Yığılan ardıcıllıqlar üzərində hesab əməlləri. Alt ardıcıllıqlar. Bolsano-Veyerştrass teoremi. Xüsusi limitlər. Ardıcıllığın yığılan olması üçün Koşi meyarı. Aşağı və yuxarı limitlər haqqında əsas teorem.

**Birdəyişənli funksiyalar. Funksiyanın limiti.** Çoxluğun limit nöqtəsi. Qapalı və açıq çoxluqlar. Elementar funksiyalar. Funksiya limitinin Heyne və Koşi mənada tərifləri, onların ekvivalentliyi. Funksiyanın nöqtədə birtərəfli limiti. Funksiya limitinin xassələri. Mürəkkəb funksiyanın limiti. Sonsuz kiçik və sonsuz böyük funksiyalar. Monoton funksiyaların limitləri. Funksiya limitinin varlığı üçün Koşi meyarı. Funksiyanın xüsusi limiti. Funksiyanın aşağı və yuxarı limitləri.

**Birdəyişənli kəsilməz funksiyalar.** Funksiyanın nöqtədə kəsilməzliyi.Funksiyanın nöqtədə birtərəfli kəsilməzliyi. Nöqtədə kəsilməz funksiyaların xassələri. Kəsilməz funksiyalar üzərində hesab əməlləri. Funksiyanın kəsilmə nöqtələri. Kəsilmə nöqtələrinin təsnifatı. Parçada kəsilməz funksiyanın qlobal xassələri (aralıq qiymət haqqında Bolsano-Koşi teoremi; maksimal və minimal qiymətlər haqqında Veyerştrass teoremi). Tərs funksiyanın varlığı və kəsilməzliyi. Müntəzəm kəsilməz funksiyalar. Kantor teoremi. Görkəmli limitlər. Funksiyaların nöqtə ətrafında müqayisəsi; «*O*» və «*o*» simvolları.

**Funksiyanın törəməsi və diferensialı.** Funksiyanın törəməsi və diferensialının təyini. Törəmə və diferensialın fiziki və həndəsi mənaları. Diferensiallanan funksiyalar üzərində hesab əməlləri. Törəməsi olan funksiyanın kəsilməzliyi. Tərs funksiyanın törəməsi. Mürəkkəb funksiyanın törəməsi və diferensialı. Birinci tərtib diferensialın formasının invariantlığı. Yüksək tərtib törəmələr və diferensiallar. Leybnis düsturu. Mürəkkəb funksiyaların və tərs funksiyaların yüksək tərtib törəmələri. Parametrik şəkildə verilən funksiyaların yüksək tərtib törəmələri. Diferensial hesabının əsas teoremləri: Ferma, Roll, Laqranj və Koşi teoremləri. Teylor düsturu. Qalıq həddinin Peano, Koşi və Laqranj formaları. Elementar funksiyalar üçün Teylor düsturu. Lopital qaydası.

**Diferensial hesabının üsulları ilə funksiyanın tədqiqi.** Funksiyanın monotonluğu şərtləri. Lokal ekstremum nöqtələri. Ekstremumun varlığı üçün zəruri şərtlər. Ekstremumun varlığı üçün kafi şərtlər. Funksiyanın qabarıqlığı və əyilmə nöqtələri. Funksiyanın asimptotları. Funksiyanın qrafikinin qurulması.

**Qeyri-müəyyən inteqral.** Qeyri-müəyyən inteqralın tərifi və xassələri. İnteqrallama düsturları cədvəli. İnteqrallamada dəyişənin əvəz edilməsi düsturu. Hissə-hissə inteqrallama düsturu. Rasional ifadələrin inteqrallanması. Diferensial binomun inteqrallanması. Bəzi sadə irrasional və transendent funksiyaların inteqrallanması.

**Müəyyən inteqral.** Müəyyən inteqralın təyini və varlığı şərti. İnteqrallanma üçün Darbu meyarı. İnteqrallanan funksiyalar sinifləri (kəsilməz funksiyanın, monoton funksiyanın, sonlu sayda kəsilmə nöqtəsinə malik məhdud funksiyanın inteqrallanması). Müəyyən inteqralın xassələri. Müəyyən inteqrallar üçün orta qiymət teoremləri. Yuxarı sərhədi dəyişən müəyyən inteqral. Kəsilməz funksiyanın ibtidai funksiyasının varlığı. Nyuton-Leybnis düsturu. Müəyyən inteqralda dəyişənin əvəz edilməsi və hissə-hissə inteqrallama düsturları. Teylor düsturunda qalıq həddinin inteqral forması.

**Ədədi sıralar.** Ədədi sıranın təyini və yığılması. Ədədi sıranın yığılması üçün zəruri şərt. Ədədi sıraların yığılması üçün Koşi meyarı. Müsbət hədli sıraların yığılması, müqayisə əlamətləri. Yığılmanın Dalamber, Koşi və Raabe əlamətləri. Hədlərinin işarəsi növbə ilə dəyişən sıralar. Leybnis əlaməti. Abel çevirməsi. Abel və Dirixle əlamətləri. Mütləq yığılan sıralar. Mütləq yığılan sıraların hədlərinin yerdəyişməsi xassəsi. Şərti yığılan sıralar. Riman teoremi.

**Funksional ardıcıllıqlar və sıralar.** Funksional ardıcıllıqlar və sıraların yığılması. Müntəzəm yığılma. Müntəzəm yığılma üçün Koşi meyarı. Müntəzəm yığılma üçün Veyerştrass, Abel və Dirixle əlamətləri. Müntəzəm yığılan sıraların cəminin xassələri: sıranın cəminin kəsilməzliyi, sırada hədbəhəd limitə keçmə, sıranın hədbəhəd diferensiallanması və inteqrallanması haqqında teoremlər.

**Qüvvət sıraları.** Qüvvət sıraları. Qüvvət sırasının yığılma radiusu və yığılma oblastı. Koşi-Adamar düsturu. Qüvvət sırasının cəminin kəsilməzliyi. Qüvvət sıralarının hədbəhəd inteqrallanması və diferensiallanması. Teylor sırası. Elementar funksiyaların Teylor sıralarına ayrılışı.

**Çoxdəyişənli funksiyalar. Çoxdəyişənli funksiyanın limiti.** $R^n$ fəzası. $R^n$ fəzasının nöqtəvi çoxluqlarının əsas metrik xarakteristikaları. $R^n$-də açıq, qapalı və kompakt çoxluqlar. $R^n$-də çoxluğun toxunma, limit və izolə olunmuş nöqtələri. $R^n$-də ardıcıllığın limiti. Yığılan ardıcıllıqların xassələri. Çoxdəyişənli funksiyalar. Çoxdəyişənli funksiyanın limitinin müxtəlif tərifləri və onların ekvivalentliyi. Təkrar limitlər.

**Çoxdəyişənli kəsilməz funksiyalar.** Çoxdəyişənli funksiyaların kəsilməzliyi və kəsilmə nöqtələri. Kəsilməz

funksiyanın xassələri. Oblastda kəsilməz funksiyalar. Bolsano-Koşi teoremləri. Kompakt çoxluqda kəsilməz funksiyalar. Veyerştrass teoremləri. Müntəzəm kəsilməz funksiyalar. Kantor teoremi.

**Çoxdəyişənli funksiyaların diferensial hesabı.** Çoxdəyişənli funksiyanın xüsusi törəmələri. Çoxdəyişənli funksiyanın diferensiallanması. Çoxdəyişənli funksiyanın xüsusi törəmələrinin və tam diferensialının həndəsi mənası. Mürəkkəb funksiyanın diferensiallanması. İstiqamətə görə törəmə. Qradiyent. Çoxdəyişənli funksiyaların yüksək tərtib xüsusi törəmələri və diferensialları. Qarışıq törəmələrin bərabərliyi haqqında Şvars teoremi. Çoxdəyişənli funksiyalar üçün Teylor düsturu. Çoxdəyişənli funksiyaların ekstremumu, ekstremumun varlığı üçün zəruri və kafi şərtlər. $R^n$-dən $R^m$-ə inikaslar, onların diferensiallanması, törəmə matrisi, Yakobianlar. Qeyri-aşkar funksiyalar. Qeyri-aşkar funksiyaların varlığı, kəsilməzliyi və diferensiallanması haqqında teoremlər. Çoxdəyişənli funksiyanın şərti ekstremumu. Şərti ekstremumun tapılması üçün Laqranjın qeyri-müəyyən vuruqlar üsulu.

**Qeyri-məxsusi inteqrallar.** Qeyri-məxsusi inteqralların təyini. Qeyri-məxsusi inteqrallar üçün inteqral hesabının düsturları. Qeyri-məxsusi inteqralların yığılması üçün Koşi meyarı. Müsbət funksiyaların qeyri-məxsusi inteqrallarının yığılma əlamətləri. Mütləq və şərti yığılma. Dirixle və Abel əlamətləri.

**İkiqat və çoxqat inteqrallar:** İkiqat inteqralların təyini. İkiqat inteqralın varlığı şərti. İnteqrallanan funksiyalar sinfi. İkiqat inteqralın və inteqrallanan funksiyaların xassələri. İkiqat inteqralın təkrar inteqrala gətirilməsi. Qrin düsturu. İkiqat inteqralda dəyişənlərin əvəz edilməsi.

## ƏDƏBİYYAT


1. Abdullayev S.K., Abdullayev F.A., Mehrabov V.A. Riyazi analiz. Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2011.
2. Alməmmədov M.S. Xətti cəbr, analitik həndəsə, riyazi analiz kurslarından məsələ və misal həllinə rəhbərlik. Bakı: Adiloğlu, 2012.
3. Demidoviç B.P. Riyazi analizdən məsələ və misallar. Bakı: "MBM" MMC, 2008.
4. Əliyev R.Ə., Abdullayev C.S. Riyazi analizdən məsələ və misallar. Bakı, 2001.
5. Kərimov N.B., Amanov R.Ə. Birdəyişənli funksiyaların inteqral hesabı. Bakı, 2003.
6. Аксенов А.П. Математический анализ. В 2-х частях. Часть 1. В 2-х томах. Том 1-2. Учебник и практикум (комплект из 2 книг). Академический курс для бакалавриата. Москва: Юрайт, 2016.
7. Аксенов А.П. Математический анализ. В 2-х частях. Часть 2. В 2-х томах. Том 3-4. Учебник и практикум (комплект из 2 книг). Академический курс для бакалавриата. Москва: Юрайт, 2016.
8. Баврин И.И. Математический анализ для педагогических вузов. Учебник и практикум. Бакалавриат. Прикладной курс. 2-е издание, исправленное и дополненное. Москва: Юрайт, 2016.
9. Демидович Б.П. Сборник задач и упражнений по математическому анализу. Москва: Астрель, 2009.
10. Запорожец Г.И. Руководство к решению задач по математическому анализу. Учебное пособие. 8-е издание, стереотипное. Москва: Лань, 2014.
11. Зорич В.А. Математический анализ. Часть 1. Москва: МЦНМО, 2015.
12. Зорич В.А. Математический анализ. Часть 2. Москва: МЦНМО, 2015.
13. Ильин В.А., Позняк Э.Г. Основы математического анализа. Часть 1. 7-е издание, стереотипное. Москва: Физматлит, 2009.
14. Ильин В.А., Позняк Э.Г. Основы математического анализа. Часть 2. 7-е издание, стереотипное. Москва: Физматлит, 2009.
15. Ильин В.А., Садовничий В.А., Сендов Бл.Х. Математический анализ. Бакалавриат. 4-е издание. Часть 1. Москва: Юрайт, 2013.
16. Ильин В.А., Садовничий В.А., Сендов Бл.Х. Математический анализ. Бакалавриат. 4-е издание. Часть 2. Москва: Юрайт, 2013.
17. Кудрявцев Л.Д. Краткий курс математического анализа. Том 1. Дифференциальное и интегральное исчисление функций одной переменной. Ряды. Учебник. 4-е издание, переработанное. Москва: Физматлит, 2015.
18. Кудрявцев Л.Д. Краткий курс математического анализа. Том 2. Дифференциальное и интегральное исчисления функций многих переменных. Учебник. 4-е издание, переработанное. Москва: Физматлит, 2015.
19. Кудрявцев Л.Д. Курс математического анализа. Учебник. В 3-х томах. Академический курс для бакалавриата. 6-е издание, переработанное и дополненное. Москва: Юрайт, 2015.
20. Кудрявцев Л.Д., Кутасов А.Д., Чехлов В.И., Шабунин М.И. Сборник задач по математическому анализу. Том 2. Интегралы. Ряды. 2-е издание, переработанное и дополненное. Москва: Физматлит, 2009.
21. Кудрявцев Л.Д., Кутасов А.Д., Чехлов В.И., Шабунин М.И. Сборник задач по математическому анализу. Том 3. Функции нескольких переменных. 2-е издание, переработанное и дополненное. Москва: Физматлит, 2003.
22. Фихтенгольц Г.М. Курс дифференциального и интегрального исчисления. В 3-х томах. Том 1. 9-е издание, стереотипное. Москва: Лань, 2009.

23. Фихтенгольц Г.М. Курс дифференциального и интегрального исчисления. В 3-х томах. Том 2. 9-е издание, стереотипное. Москва: Лань, 2009.
24. Фихтенгольц Г.М. Курс дифференциального и интегрального исчисления. В 3-х томах. Том 3. 9-е издание, стереотипное. Москва: Лань, 2009.
25. Шилов Г.Е. Математический анализ. Функции одного переменного. Москва: Лань, 2002.
26. Яковлев Г.Н. Лекции по математическому анализу. Часть 1. 2-е издание, переработанное и дополненное. Москва: Физматлит, 2004.
27. Яковлев Г.Н. Лекции по математическому анализу. Часть 2. 2-е издание, переработанное и дополненное. Москва: Физматлит, 2004.

## VERİLƏNLƏRİN STRUKTURLARI VƏ ALQORİTMLƏR

**Verilənlərin strukturları:** skalyar; massivlər; rabitəli siyahılar; steklər, növbələr, deklər; qraflar, ikilik ağaclar. Verilənlərin strukturlarının kompüterin yaddaşında təsviri. Verilənlərin strukturları ilə işin sadə alqoritmləri: cəmlərin, hasillərin hesablanması, maksimal və minimal elementlərin tapılması; axtarış, silmə və daxiletmə alqoritmləri; sadə ədədlərin müəyyən edilməsi, səmərəli şəkildə qüvvətə yüksəltmə, Evklid alqoritmləri.

**Alqoritmlər.** Tipik alqoritmik strukturlar. Alqoritmlərin mürəkkəbliyi. Böyük O notasiyası. Standart mürəkkəblik sinifləri (sabit, xətti, loqarifmik, O (Nlog(N)), kvadratik, kubik, eksponensial). "Ayır və hökmranlıq et" alqoritmləri, "geri çəkilmə" ilə alqoritmlər, budaqlar və sərhədlər metodu, dinamik proqramlaşdırma, "Həris" alqoritmlər. Kombinator alqoritmlər. Qraflar üzərində alqoritmlər. Sətirlərlə iş alqoritmləri. Çeşidləmə alqoritmləri: seçmə, mübadilə, daxiletmə, sürətli çeşidləmə.

### ƏDƏBİYYAT

1. Kərimov S.Q., Sərdarov Y.B. Kompüter elminin nəzəri əsasları. Dərslik. Bakı: ADNA, 2009.
2. Кормен, Томас Х., Лейзерсон, Чарльз И., Ривест, Рональд Л., Штайн, Клиффорд. Алгоритмы: построение и анализ, 2-е издание. Москва: Вильямс, 2005.
3. Круз З. Структуры данных и проектирование программ. Москва: БИНОМ, 2010.
4. Макконнелл Дж., Основы современных алгоритмов. Москва:Техносфера, 2004.

# Riyaziyyat müəllimliyi

## RİYAZİ ANALİZ

**Çoxluqlar nəzəriyyəsinin elementləri. Həqiqi ədədlər çoxluğu.** Çoxluqlar. Çoxluqlar üzərində əməllər. İnikaslar (funksiyalar). İnikasların xassələri. İnikasların superpozisiyası. Tərs inikaslar. Həqiqi ədədlər. Həqiqi ədədlərin aksiomatik qurulması. Ədədi çoxluqlar. Ədədi çoxluqlar üçün dəqiq aşağı və dəqiq yuxarı sərhədlərin varlığı. Bir-birinə daxil olan parçalar haqqında lemma. Sonlu örtük haqqında lemma.

**Ədədi ardıcıllıqlar. Ardıcıllığın limiti.** Ədədi ardıcıllıqlar. Ardıcıllığın limiti. Yığılan ardıcıllıqlar. Yığılan ardıcıllıqların xassələri. Monoton ardıcıllıqlar. "**e**" ədədi. Yığılan ardıcıllıqlar üzərində hesab əməlləri. Alt ardıcıllıqlar. Bolsano-Veyerştrass teoremi. Xüsusi limitlər. Ardıcıllığın yığılan olması üçün Koşi meyarı. Aşağı və yuxarı limitlər haqqında əsas teorem.

**Birdəyişənli funksiyalar. Funksiyanın limiti.** Çoxluğun limit nöqtəsi. Qapalı və açıq çoxluqlar. Elementar funksiyalar. Funksiya limitinin Heyne və Koşi mənada tərifləri, onların ekvivalentliyi. Funksiyanın nöqtədə birtərəfli limiti. Funksiya limitinin xassələri. Mürəkkəb funksiyanın limiti. Sonsuz kiçik və sonsuz böyük funksiyalar. Monoton funksiyaların limitləri. Funksiya limitinin varlığı üçün Koşi meyarı. Funksiyanın xüsusi limiti. Funksiyanın aşağı və yuxarı limitləri.

**Birdəyişənli kəsilməz funksiyalar.** Funksiyanın nöqtədə kəsilməzliyi.Funksiyanın nöqtədə birtərəfli kəsilməzliyi. Nöqtədə kəsilməz funksiyaların xassələri. Kəsilməz funksiyalar üzərində hesab əməlləri. Funksiyanın kəsilmə nöqtələri. Kəsilmə nöqtələrinin təsnifatı. Parçada kəsilməz funksiyanın qlobal xassələri (aralıq qiymət haqqında Bolsano-Koşi teoremi; maksimal və minimal qiymətlər haqqında Veyerştrass teoremi). Tərs funksiyanın varlığı və kəsilməzliyi. Müntəzəm kəsilməz funksiyalar. Kantor teoremi. Görkəmli limitlər. Funksiyaların nöqtə ətrafında müqayisəsi; «*O*» və «*o*» simvolları.

**Funksiyanın törəməsi və diferensialı.** Funksiyanın törəməsi və diferensialının təyini. Törəmə və diferensialın fiziki və həndəsi mənaları. Diferensiallanan funksiyalar üzərində hesab əməlləri. Törəməsi olan funksiyanın kəsilməzliyi. Tərs funksiyanın törəməsi. Mürəkkəb funksiyanın törəməsi və diferensialı. Birinci tərtib diferensialın formasının invariantlığı. Yüksək tərtib törəmələr və diferensiallar. Leybnis düsturu. Mürəkkəb funksiyaların və tərs funksiyaların yüksək tərtib törəmələri. Parametrik şəkildə verilən funksiyaların yüksək tərtib törəmələri. Diferensial hesabının əsas teoremləri: Ferma, Roll, Laqranj və Koşi teoremləri. Teylor düsturu. Qalıq həddinin Peano, Koşi və Laqranj formaları. Elementar funksiyalar üçün Teylor düsturu. Lopital qaydası.

**Diferensial hesabının üsulları ilə funksiyanın tədqiqi.** Funksiyanın monotonluğu şərtləri. Lokal ekstremum nöqtələri. Ekstremumun varlığı üçün zəruri şərtlər. Ekstremumun varlığı üçün kafi şərtlər. Funksiyanın qabarıqlığı və əyilmə nöqtələri. Funksiyanın asimptotları. Funksiyanın qrafikinin qurulması.

**Qeyri-müəyyən inteqral.** Qeyri-müəyyən inteqralın tərifi və xassələri. İnteqrallama düsturları cədvəli. İnteqrallamada dəyişənin əvəz edilməsi düsturu. Hissə-hissə inteqrallama düsturu. Rasional ifadələrin inteqrallanması. Diferensial binomun inteqrallanması. Bəzi sadə irrasional və transendent funksiyaların inteqrallanması.

**Müəyyən inteqral.** Müəyyən inteqralın təyini və varlığı şərti. İnteqrallanma üçün Darbu meyarı. İnteqrallanan funksiyalar sinifləri (kəsilməz funksiyanın, monoton funksiyanın, sonlu sayda kəsilmə nöqtəsinə malik məhdud funksiyanın inteqrallanması). Müəyyən inteqralın xassələri. Müəyyən inteqrallar üçün orta qiymət teoremləri. Yuxarı sərhədi dəyişən müəyyən inteqral. Kəsilməz funksiyanın ibtidai funksiyasının varlığı. Nyuton-Leybnis düsturu. Müəyyən inteqralda dəyişənin əvəz edilməsi və hissə-hissə inteqrallama düsturları. Teylor düsturunda qalıq həddinin inteqral forması.

**Ədədi sıralar.** Ədədi sıranın təyini və yığılması. Ədədi sıranın yığılması üçün zəruri şərt. Ədədi sıraların yığılması üçün Koşi meyarı. Müsbət hədli sıraların yığılması, müqayisə əlamətləri. Yığılmanın Dalamber, Koşi və Raabe əlamətləri. Hədlərinin işarəsi növbə ilə dəyişən sıralar. Leybnis əlaməti. Abel çevirməsi. Abel və Dirixle əlamətləri. Mütləq yığılan sıralar. Mütləq yığılan sıraların hədlərinin yerdəyişməsi xassəsi. Şərti yığılan sıralar. Riman teoremi.

**Funksional ardıcıllıqlar və sıralar.** Funksional ardıcıllıqlar və sıraların yığılması. Müntəzəm yığılma. Müntəzəm yığılma üçün Koşi meyarı. Müntəzəm yığılma üçün Veyerştrass, Abel və Dirixle əlamətləri. Müntəzəm yığılan sıraların cəminin xassələri: sıranın cəminin kəsilməzliyi, sırada hədbəhəd limitə keçmə, sıranın hədbəhəd diferensiallanması və inteqrallanması haqqında teoremlər.

**Qüvvət sıraları.** Qüvvət sıraları. Qüvvət sırasının yığılma radiusu və yığılma oblastı. Koşi-Adamar düsturu. Qüvvət sırasının cəminin kəsilməzliyi. Qüvvət sıralarının hədbəhəd inteqrallanması və diferensiallanması. Teylor sırası. Elementar funksiyaların Teylor sıralarına ayrılışı.

**Çoxdəyişənli funksiyalar. Çoxdəyişənli funksiyanın limiti.** $R^n$ fəzası. $R^n$ fəzasının nöqtəvi çoxluqlarının əsas metrik xarakteristikaları. $R^n$-də açıq, qapalı və kompakt çoxluqlar. $R^n$-də çoxluğun toxunma, limit və izolə olunmuş nöqtələri. $R^n$-də ardıcıllığın limiti. Yığılan ardıcıllıqların xassələri. Çoxdəyişənli funksiyalar. Çoxdəyişənli funksiyanın limitinin müxtəlif tərifləri və onların ekvivalentliyi. Təkrar limitlər.

**Çoxdəyişənli kəsilməz funksiyalar.** Çoxdəyişənli funksiyaların kəsilməzliyi və kəsilmə nöqtələri. Kəsilməz funksiyanın xassələri. Oblastda kəsilməz funksiyalar. Bolsano-Koşi teoremləri. Kompakt çoxluqda kəsilməz funksiyalar. Veyerştrass teoremləri. Müntəzəm kəsilməz funksiyalar. Kantor teoremi.

**Çoxdəyişənli funksiyaların diferensial hesabı.** Çoxdəyişənli funksiyanın xüsusi törəmələri. Çoxdəyişənli funksiyanın diferensiallanması. Çoxdəyişənli funksiyanın xüsusi törəmələrinin və tam diferensialının həndəsi mənası. Mürəkkəb funksiyanın diferensiallanması. İstiqamətə görə törəmə. Qradiyent. Çoxdəyişənli funksiyaların yüksək tərtib xüsusi törəmələri və diferensialları. Qarışıq törəmələrin bərabərliyi haqqında Şvars teoremi. Çoxdəyişənli funksiyalar üçün Teylor düsturu. Çoxdəyişənli funksiyaların ekstremumu, ekstremumun varlığı üçün zəruri və kafi şərtlər. $R^n$-dən $R^m$-ə inikaslar, onların diferensiallanması, törəmə matrisi, Yakobianlar. Qeyri-aşkar funksiyalar. Qeyri-aşkar funksiyaların varlığı, kəsilməzliyi və diferensiallanması haqqında teoremlər. Çoxdəyişənli funksiyanın şərti ekstremumu. Şərti ekstremumun tapılması üçün Laqranjın qeyri-müəyyən vuruqlar üsulu.

**Qeyri-məxsusi inteqrallar.** Qeyri-məxsusi inteqralların təyini. Qeyri-məxsusi inteqrallar üçün inteqral hesabının düsturları. Qeyri-məxsusi inteqralların yığılması üçün Koşi meyarı. Müsbət funksiyaların qeyri-məxsusi inteqrallarının yığılma əlamətləri. Mütləq və şərti yığılma. Dirixle və Abel əlamətləri.

**İkiqat və çoxqat inteqrallar:** İkiqat inteqralların təyini. İkiqat inteqralın varlığı şərti. İnteqrallanan funksiyalar sinfi. İkiqat inteqralın və inteqrallanan funksiyaların xassələri. İkiqat inteqralın təkrar inteqrala gətirilməsi. Qrin düsturu. İkiqat inteqralda dəyişənlərin əvəz edilməsi.

## ƏDƏBİYYAT


1. Abdullayev S.K., Abdullayev F.A., Mehrabov V.A. Riyazi analiz. Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2011.
2. Alməmmədov M.S. Xətti cəbr, analitik həndəsə, riyazi analiz kurslarından məsələ və misal həllinə rəhbərlik. Bakı: Adiloğlu, 2012.
3. Demidoviç B.P. Riyazi analizdən məsələ və misallar. Bakı: "MBM" MMC, 2008.
4. Əliyev R.Ə., Abdullayev C.S. Riyazi analizdən məsələ və misallar. Bakı, 2001.
5. Kərimov N.B., Amanov R.Ə. Birdəyişənli funksiyaların inteqral hesabı. Bakı, 2003.
6. Аксенов А.П. Математический анализ. В 2-х частях. Часть 1. В 2-х томах. Том 1-2. Учебник и практикум (комплект из 2 книг). Академический курс для бакалавриата. Москва: Юрайт, 2016.
7. Аксенов А.П. Математический анализ. В 2-х частях. Часть 2. В 2-х томах. Том 3-4. Учебник и практикум (комплект из 2 книг). Академический курс для бакалавриата. Москва: Юрайт, 2016.
8. Баврин И.И. Математический анализ для педагогических вузов. Учебник и практикум. Бакалавриат. Прикладной курс. 2-е издание, исправленное и дополненное. Москва: Юрайт, 2016.
9. Демидович Б.П. Сборник задач и упражнений по математическому анализу. Москва: Астрель, 2009.
10. Запорожец Г.И. Руководство к решению задач по математическому анализу. Учебное пособие. 8-е издание, стереотипное. Москва: Лань, 2014.
11. Зорич В.А. Математический анализ. Часть 1. Москва: МЦНМО, 2015.
12. Зорич В.А. Математический анализ. Часть 2. Москва: МЦНМО, 2015.
13. Ильин В.А., Позняк Э.Г. Основы математического анализа. Часть 1. 7-е издание, стереотипное. Москва: Физматлит, 2009.
14. Ильин В.А., Позняк Э.Г. Основы математического анализа. Часть 2. 7-е издание, стереотипное. Москва: Физматлит, 2009.
15. Ильин В.А., Садовничий В.А., Сендов Бл.Х. Математический анализ. Бакалавриат. 4-е издание. Часть 1. Москва: Юрайт, 2013.
16. Ильин В.А., Садовничий В.А., Сендов Бл.Х. Математический анализ. Бакалавриат. 4-е издание. Часть 2. Москва: Юрайт, 2013.
17. Кудрявцев Л.Д. Краткий курс математического анализа. Том 1. Дифференциальное и интегральное исчисление функций одной переменной. Ряды. Учебник. 4-е издание, переработанное. Москва: Физматлит, 2015.
18. Кудрявцев Л.Д. Краткий курс математического анализа. Том 2. Дифференциальное и интегральное исчисления функций многих переменных. Учебник. 4-е издание, переработанное. Москва: Физматлит, 2015.
19. Кудрявцев Л.Д. Курс математического анализа. Учебник. В 3-х томах. Академический курс для бакалавриата. 6-е издание, переработанное и дополненное. Москва: Юрайт, 2015.
20. Кудрявцев Л.Д., Кутасов А.Д., Чехлов В.И., Шабунин М.И. Сборник задач по математическому анализу. Том 2. Интегралы. Ряды. 2-е издание, переработанное и дополненное. Москва: Физматлит, 2009.
21. Кудрявцев Л.Д., Кутасов А.Д., Чехлов В.И., Шабунин М.И. Сборник задач по математическому анализу. Том 3. Функции нескольких переменных. 2-е издание, переработанное и дополненное. Москва: Физматлит, 2003.
22. Фихтенгольц Г.М. Курс дифференциального и интегрального исчисления. В 3-х томах. Том 1. 9-е издание, стереотипное. Москва: Лань, 2009.

23. Фихтенгольц Г.М. Курс дифференциального и интегрального исчисления. В 3-х томах. Том 2. 9-е издание, стереотипное. Москва: Лань, 2009.
24. Фихтенгольц Г.М. Курс дифференциального и интегрального исчисления. В 3-х томах. Том 3. 9-е издание, стереотипное. Москва: Лань, 2009.
25. Шилов Г.Е. Математический анализ. Функции одного переменного. Москва: Лань, 2002.
26. Яковлев Г.Н. Лекции по математическому анализу. Часть 1. 2-е издание, переработанное и дополненное. Москва: Физматлит, 2004.
27. Яковлев Г.Н. Лекции по математическому анализу. Часть 2. 2-е издание, переработанное и дополненное. Москва: Физматлит, 2004.


## HƏNDƏSƏ

**Vektorlar.** Vektor anlayışı. Vektorun cəbri qiyməti. Vektorlar üzərində xətti əməllər. Bazis anlayışı, verilmiş bazisə nəzərən vektorun koordinatları. Ortonormal bazis. Vektorun uzunluğu. İki vektor arasında qalan bucaq. Yönəldici kosinuslar. İki vektorun skalyar hasili. Vektorial hasil.

**Müstəvi üzərində və fəzada koordinat sistemləri.** Müstəvi üzərində və fəzada afin koordinat sistemi. Parçanın verilən nisbətdə bölünməsi. Müstəvi üzərində və fəzada düzbucaqlı koordinat sistemi. Müstəvi üzərində polyar koordinat sistemi.

**Koordinatların çevrilməsi.** Müstəvi üzərində və fəzada afin koordinatların çevrilməsi. Çevrilmənin matrisi. Müstəvi üzərində və fəzada düzbucaqlı koordinatların çevrilməsi.

**Müstəvi üzərində düz xətt.** Düz xəttin kanonik, parametrik və bucaq əmsallı tənlikləri. İki nöqtədən keçən düz xətt tənliyi. Düz xəttin ümumi tənliyi. İki düz xəttin qarşılıqlı vəziyyəti. Düz xəttin normal tənliyi. Nöqtədən düz xəttə qədər olan məsafə. İki düz xətt arasında qalan bucaq.

**Ellips, hiperbola, parabola.** Ellipsin kanonik tənliyi və həndəsi xassələri. Hiperbolanın kanonik tənliyi və həndəsi xassələri. Parabolanın kanonik tənliyi və həndəsi xassələri. Ellips və hiperbolanın direktirisləri və fokal radiusları. Ellips, hiperbola və parabolanın polyar koordinatlarla tənliyi. Ellips, hiperbola və parabolaya toxunan düz xətlərin tənlikləri.

**Fəzanın və müstəvinin oriyentasiyası.** Müstəvinin oriyentasiyası. Fəzanın oriyentasiyası. İki vektorun vektorial hasili, vektorial hasil əməlinin xassələri. Üçbucağın və paraleloqramın sahəsinin hesablanmasına vektorial hasilin tətbiqi. Üç vektorun qarışıq hasili, qarışıq hasil əməlinin xassələri. Paralelepipedin və tetraedrin həcminin hesablanmasına qarışıq hasilin tətbiqi.

**Fəzada müstəvi və düz xətt.** Müstəvinin parametrik tənlikləri. Üç nöqtədən keçən müstəvi tənliyi. Müstəvinin parçalarla tənliyi. Müstəvinin ümumi tənliyi və onun xüsusi halları. İki müstəvinin qarşılıqlı vəziyyəti. Müstəvinin normal tənliyi. Nöqtədən müstəviyə qədər olan məsafə. İki müstəvi arasında qalan bucaq. Fəzada düz xəttin kanonik və parametrik tənlikləri. İki nöqtədən keçən düz xətt tənlikləri. Düz xətt iki müstəvinin kəsişməsi kimi. Fəzada iki düz xəttin və düz xətlə müstəvinin qarşılıqlı vəziyyətləri Düz xətt və müstəvi arasında qalan bucaq. Fəzada iki düz xətt arasında qalan bucaq.

**İki tərtibli səthlər.** Silindrik səthlər. Konik səthlər. Fırlanma səthi. Ellipsoidlər. Biroyuqlu və ikioyuqlu hiperboloidlər. Elliptik və hiperbolik paraboloidlər.

**Əyrilərin diferensial həndəsəsi**. Əyri, əyri tənlikləri. Hamar əyrilər. Əyriyə toxunan düz xətt. Təbii parametrizasiya. Əyrinin kanonik reperi. Frene düsturları. Əyrilik və buruqluq. Müstəvi əyriləri.

**Səthlərin diferensial həndəsəsi.** Səthin verilmə üsulları, tənlikləri. Hamar səthlər. Səthin toxunan müstəvisi və normalı. Birinci kvadratik forma. Birinci kvadratik forma ilə həll olunan məsələlər. Səthin ikinci kvadratik forması. Normal əyrilik. Səthin verilmiş nöqtəsində baş istiqamətləri və baş əyrilikləri. Səth üzərində bəzi mühüm əyrilər. Səthin törəmə düsturları. Qauss teoremi.

## ƏDƏBİYYAT


1. Cavadov M.Ə. Vektor hesabı. Bakı, 1967.
2. Həsənova X., Cəfərov C. Xətti cəbrin və analitik həndəsənin elementləri. Bakı: Elm və təhsil, 2013.
3. Paşayev X.X., Nəcəfov M.A. Analitik həndəsədən mühazirələr. Bakı, 2002.
4. Privalov İ.İ. Analitik həndəsə Dərslik. Bakı: Azərtədrisnəşr, 1964.
6. Qasımova S.S. Analitik həndəsədən mühazirələr. Dərs vəsaiti. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006.
7. Александров П.С. Лекции по аналитической геометрии, пополненные необходимыми сведениями из алгебры с приложением собрания задач, снабженных решениями, составленного А.С. Пархоменко. Москва: Наука, 1968.
8. Беклемишев Д.В. Курс аналитической геометрии и линейной алгебры. 13-е издание, исправленное. Москва: Лань, 2015.
9. Золотаревская Д.И. Аналитическая геометрия. Учебное пособие. Издание стереотипное. Москва: Либроком, 2016.
10. Ким Г.Д., Ильин В.А. Линейная алгебра и аналитическая геометрия. Учебник для вузов. Москва: Велби, 2008.

11. Мищенко А.С., Фоменко А.Т. Курс дифференциальной геометрии и топологии. 3-е издание, переработанное и дополненное. Москва: Лань, 2010.

## CƏBR VƏ ƏDƏDLƏR NƏZƏRİYYƏSİ

**Ümumi cəbrin elementləri. Çoxluqlar və onlar üzərində əsas əməllər.** Birləşmə, kəsişmə, Dekart hasili; Qismən nizam, nizamlı çoxluq; Binar münasibətlər, ekvivalentlik münasibəti, ekvivalentlik sinfi, örtük, bölgü və onlara aid sadə misallar (tam ədədlərin müqayisələri ekvivalentlik kimi, çıxıqlar sinfi və s.), faktor çoxluq; İnyektiv, süryektiv və biyektiv inikaslar, inikasların kompozisiyası, eynilik inikası, inikasın tərsi. Əvəzləmələr və yerdəyişmələr: yerdəyişmədə transpozisiya, inversiya, əvəzləmənin cütlüyü; əvəzləmələrin hasili, əvəzləmənin tərsi, transpozisiya haqqında teorem.

**Cəbri əməl və sadə cəbri strukturlar.** Kompleks ədədlər meydanı, kompleks ədədlərin aksiomatik tərifi, onlar üzərində əməllər, kompleks ədədin tərsi, kompleks ədədin triqonometrik şəkli, Muavr düsturu, vahidin kökləri qrupu.

**Matrislər.** Onların cəmi və hasili, əsas xassələr. Matrisin ranqı, sətr və sütun ranqlarının bərabərliyi, ranqın minorla ifadəsi. Matrislər hasilinin determinantı, vahid və tərs matris, tərs matrisin varlıq şərti, matrislər hasilinin ranqı, oxşar matrislərin ranqı və determinantları haqqında xassələr.

**Xətti cəbri tənliklər sistemi**. Xətti cəbri tənliklər sisteminin ümumi şəkli, onun növləri, bircins tənliklər sistemi və onun həlli, ümumi və xüsusi həllər, uyuşan (birgə) və uyuşmayan, müəyyən və qeyri–müəyyən sistemlər. Kramer teoremi və qaydası, xətti tənliklər sisteminin araşdırılması, həllinə tətbiqləri; elementar çevirmələr və tənliklər sistemlərinin ekvivalentliyi, Qauss üsulu. Kroneker–Kapelli teoremi, bircins tənliklər sisteminin həllər fəzası, sistemin həlləri çoxluğu ilə uyğun bircins sistemin həllər fəzası arasında əlaqə, fundamental həllər sistemi.

**Determinant.** Onun konstruktiv tərifi və xassələri, determinantın həddinin işarəsi, determinantın bəzi xüsusi növləri (diaqonal, üçbucaq, blok şəkilli və s); minor və cəbri tamamlayıcı, determinantın sətir elementlərinə ayrılışı, Laplas teoremi və onun xüsusi halı, determinantın sıfıra bərabər olmasının zəruri və kafi şərti.

**Çoxhədlilər.** Çoxhədlinin dərəcəsi və onun xassələri, çoxhədlinin kökü, qalıqlı bölmə alqoritmi. Bezu teoremi, Hörner sxemi, çoxhədlinin törəməsi və onun təkrar köklərlə əlaqəsi. Çoxhədlinin həqiqi və kompleks ədədlər meydanında gətirilməyən vuruqlara ayrılışı. Çoxdəyişənli çoxhədlilər halqası; onlar üzərində əməllər, elementar simmetrik çoxhədlilər; simmetrik çoxhədlilər və onlar haqqında əsas teorem. Viyet düsturları. Çoxhədlilər halqasının nisbətlər meydanı, rasional və sadə kəsrlər, qeyri-müəyyən əmsallar metodu. ƏBOB və ƏKOB, qarşılıqlı sadə çoxhədlilər, onların xassələri; cəbri qapalı meydan, cəbri və transendent ünsür.

**Xətti cəbr. Xətti fəza.** Vektorlar sisteminin ranqı. Vektorların cəmi, ədədə hasili, arifmetik fəza, xətti asılılıq, xətti fəzaların ölçüsü, bazisi. Eyni sonlu ölçülü xətti fəzaların izomorfluğu; xətti fəzaların alt fəzaları, alt fəzaların cəmi, kəsişməsi, düz cəmi, onların ölçüləri haqqında teorem; xətti inikaslarla matrislərin əlaqəsi; matrislərin vurulması ilə dəyişənlərin xətti çevirməsinin əlaqəsi; xətti funksiyalar; qoşma fəza və onun ölçüsü; Xətti operatorlar, onlar üzərində əməllər; xətti operatorun müxtəlif bazislərdə matrisləri; İnvariant alt fəzalar; məxsusi vektor və məxsusi qiymət, spektr. Sadə spektrli operator və onun matrisi;

**Skalyar hasil.** Evklid fəzası, vektorun norması, vektorlar arasında bucaq və məsafə, Koşi–Bunyakovski bərabərsizliyi. Ortoqonallıq, ortoqonallaşdırma prosesi, Qram–Şmid teoremi. Alt fəzanın ortoqonal tamamlayıcısı.

### ƏDƏBİYYAT

1. Baxşəliyev Y.R., Əbdülkərimli L.S. Cəbr kursu. Dərslik. Bakı: Elm və təhsil, 2011.
2. Əkbərov M.S., Əliyeva N.R., Nəsibova L.M. Kompleks ədədlər. Bakı, 1996.
3. Feyziyev F.G. Cəbr və ədədlər nəzəriyyəsi. Dərs vəsaiti. Bakı: TƏHSİL NPM, 2016.
4. Qasımov V.Ə. Qruplar və halqalar. II cild. Bakı: “BDU”, 1999.
5. Sultanov R.M. Xətti cəbrin əsasları. Bakı: “ADU”, 1960.
6. Березина Н.А. Линейная алгебра. Конспект лекций. Москва: Эксмо, 2007.
7. Бурмистрова Е.Б., Лобанов С.Г. Линейная алгебра. Учебник и практикум. Бакалавр. Академический курс. Москва: Юрайт, 2014.
8. Волков Ю.В., Ермолаева Н.Н., Козынченко В.А., Курбатова Г.И. Практические занятия по алгебре. Комплексные числа, многочлены. Санкт-Петербург: Лань, 2014.
9. Гельфанд И.М. Лекции по линейной алгебре. 6-е издание, исправленное. Москва: Добросвет, КДУ, 2009.
10. Кострикин А.И. Введение в алгебру. В 3-х частях. Часть 1. Основы алгебры. 2-е издание, стереотипное. Москва: «МЦНМО», 2012.
11. Кострикин А.И. Введение в алгебру. В 3-х частях. Часть 2. Линейная алгебра. 2-е издание, стереотипное. Москва: «МЦНМО», 2012.
12. Кострикин А.И. Введение в алгебру. В 3-х частях. Часть 3. Основные структуры алгебры. 2-е издание, стереотипное. Москва: «МЦНМО», 2012.
13. Курош А.Г. Курс высшей алгебры. 17-е издание, стереотипное. Санкт-Петербург: Лань, 2008.
14. Курош А.Г. Теория групп. Москва: Физматлит, 2011.

15. Ляпин Е.С. Курс высшей алгебры. 3-е издание, стереотипное. Санкт-Петербург: Лань, 2009.
16. Окунев Л.Я. Высшая алгебра. 3-е издание, стереотипное. Санкт-Петербург: Лань, 2009.
17. Чеботарев Н.Г. Основы теории Галуа. Часть 2. 3-е издание. Москва: Ленанд, 2014.
18. Шмидт Р.А. Алгебра. Часть 2. Санкт-Петербург: СПбГУ, 2011.
19. Шмидт Р.А. Алгебра. Часть 3. Санкт-Петербург: СПбГУ, 2013.

# Dil və ədəbiyyat müəllimliyi (rus dili)

## РУССКИЙ ЯЗЫК

**Фонетика современного русского языка.**

Аспекты изучения звуковой стороны языка. Акустический аспект. Артикуляционный аспект. Артикуляция гласных и согласных. Функциональный (фонологический) аспект изучения звуковой стороны языка. Понятие позиции как одно из основных понятий фонологии. Чередование звуков и определение типов чередований.

Система фонем современного русского языка. Система гласных фонем современного русского языка. Ударный вокализм. Безударный вокализм. Система согласных фонем современного русского языка. Состав согласных фонем русского языка.

Членение речевого потока. Слог как минимальная произносительная единица речи.

Русское словесное ударение. Интонация русского языка.

Понятие об орфоэпии. Основные нормы произношения гласных русского языка. Основные нормы произношения согласных. Частные нормы произношения. Причины отклонений.

Русская графика.

Русская орфография.

**Лексикология современного русского языка.**

Лексикология как раздел науки о языке. Лексика современного русского языка с точки зрения экспрессивно-стилистической.

Многозначность слова. Омонимия. Синонимия. Антонимия.

Лексика современного русского языка с точки зрения происхождения.

Исконная лексика. Заимствованная лексика.

Лексика современного русского языка с точки зрения сферы употребления.

Лексика современного русского языка с точки зрения активного и пассивного состава. Общеупотребительная лексика. Архаизмы и неологизмы. Классификация словарей.

Лексикография.

Фразеология. Предмет и задачи фразеологии. Современные фразеологические концепции. Фразеологические единицы с точки зрения происхождения. Источники русской фразеологии. Структурные типы фразеологических единиц в современном русском языке.

**Морфология современного русского языка.**

Морфемика. Морфема как минимально значимая часть слова. Типы морфем в русском языке: корневые и аффиксальные. Морфемный анализ.

Словообразование. Основные способы русского словообразования. Словообразовательный анализ.

Слово как объект морфологии. Части речи как лексико-грамматические классы слов в русском языке.

Понятие грамматической категории. Принципы классификации частей речи.

Имя существительное. Категории рода, числа, падежа.

Имя прилагательное. Качественные и относительные прилагательные. Притяжательные прилагательные. Полные и краткие прилагательные. Степени сравнения качественных прилагательных. Склонение прилагательных.

Имя числительное. Количественные и порядковые числительные.

Местоимение. Разряды местоимений, их значение и грамматические особенности.

Глагол. Категория вида глагола. Категория времени глагола. Категория наклонения глагола. Категория залога глагола. Категория лица глагола. Спряжение и типы спряжения глаголов. Разноспрягаемые глаголы.

Причастие. Деепричастие.

Наречие. Разряды наречий по значению: определительные и обстоятельственные.

Слова категории состояния.

Служебные части речи в русском языке. Предлоги. Союзы. Частицы.

Модальные слова. Междометия и звукоподражательные слова.

**Синтаксис современного русского языка.**

Словосочетание как синтаксическая единица. Классификация словосочетаний по типам смысловых отношений, по способам выражения компонентов, по объему. Виды подчинительной связи слов в словосочетании: согласование, управление, примыкание.

Предложение как основная единица синтаксиса. Грамматические категории предложения и его грамматические значения. Принципы классификации предложений. Интонационная оформленность предложения. Типы предложений по цели высказывания. Типы предложений по модальности. Классификация простых предложений по количеству составов. Двусоставное предложение. Главные члены предложения. Второстепенные члены предложения. Односоставное предложение. Структурно-семантические типы односоставных предложений. Типы предложений по объему. Классификация предложений по наличию или отсутствию струк-

турно необходимых членов предложения. Типы простых предложений по наличию или отсутствию осложняющих элементов.

Понятие о сложном предложении. Средства связи частей сложного предложения. Союзные сложные предложения, их типы. Сложносочиненное предложение. Сложноподчиненное предложение. Бессоюзные сложные предложения. Интонация в бессоюзных сложных предложениях. Многокомпонентные (усложненные) сложные предложения.

Синтаксис текста. Прямая и косвенная речь.

Понятие о пунктуации. Принципы русской пунктуации.

**Основы культуры речи.**

Языковые нормы как основное понятие теории культуры речи. Коммуникативные качества речи. Точность речи как одно из основных коммуникативных качеств речи. Литературные нормы в лексике и фразеологии. Вариантность нормы в традиционной системе языка. Этика речевого общения и этические формулы речи.

**Стилистика русского языка и формирование культуры речи.**

Стилистическая норма как разновидность литературной языковой нормы. Традиционные понятия стилистики: стилистическая окрашенность, стилистические средства языка, стилистическое значение. Функциональные стили русского языка, их системный характер. Условия и формы реализации функциональных стилей языка. Стилистические ресурсы русского языка.

## ЛИТЕРАТУРА


1. Бабайцева В.В. Односоставные предложения в современном русском языке. Москва: Просвещение, 1968.
2. Буланин Л.Л. Фонетика современного русского языка. Москва: Высшая школа, 1970.
3. Валгина Н.С. Синтаксис современного русского языка. Москва, 1978.
4. Валгина Н.С., Розенталь Д.Э., Фомина М.И. Современный русский язык. Изд. 5. Москва: Высшая школа, 1987.
5. Виноградов В.В. Русский язык. Грамматическое учение о слове. Москва, 1972.
6. Гольдин В.Е., Сиротинина О.Б., Якубова М.А. Русский язык и культура речи. Москва, 2001.
7. Грамматика русского языка. Под ред. В.В.Виноградова. Т. 1, 2. Москва: Издательство Академии наук СССР, 1960.
8. Денисов П.Н. Лексика русского языка и принципы ее описания. Москва: Русский язык, 1980.
9. Жуков В.П. Русская фразеология. Москва: Высшая школа, 1986.
10. Земская Е.А. Современный русский язык. Словообразование. 3-е изд., испр. и доп. Москва, 2011.
11. Зиндер Л.Р. Общая фонетика. Москва: Высшая школа, 1979.
12. Иванова В.Ф. Современный русский язык. Графика и орфография. Учеб. Пособие для вузов. 2-е изд., перераб. и доп. Москва: Просвещение, 1976.
13. Калинин А.В. Лексика русского языка. Москва: Московский университет, 1978.
14. Князев С.В., Пожарицкая С.К. Современный русский литературный язык. Фонетика. Графика. Орфография. Орфоэпия. Москва: Академический Проект, 2005.
15. Кожина М.Н. Стилистика русского языка. Москва, 1983.
16. Матусевич М.И. Современный русский язык. Фонетика. Москва, 1976.
17. Милославский И.Г. Морфологические категории современного русского языка. Москва, 1981.
18. Ожегов С.И. Лексикология. Лексикография. Культура речи. Москва, 1974.
19. Орфоэпический словарь русского языка. Москва: АН СССР, 1985.
20. Попов Р.Н., Валькова Д.П., Маловицкий Л.Я., Федоров А.К. Современный русский язык. Словообразование. Морфология. Москва, 1981.
21. Русская грамматика. Под ред. Н.Ю.Шведовой. В 2-х т. Москва: Наука, 1980.
22. Современный русский язык. Под ред. В.А.Белошапковой. Москва, 1981, 1989, 1999.
23. Современный русский язык. Под ред. П.А.Леканта. Москва, 1982.
24. Современный русский язык. Теоретический курс. Фонетика. Москва, 1979.
25. Трубецкой Н.С. Основы фонологии. Москва, 1960.

# Tarix və coğrafiya müəllimliyi

## ÜMUMİ TARİX
## QƏDİM DÜNYA TARİXİ

**Qədim Şərq**

**Qədim Misir:** Yazılı mənbələr. Vahid Misir dövlətinin yaranması. Misir Erkən Şahlıq dövründə. Misir Qədim Şahlıq dövründə. Misir Orta Şahlıq dövründə. Misir hiksosların işğalı altında. Misir Yeni Şahlıq dövründə. XVIII sülalə fironlarının işğalları. IV Amenxotep (Exnaton) və onun dini-siyasi islahatı. II Ramzes. Şərqi Aralıq dənizi ərazisi uğrunda Misir-Het rəqabəti. Misir Son Şahlıq dövründə. MisirƏhəmənilər dövlətinin tərkibində.

**Qədim Mesopotamiya:** Yazılı mənbələr. Əhalisi. Şumer şəhər dövlətləri. Erkən sülalələr dövrünün siyasi tarixi. Akkadın yüksəlişi. Mesopotamiya kutilərinhakimiyyəti altında. III Ur sülaləsi. İctimai-iqtisadi münasibətlər. Mesopotamiya e.ə. II minillikdə: Babilin yüksəlişi. Babil şahlığı Hammurapinin hakimiyyəti dövründə. Hammurapinin qanunları. Mesopotamiya e.ə. I minillikdə: Yeni Aşşur şahlığı. Aşşur dövlətinin süqutu. Yeni Babil dövləti.

**İran:** Elam dövləti: Kutik – İnşuşinakın daxili və xarici siyasəti. Hakimiyyət sisteminin xüsusiyyətləri.Midiya çarlığı. Kiaksarın dövründə çarlığın yüksəlişi.Əhəmənilər imperiyası. II Kirin işğalları. Qaumatanın üsyanı. I Daranın daxili və xarici siyasəti. Əhəməni imperiyasının süqutu.

**Qədim Hindistan:** "Harappa ("Hind") sivilizasiyası". "Veda dövrü". Qanq çayı vadisində ilk dövlətlər. Hindistan e.ə. I minilliyin 2-ci yarısında. Mauirilər dövləti. Aşokanın daxili və xarici siyasəti. Hindistan "klassik dövrdə". Qupta imperiyası.

**Qədim Çin:** Çində erkən dövlətlər. Şan-İn və Qərbi Çjou dövlətləri. Çin e.ə VIII-III əsrlərdə. Sin imperiyası. Xan imperiyası. Qədim Çin mədəniyyəti.

**Qədim Yunanıstan:** Kritdə və axey Yunanıstanında erkən sinifli cəmiyyətlər və ilk dövlətlər. Troya müharibələri. Axey Yunanıstanının tənəzzülü. Yunanıstan e.ə. XI-IX əsrlərdə ("Homer Yunanıstanı"). Arxaik Yunanıstanı. Böyük yunan koloniyalaşması. Yunan polislərinin formalaşması. Yunan polisinin səciyyəvi cəhətləri. Peloponnes e.ə. VIII-VI əsrlərdə. Sparta. Messeniya müharibələri. Likurq qanunları. Peloponnes ittifaqı. Qədim Attika. Sinoykizm. Dövlətin yaranması. Sosial mübarizə. Solonun islahatları. Afinada tiranlıq. Afina demokratiyasının formalaşması. Ostrakizm. Yunanıstan–İran müharibələri: onun səbəbləri, mərhələləri. Delos simmaxiyası (I Afina dəniz ittifaqı). Sparta - Afina ziddiyyətləri. Kiçik Peloponnes müharibəsi. Afina Arxesinin formalaşması. Kalli sülhü. Afina demokratiyasının çiçəklənməsi. Periklin islahatları. Böyük Peloponnes müharibəsi və onun nəticələri. II Afina dəniz ittifaqı. Makedoniyanın yüksəlişi. II Filip. Ellin ittifaqı. Makedoniyalı İsgəndərin Şərq yürüşü. Ellin dövlətləri sistemi.

**Qədim Roma:** Apenninyarımadasının qədim əhalisi. Etrusk cəmiyyəti.Roma şəhəri. Romada dövlətin yaranması. Şahlıq dövrü. Romada erkən Respublika (e.ə. VI əsr - e.ə. III əsrin 1-ci yarısı). Dövlət idarəçiliyi. Patrisilər və plebeylərin mübarizəsi. Romanın xarici siyasəti. Romada son Respublika (e.ə. III əsrin 2-ci yarısı – e.ə. I əsr): Xarici siyasət. Aralıq dənizi hövzəsində ağalıq uğrunda Romanın müharibələri. Asılı dövlətlər sisteminin yaranması. Roma Respublikasının böhranı. E.ə. II əsrin sonunda Romada sosial mübarizə. Siciliya adasında qulların üsyanları. Qrakx qardaşlarının islahatları. Müttəfiq müharibələri. E.ə. I ə. 80-ci illərinin vətəndaş müharibələri. Optimatlar və populyarlar. Sullanın diktaturası. Spartak üsyanı. I Triumvirat. Sezarın Qalliyada müharibələri. Sezar və Pompey arasında vətəndaş müharibəsi. Sezarın islahatları. II Triumvirat. Oktavian Avqustun prinsipatı. Erkən imperiya dövrü. Yulilər – Klavdilər və Flavilər dövründə prinsipat sisteminin möhkəmlənməsi. Antoninlərin "qızıl əsri". III əsrdə Roma imperiyasının böhranı. "Əsgər" imperatorlarının hökmranlığı. Roma son imperiya dövründə. Dominat sisteminin qurulması. Diokletian və Konstantinin islahatları. Roma imperiyasının bölünməsi. Qərbi Roma imperiyası V əsrdə. Qərbi Roma imperiyasının süqutu.

## ORTA ƏSRLƏR TARİXİ

**Erkən orta əsrlər (III-IX əsrin əvvəlləri).** "Xalqların böyük köçü". Qərbi Roma imperiyası ərazisində barbar dövlətlərin yaranması.Qərbi Hun imperiyası. Atilla. İmperiyanın daxili və xarici siyasəti. Katalaun döyüşü. Frank krallığının yaranması. Frank krallığı Meroveylərin dövründə. Karolinqlər. Böyük Karl. Frank imperiyasının yaranması. İmperiyanın xarici siyasəti. Verden müqaviləsi: Karolinq imperiyasının bölünməsi.

Böyük Ağ Hun imperatorluğu. Göytürk imperatorluqları. Çində feodalizmin xüsusiyyətləri. Suy və Tan imperiyaları. Xuan Çao üsyanı. Hindistanda feodalizmin xüsusiyyətləri. Şimali və Cənubi Hindistan dövlətləri. Hindistanda müsəlman istilalarının başlanması. Ərəblərdə dövlətin yaranması. Ərəb işğalları. Xilafət. Kordova xilafəti. Qafqazda feodal münasibətlərinin yaranması. Qafqaz uğrunda Roma (Bizans), Sasani, Ərəb və Xəzər dövlətlərinin mübarizəsi. Şərqi Avropada erkən feodal dövlətlərin yaranması: Bolqar çarlığı, Kiyev, Çexiya, Polşa dövlətləri. Bizans imperiyasının yaranması. İmperator Yustinian. "Nika" üsyanı. Feodallaşma prosesinin xüsusiyyətləri.

**Qərbi Avropa siyasi pərakəndəlik dövründə.** Fransa IX-XI əsrlərdə. Fransa krallığının yaranması. Feodal pərakəndəliyi. Kapetinqlərin hakimiyyətə gəlməsi. İtaliya VIII-X əsrlərdə. İtaliyada siyasi pərakəndəlik. Yadelli istilalar. Papa dövlətinin yaranması. İtaliyada feodal münasibətləri. Şəhərlərin meydana gəlməsi və tərəqqisi. Almaniya IX-XI əsrin əvvəllərində. Almaniyada feodallaşma prosesinin xüsusiyyətləri. I Otton. “Müqəddəs Roma imperiyası”nın yaranması. Britaniya ərazisində “barbar” krallıqları. Feodallaşma prosesi və onun xüsusiyyətləri. Vahid erkən feodal dövlətinin yaranması. Feodal münasibətlərinin möhkəmlənməsi.

**Orta əsrlərin ikinci dövrü (XI-XV əsrlər)**

**Şərq ölkələri.** Böyük Səlcuq imperiyası: ictimai – iqtisadi münasibətlər. Dehli sultanlığı. Əlaəddin Hilçi. Sun imperiyası. Çində Monqol ağalığı. Qırmızı sarıqlılar üsyanı. Min sülaləsi. Böyük Monqol imperiyası. Monqol imperiyasında sosial-iqtisadi münasibətlər. Çingiz xanın Yasası. Monqol istilaları. Osmanlı dövlətinin yaranması. XIV – XV əsrlərdə Osmanlı sultanlarının işğalları. Osmanlı imperiyasında sosial-iqtisadi münasibətlər. Teymurilər dövləti: sosial-iqtisadi münasibətlər, siyasi quruluşu. Qızıl Ordunun parçalanması. Kazan, Həştərxan, Krım və Sibir xanlıqlarının yaranması. Qafqaz XIII-XV əsrlərdə. Regionda hökmranlıq uğrunda Elxanilər - Qızıl Ordu rəqabəti.

**Avropa ölkələri.** Orta əsr şəhərlərinin yaranması haqqında nəzəriyyələr. Feodal şəhərlərinin meydana gəlməsi. Şəhərlərin senyorlara qarşı mübarizəsi və onun nəticələri. Sənətkarlar və sexlər. Qərbi Avropada ticarət və kredit işinin inkişafı. Avropalıların Şərqə xaç yürüşlərinin ilkin şərtləri. Xaç yürüşlərinin xarakteri. Şərqdə xaçlı dövlətləri. Qüds krallığı, “Qüds assizləri”. Xaç yürüşlərinin nəticələri. Fransa XI-XIII əsrlərdə. Feodallaşma prosesi və feodalizm cəmiyyətinin formalaşma xüsusiyyətləri. Mərkəzləşmiş dövlət yaradılmasını doğuran amillər. IX Lüdoviqin islahatları. Fransa XIV-XV əsrlərdə. Feodal münasibətlərinin inkişafı. IV Filipin daxili və xarici siyasəti. Baş ştatların çağırılması. Silki monarxiya. Yüzillik müharibə. Jakeriya. XI Lüdoviqin daxili və xarici siyasəti. Fransanın vahid mərkəzləşdirilmiş dövlətə çevrilməsi. İngiltərə XI-XIII əsrlərdə. Normand işğalı və onun nəticələri. II Henrixin islahatları. Azadlıqların böyük xartiyası. Baron oliqarxiyası. Parlamentin çağırılması. Silki monarxiyanın meydana gəlməsi. İngiltərə XIV-XV əsrlərdə. Uot Tayler üsyanı. Cek Ked üsyanı.Kilsə islahatı uğrunda hərəkat. Al qızılgül və Ağ qızılgül müharibələri. Almaniya XI-XV əsrlərdə. İnvestitura uğrunda mübarizə. Vorms konkordatı. I Fridrix Barbarossa. Alman şəhərlərinin inkişafı. Hanza. 1356-cı il “Qızıl bullası”. İtaliya XI-XV əsrlərdə. Şəhər kommunalarının formalaşması. Normanların Cənubi İtaliya və Siciliyanı istila etmələri. İspaniya: Rekonkista. Korteslər. Vahid İspaniya krallığının yaranması. Çexiya: Yan Qus. Qusçular hərəkatı və onun nəticələri. Rusiya: Moskva knyazlığı. Rusiyada mərkəzləşmiş dövlətin yaradılması uğrunda mübarizə. Monqol ağalığına son qoyulması.

**Böyük coğrafi kəşflər.** Böyük coğrafi kəşflərin tarixi zəmini. Kapitalın ilkin yığımı və böyük coğrafi kəşflər. Rekonkista. XV əsrin II yarısında elm və texnikanın inkişafı. Osmanlı imperiyasının hərbi uğurları və böyük coğrafi kəşflər. Xristofor Kolumbun səyahətləri: Amerikanın kəşfi. Vasko da Qama və Hindistana dəniz yolunun kəşf olunması. Portuqaliyalıların müstəmləkə işğalları. Magellan və Yerin ətrafına ilk dünya səyahəti. İspaniyanın Amerikadamüstəmləkə işğalları və onun nəticələri. Sakit okean hövzəsində coğrafi kəşflər. Müstəmləkə sisteminin yaranması. Amerika qitəsində İspaniya və Portuqaliyanın müstəmləkə idarəçiliyi. Böyük coğrafi kəşflərin nəticələri.

**Son orta əsrlər (XVI-XVIIəsrlər)**

**Avropa ölkələri.** Almaniya XVI-XVII əsrin I yarısında. XVI əsrin əvvəlində Almaniyanın siyasi quruluşu və sosial-iqtisadi vəziyyəti. Humanizm. Reformasiya. Martin Lüter. Tomas Münser və onun təlimi. Kəndli müharibəsi. “Möminlərin Münster şahlığı”. Protestantizm. Şmalkalden ittifaqı. 1555-ci il Auqsburq dini sülhü. İspaniya XVI-XVII əsrin I yarısında. İspaniya Habsburqlar monarxiyasının tərkibində. V Karl. Komuneros hərəkatı. İspaniya II Filippin hakimiyyəti dövründə. Niderland XVI-XVII əsrin I yarısında. II Filippin Niderland siyasəti. Milli-azadlıq hərəkatının başlanması. Hersoq Albanın terror rejimi. 1579-cu il Arras və Utrext uniyaları. Birləşmiş Əyalətlər Respublikası XVI əsrin sonunda. 1609-cu il barışığı. İngiltərə XVI-XVII əsrin I yarısında. XVI-XVII əsrin I yarısında İngiltərənin iqtisadi inkişafı. Sənayenin inkişafı. Aqrar çevrilişin başlanması. İngiltərə mütləqiyyətinin xüsusiyyətləri. Kral reformasiyası. Tüdorların daxili və xarici siyasəti. Fransa dövləti XVI əsrin əvvəllərində. Fransa İtaliya müharibələrində. Fransa-Türkiyə münasibətləri. Vətəndaş müharibələri. Nant edikti. IV Henrix. Mütləqiyyətin qüvvətlənməsi. Kardinal Rişelyö.

XVI-XVII əsrin birinci yarısında beynəlxalq münasibətlər. İtaliya müharibələri (1494-1559). Mərkəzləşmiş dövlətlərin mütləq monarxiyalar dövrünə qədəm qoyması. Xarici siyasətdə “dövlət marağı” prinsipi. Otuzillik müharibə (1618-1648) və onun nəticələri.

Rusiya: Rusiyada mərkəzləşmiş dövlətin yaranması. IV İvan. Livoniya müharibəsi və onun nəticələri. Opriçnina və onun nəticələri. XVI əsrin II yarısında Rusiyanın işğalları. Reç-Pospolita: Reç-Pospolitanın yaranması. XVI əsrin II yarısı-XVII əsrin I yarısında xarici siyasət.

**Şərq ölkələri.** Osmanlı dövləti: I Sultan Səlim. Avropa, Asiya və Afrikada fəthlər. Sultan Süleyman Qanuninin daxili və xarici siyasəti. Şeybanilər dövləti.Böyük Moğol imperatorluğu: Əkbər şahın islahatları. Çin: Min sülaləsinin devrilməsi. Mancur ağalığının başlanması.

## YENİ TARİX

**İngiltərə:** XVII əsrdə İngiltərə burjua inqilabı. I və II vətəndaş müharibələri. İndependent respublikası. O.Kromvelin protektoratlığı. Stüartların bərpası.“Şanlı inqilab”. “Hüquqlar haqqında Bill”. İngiltərə XVII əsrin sonu-XVIII əsrdə. XVIII əsrdə parlament siyasi sisteminin inkişafı. Viqlər və torilər.İngiltərənin sürətləndirilmiş iqtisadi inkişafı: səbəbləri, xarakteri və nəticələri. XIX əsrdə parlament islahatları. Müstəmləkə siyasəti. İngiltərə XIX əsrin sonu – XX əsrin əvvəllərində. İngiltərə-Almaniya ziddiyyətlərinin kəskinləşməsi. Antantanın yaranması. 1911-ci il parlament islahatı.

**Amerika Birləşmiş Ştatları:** Şimali Amerikada ingilis koloniyalarının istiqlaliyyət uğrunda mübarizəsinin səbəbləri. Birinci Kontinental konqres. Hərbi əməliyyatların başlanması. İkinci Kontinental konqres. „İstiqlaliyyət bəyannaməsi“.ABŞ-ın dövlət quruluşunun təşəkkülü. İlk Konstitusiyanın qəbul olunması. Versal sülh müqaviləsi. 1787-ci il Konstitusiyası. Hüquqlar haqqında Bill uğrunda mübarizə. Konstitusiyaya ilk əlavələr. XVIII əsrin sonu - XIX əsrdə ABŞ-ın daxili və xarici siyasəti. “Monro doktrinası”. Ərazi ekspansiyası. ABŞ-da vətəndaş müharibəsi və onun nəticələri.ABŞXX əsrin əvvəllərində. T.Ruzvelt və V. Vilson administrasiyalarının daxili və xarici siyasətləri.

**Fransa:** Fransa XIV Lüdovikin dövründə.Fransa maarifçiliyi. XVIII əsrdə Fransa burjua inqilabı: səbəbləri, mərhələləri və nəticələri. Termidor reaksiyası. Direktoriya rejimi. Konsulluq. I imperiya. Burbonların bərpası. II Respublika. II imperiya: daxili və xarici siyasət. XIX əsrin sonlarında siyasi böhranlar. Fransa XX əsrin əvvəllərində.

**Almaniya:** Almaniya XVII əsrin II yarısında. Brandenburq-Prussiya dövlətinin yüksəlişi. Prussiya krallığı XVIII əsrdə. Almaniya ittifaqı. Frankfurt–Maynda ümumalman parlamenti. Almaniyanın birləşdirilməsi uğrunda mübarizə. İmperiyanın yaranması. O. fon Bismarkın reyxskanslerliyi: daxili və xarici siyasət. Kaprivinin “yeni kursu”. Almaniya imperiyası XX əsrin əvvəllərində. Dünya siyasətində Almaniyanın hegemonluq iddiası.“Şliffen planı”.

**İtaliya:**İtaliya XVII – XVIII əsrlərdə. Pyemont krallığı. K.Kavur. İtaliyanın birləşdirilməsi. Xarici siyasət. İtaliya XIX əsrin sonu - XX əsrin əvvəllərində.

**Rusiya:** I Pyotrun islahatları. Şimal müharibəsi. XVIII əsrdə Rusiya-Osmanlı müharibələri.Reç Pospolitanın bölüşdürülməsi. Cənubi Qafqazın işğalı. Hərbi-müstəmləkə rejiminə qarşı xalq çıxışları. Şimali Qafqazda rus təcavüzünə qarşı milli azadlıq mübarizəsi. Şeyx Şamil. Krım müharibəsi. II Aleksandr. Təhkimçilik hüququnun ləğvi. Digər burjua islahatları. 1905-1907-ci illər inqilabı. Dövlət Dumaları. Stolıpinin islahatı. Fevral inqilabı. Oktyabr çevrilişi və Sovet hakimiyyətinin qurulması.

**Osmanlı imperiyası:** XVII əsrin II yarısı – XVIII əsrdə Osmanlı imperiyasının sosial – iqtisadi və siyasi inkişafında geriləməsinin səbəbləri. İslahatlar keçirmək cəhdləri. Avropa dövlətləri ilə müharibələr. “Şərq məsələsi”. Sultan III Səlimin islahatları. Tənzimat.“Midhət paşa konstitusiyası”.Gənc türklər hərəkatı. İtaliya – Osmanlı müharibəsi. 1912-1913-cü illər Balkan müharibələri.

**Yaponiya:** Şoqun rejimi. Avropa dövlətlərindən asılılığın artması. Yaponiyanın qapalılığına son qoyulması (qeyri–bərabər hüquqlu müqavilələrin bağlanması). 1868-ci il inqilabı. Burjua islahatları. 1889-cu il konstitusiyası. XIX əsrin sonlarında Yaponiyanın xarici siyasəti. Rusiya - Yaponiya müharibəsi. Koreyanın ilhaqı.

**Hindistan:** Hindistanın İngiltərə tərəfindən işğalı. Sipahilər üsyanı. Hindistan Milli Konqresi. Hindistan XX əsrin əvvəllərində.

**Çin:** Özünü təcrid siyasəti. Tiryək müharibələri. Taypinlər hərəkatı. “Açıq qapı” doktrinası. İslahatçılıq hərəkatı. Kan Yu Vey. XIX əsrin sonu – XX əsrin əvvəllərində daxili siyasi vəziyyət. Sun Yatsen. Çində Sinxay inqilabı.

**Türk xalqları:** Buxara, Xivə və Kokand xanlıqları. XIX əsrin I yarısında Volqaboyu, Sibir və Krımda idarəetmə sistemi. Sosial-iqtisadi həyat və ictimai vəziyyət. Rusiya tərəfindən Mərkəzi Asiya (Türküstan) və Qazaxıstanın işğal edilməsi. İdarəetmə sistemində dəyişikliklər. Sosial-iqtisadi münasibətlər. 1886 və 1891-ci il Əsasnamələri. Mərkəzi Asiya və Qazaxıstana Rusiyadan kəndlilərin köçürülməsi. “Köçkünlər fondu”. XIX əsrin 60-70-ci illərinin burjua islahatlarının Volqaboyu, Sibir və Krımda həyata keçrilməsi. Türk xalqlarının regionlarında 1905-1907-ci illər inqilabının spesifik xüsusiyyətləri. Dövlət Dumalarında Müsəlman fraksiyaları və onların fəaliyyəti. Stolıpinin aqrar islahatının Türküstan, Volqaboyu, Sibir və Krımda həyata keçirilməsinin xüsusiyyətləri. Türküstan, Volqaboyu, Sibir və Krım iqtisadi yüksəliş illərində. Fevral inqilabından sonra Türküstan, Volqaboyu, Sibir və Krımda ictimai-siyasi vəziyyət. Milli-azadlıq mübarizəsi.

**Birinci Dünya müharibəsi**: səbəbləri və xarakteri. Müharibə edən tərəflərin hərbi və iqtisadi potensialları. Hərbi-siyasi koalisiyaların strateji planları. 1914-cü ildə hərbi əməliyyatlar. Marna döyüşü. 1915-ci ildə müharibənin gedişi. Dördlər ittifaqının formalaşması. Antantanın sıralarında yeni dövlətlər. Qafqaz cəbhəsi. 1916-cı ildə hərbi əməliyyatlar. Verden “qəssabxana”sı. Somma döyüşü. Yutlandiya döyüşü. 1917-ci ildə hərbi əməliyyatlar. ABŞ-ın müharibəyə qoşulması. Brest-Litovsk sülhü.1918-ci ildə hərbi əməliyyatlar. Almaniyanın müttəfiqlərinin təslim olması. Almaniyanın məğlub olması. Kompyen barışığı. Birinci Dünya müharibəsinin nəticələri.

## MÜASİR TARİX

### Dünya ölkələri Birinci və İkinci Dünya müharibələri arasındakı dövrdə

**Versal-Vaşinqton sistemi:** Paris sülh konfransı. Almaniya və onun müttəfiqləri ilə sülh müqavilələrinin imzalanması. Millətlər cəmiyyətinin yaradılması. Mandat sistemi. Vaşinqton konfransı. Versal-Vaşinqton sisteminin formalaşması. XX əsrin 20-ci illərində beynəlxalq münasibətlərdə təzminat məsələsi. Pan-Avropa planı.

**Qərbi Avropa:** İngiltərə: Birinci Dünya müharibəsindən sonra İngiltərənin sosial iqtisadi və siyasi vəziyyəti. I və II Leyborist hökumətləri. İngiltərə dünya iqtisadi böhranı illərində. XX əsrin 30-cu illərində İngiltərənin daxili və xarici siyasəti. Fransa: Fransa XX əsrin 20-30-cu illərində. Xalq Cəbhəsi. Almaniya: Veymar Respublikası. Almaniya XX əsrin 30-cu illərində. Nasistlərin hakimiyyətə gəlməsi. Hitler hökumətinin daxili və xarici siyasəti. İtaliya: Faşistlərin hakimiyyətə gəlməsi. Mussolini. "Korporativ dövlət"."Avtarkiya" siyasəti. Xarici siyasət.

**Amerika Birləşmiş Ştatları:** ABŞ XX əsrin 20-ci illərində. ABŞ dünya iqtisadi böhranı illərində. F. Ruzveltin "Yeni xətt" siyasəti. F. Ruzvelt administrasiyasının xarici siyasəti.

**SSRİ:** Rusiyada vətəndaş müharibəsi. "Hərbi kommunizm" siyasəti və "yeni iqtisadi siyasət" (YİS). SSRİ-nin təşkili. Sosialistcəsinə yenidənqurma tədbirləri. Totalitarizmin qurulması. Kütləvi repressiyalar.

**Yaponiya:** Birinci Dünya müharibəsindən sonra Yaponiyada sosial-iqtisadi və siyasi dəyişikliklər. Daxili siyasət. Dövlətin hərbiləşdirilməsi. XX əsrin 30-cu illərində Yaponiyanın daxili siyasi vəziyyəti. Xarici siyasət.

**Çin:** Birinci Dünya müharibəsinin Çin üçün nəticələri. Çində siyasi böhran. Vətəndaş müharibələri. Homindanın daxili və xarici siyasəti.

**Hindistan:** Birinci Dünya müharibəsinin Hindistan üçün nəticələri. Milli-azadlıq hərəkatının yüksəlişi. M. Qandi. Hindistanının idarə olunması sisteminin təkamülü. Hind-müsəlman ziddiyyətləri. Hindistan Milli Konqresi və Müsəlman Liqası.

**Türkiyə:** Birinci Dünyamüharibəsinin Türkiyə üçün nəticələri. Milli azadlıq hərəkatı. Lozanna konfransı. Türkiyə Respublikasının yaranması. Mustafa Kamal Atatürk. XX əsrin 20-ci illərində keçirilmiş islahatlar. XX əsrin 30-cu illərdə Türkiyənin xarici siyasəti. Montre konfransı.

**İkinci Dünya müharibəsi:** XX əsrin 20-30-cu illərində beynəlxalq münasibətlər. Asiya və Avropada müharibə ocaqlarının meydana gəlməsi. Münhen konfransı. Kollektiv təhlükəsizlik sisteminin yaradılması haqqında danışıqlar. Molotov-Ribbentrop paktı. İkinci Dünya müharibəsinin başlanması. Almaniya və SSRİ-nin Avropadakı işğalları. "Qəribə müharibə". Almaniyanın SSRİ-yə hücumu. Böyükdövlətlərin Qafqazla bağlı planları. Antihitler koalisiyasının yaranması. Müharibənin gedişində əsaslı dönüş. Tehran konfransı. Avropada ikinci cəbhənin açılması. Dumbarton-Oks konfransı. Krım konfransı. BMT-nin təsis olunması. Almaniyanın təslim olması ilə Avropada müharibənin başa çatması. Potsdam konfransı. Yaponiyanın təslim olması. İkinci Dünya müharibəsinin nəticələri.

**Dünya ölkələri İkinci Dünya müharibəsindən sonrakı dövrdə**

**Amerika Birləşmiş Ştatları:** H.Trumen administrasiyasının daxili və xarici siyasəti. ABŞ XX əsrin 50-60-cı illərdə. R. Nikson administrasiyasının daxili və xarici siyasəti. ABŞ R.Reyqanın prezidentliyi dövründə. ABŞ XX əsrin sonu - XXI əsrin əvvəllərində.

**İngiltərə:** K. Ettli hökumətinin daxili və xarici siyasəti. İngiltərə 50-60-cı illərdə.Avropada inteqrasiya prosesləri və İngiltərə. M.Tetçerin mühafizəkar hökumətinin daxili və xarici siyasəti. İngiltərə XX əsrin sonu-XXI əsrin əvvəllərində.

**Fransa:** Müvəqqəti rejim. IV Respublikanın daxili və xarici siyasəti. V Respublikanın yaranması. Ş.De Qollun prezidentliyi dövründə daxili və xarici siyasət. Fransa 70-90-cı illərdə. Fransa müasir dövrdə.

**Almaniya Federativ Respublikası:** İki alman dövlətinin (AFR və ADR) yaranması."Sosial bazar təsərrüfatı" doktrinasının mahiyyəti. AFR-in NATO-ya daxil olması. Alman iqtisadi möcüzəsi. "Kiçik koalisiya hökuməti". V. Brandt hökumətinin "Şərq siyasəti". 1983-cü il parlament seçkiləri və xristian-liberal koalisiyasının hakimiyyətə gəlməsi. H. Kol hökumətinin daxili və xarici siyasəti. Almaniyanın birləşdirilməsi. Almaniya müasir dövrdə.

**İtaliya:** İkinci Dünya müharibəsinin İtaliya üçün nəticələri. Yeni siyasi sistemin formalaşması. İtaliya XX əsrin 50-60-cı illərində. "İqtisadi möcüzə". Sosial- iqtisadi və siyasi həyatda Cənub problemi. İtaliya XX əsrin 70-90-cı illərində. Siyasi radikalizm problemi. 1993-cü il seçki islahatı. İtaliya müasir dövrdə.

**SSRİ:** Müharibədən sonra siyasi və sosial-iqtisadi tədbirlər. XX əsrin 50-ci illərinin II yarısında siyasi xəttin mülayimləşməsi. L.İ.Brejnevin siyasi rəhbərliyi dövrünün əsas cəhətləri. M.S.Qorbaçovunhakimiyyətə gəlməsi. Durğunluq: səbəbləri və təzahür formaları. M.S.Qorbaçov: "sürətləndirmə" kursu və "yenidənqurma". Qafqazda etnik konfliktlər. Qafqaz xalqlarının mərkəzdənqaçma meyillərinin güclənməsi.Qafqazda milli-azadlıq hərəkatı.SSRİ-nin dağılması və yeni müstəqil dövlətlərin yaranması. MDB-nin təşkili. Rusiya müasir dövrdə. Çeçenistan münaqişəsi. Müstəqil türk dövlətlərinin meydana çıxması: xarici siyasətləri.

**Mərkəzi və Cənub-Şərqi Avropa ölkələri:** Sovet modelli rejimlərin yaranması. 1948-ci il Çexoslovakiya hadisələri. 1956-cı il Macarıstan inqilabı. 1968-ci il "Praqa baharı". Polşada "Həmrəylik". Çexoslovakiyada "Məxməri inqilab". Dünya sosializm sisteminin dağılması. Yuqoslaviyanın parçalanması və Balkanlarda yeni dövlətlərin yaranması.

**Türkiyə:** Müharibədən sonrakı ilk illərdə islahatların keçirilməsi. Ölkənin "Marşall planı"navə NATO-ya qoşulması. Kipr böhranı. XX əsrin 60-70-ci illərində siyasi proseslər. 1980-cı il hərbi çevrilişi. "Türkiyə möcüzəsi". T. Ozalın islahatları. Müasir dövrdə Türkiyənin daxili və xarici siyasəti. Türkiyə-Avropa münasibətləri. Türkiyənin müstəqil türk və Qafqaz dövlətləri ilə qarşılıqlı münasibətləri.

**Çin:** 1945-1949-cu illərdə vətəndaş müharibəsi. ÇXR-in yaranması. „Böyük sıçrayış". Mao Tszedunun "mədəni inqilab" xətti və onun nəticələri. Xarici siyasət. 1970-ci illərdə iqtisadi və siyasi böhranlar. 1980-90-cı illərdə iqtisadi islahatlar, onların əsas mərhələləri və nəticələri. Dörd modernləşmə. Den Syaopin. Honkonqun geri qaytarılması. Müasir dövrdə ölkənin inkişafının əsas xüsusiyyətləri.

**Yaponiya**: ABŞ-ın işğal rejimi. 1947-ci il konstitusiyası. San-Fransisko müqaviləsi. İşğal rejiminin başa çatması. “Yapon möcüzəsi”. XX əsrin II yarısında xarici siyasət. Müasir dövrdə ölkənin daxili və xarici siyasəti.

**Hindistan:** Milli-azadlıq hərəkatının yüksəlişi. Ölkənin bölünməsi. Müstəqil respublikanın yaranması. 1950-ci il konstitusiyası. Hindistan-Pakistan münaqişələri. C. Nehru xətti. İ. Qandinin islahatları. Hindistan XX əsrin 90-cı illərində. Müasir dövrdə ölkənin iqtisadi və siyasi inkişafı. Xarici siyasət.

**Pakistan**: Pakistan dövlətinin yaradılması. Kəşmir məsələsi. İslam Respublikasının elan edilməsi. M.Əyyub xan hökumətinin daxili və xarici siyasəti. Pakistan XX əsrin 80-90-cı illərində. Müasir dövrdə ölkənin daxili və xarici siyasəti.

**İran:** “Ağ inqilab”. 1978-1979-cu illər inqilabı. İslam Respublikasının qurulması. İran XX əsrin 80-90-cı illərində. Müasir dövrdə ölkənin daxili və xarici siyasəti.

**Əfqanıstan:** 1978-ci il çevrilişi. SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsi. Taliban rejimi və onun devrilməsi.

**Ərəb ölkələri:** İsrail-Fələstin münaqişəsi. Ərəb-İsrail müharibələri. Kemp-Devid sövdələşməsi. İraqda Respublikanın qurulması. “Körfəz müharibəsi”. Səddam Hüseyn rejiminin devrilməsi. Yaxın Şərq probleminin müasir vəziyyəti. “Ərəb baharı” və onun mahiyyəti.

## ƏDƏBİYYAT


1. Aslanov R.B, Məmmədli A., Axundova N.B.Yaxın və Orta Şərq ölkələrinin orta əsrlər tarixi. Bakı, 1999.
2. Əliyev Q.Ə. Qafqaz tarixi. ( Ən qədim çağlardan XVIII əsrin sonunadək). Ali məktəblər üçün dərslik. Bakı: Elm, 2009.
3. Fətəliyev M.,Qasımlı M.Avropa və Amerika ölkələrinin müasir tarixi. II hissə (1945-2002-ci illər). Bakı: Adiloğlu, 2008.
4. Fətəliyev M. Yusifzadə F. Müasir tarix: Qərbi Avropa ölkələri XX əsrin 90-cı illərinin sonu - 2008-ci illərdə. Bakı: AzTU-nun mətbəəsi, 2010.
5. Gözəlova Y.H. Qədim yunan diplomatiyası. Dərs vəsaiti. Bakı, 2010.
6. İsmayıl R., Axundova N. Asiya və Afrika ölkələrinin çağdaş tarixi. I-II hissələr. Bakı: Çaşıoğlu, 2005/2008.
7. Mahmudov Y.M. Orta əsrlər tarixi. Avropa erkən orta əsrlərdə. Dərslik. Bakı, 2012.
8. Mehdiyeva N.C. Türk xalqlarının tarixi. Yeni dövr (XIX-XX əsrin əvvəlləri). Ali məktəblər üçün dərslik. Bakı: Adiloğlu, 2010.
9. Məmmədli A.A. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı: Çaşıoğlu, 2011.
10. Muxtarova Ə.İ. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Ali məktəblər üçün dərslik, Bakı: Adiloğlu, 2011.
11. Qasımlı M.Avropa və Amerika ölkələrinin müasir tarixi. I hissə (1918-1945). Bakı: Adiloğlu, 2003.
12. İsmayıl R., Axundova N., Bağırova A. Ərəb ölkələrinin çağdaş tarixi. I hissə. Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2012.
13. YusifovY. Qədim Şərqtarixi. Ali məktəblərüçün dərslik. Bakı: Şərq-Qərb, 2007.
14. Зуев М.Н., Чернобаев А.А.История России. Москва: Высшая школа, 2001.
15. Гусейнова И. История народов Кавказа. Баку: Тахсил, 2006.
16. История Древнего Востока. Под ред.
    В.И. Кузищина. Москва: Высшая школа, 2003.
17. История Древнего Рима. Под ред. В.И. Кузищина. Москва: Высшая школа, 2000.
18. История Древней Греции. Под ред.
    В.И. Кузищина. Москва: Высшая школа, 2000.
19. История средних веков. Под ред. С.П. Карпова. Т. 1 – 2. Москва: ИНФРА-М, 2001.
20. История стран Азии и Африкив средние века.
    Ф., Лапина З., Мейер М. В 2-х частях. Москва:МГУ, 1985.
21. История южных и западных славян. Под ред. Г.Ф. Матвеева, З.С. Ненашева. В 2-х томах:Москва: МГУ, 1998.
22. Новая история стран Европы и Америки. Первый период. Под редакцией А.В.Адо.Москва: Высшая школа, 1986.
23. Новая история стран Европы и Америки. под редакцией Е.Е. Юровской и И.М.Кривогуза. Т. 1-2. Москва: Высшая школа, 1998.
24. Новая история стран зарубежной Азии и Африки. . Под ред. Л.А. Стопцова,Ленинград: Изд-во ленинградского университета, 1971.
25. Новейшая история стран Азии и Африки в ХХ веке. Под ред. А.Родригеса. В 3-х частях. Москва: Владос, 2004.
26. Новейшая история стран Европы и Америки. Под ред. А.Родригеса. В 3-х частях. Москва: Владос, 2002.

## DÜNYANIN İQTİSADİ SOSİAL COĞRAFİYASI

**Siyasi xəritə və dünya ölkələrinin təsnifatı.** Dünyanın siyasi xəritəsinin formalaşma mərhələləri. Siyasi xəritənin obyektləri: suveren dövlətlər və özüidarəolunmayan ərazilər. “Coğrafi məkan”, “ərazi”, “dövlət sərhədi” anlayışları. Dövlət sərhədlərinin növləri. Dünya ölkələrinin tipologiyası üçün əsas göstəricilər. İnkişaf etmiş, orta və zəif inkişaf etmiş ölkələrin səciyyəsi.

**Dünya əhalisinin coğrafiyası və onun yerləşmə xüsusiyyətləri.** Dünya əhalisinin sayı, dinamikası və yerləşməsi. Əhalinin təbii artımı. Əhalinin təkrar istehsal tipləri. Əhalinin cins-yaş tərkibi. Demoqrafik siyasət. Əhalinin sayının azalması metodları haqqında T.R.Maltusun nəzəriyyəsi. Dünya əhalisinin orta ömür müddəti. Əmək ehtiyatları. Nigah və boşanma siyasəti. Dünya əhalisinin irqi, milli, etnik və dini tərkibi. Etnik separatizm və münaqişə ocaqları. Əhalinin təhsil səviyyəsi. Kənd və şəhər əhalisi. Urbanizasiya. Aqlomerasiyalar. Meqalopolislər. Miqrasiya və onu formalaşdıran əsas amillər. Miqrasiyanın növləri.

**Dünya təsərrüfatının tipləri və modelləri. Dünya təsərrüfatı və elmi texniki tərəqqi (ETT).** Dünya təsərrüfatı anlayışı. Dünya təsərrüfatının tipləri. Ölkə tiplərinə uyğun olan fəaliyyət növləri. Dünya təsərrüfatının inkişafının coğrafi modeli. Transmilli korporasiyaların iqtisadi fəaliyyəti və beynəlxalq əmək bölgüsündə onların rolu. Ərazi əmək bölgüsünün növləri. ETT dövründə dünya təsərrüfatındakı dəyişikliklər. ETT-nin tərkib hissələri və onların səciyyəsi.

**Beynəlxalq iqtisadi inteqrasiya.** Ölkələrin inteqrasiyasına səbəb olan amillər. İnteqrasiyanın qruplaşma növləri. Birləşmiş Millətlər Təşkilatı (BMT) – ən qlobal inteqrasiya kimi. Əsas funksiyaları. Büdcəsinin formalaşması. Avropa İttifaqının yaranma tarixi və funksiyaları. Şengen razılaşması. Aİ və Avropa Azad Ticarət Assosiasiyası (AATA). Şimali Amerika Azad Ticarət sazişi (NAFTA), tərkibi və funksiyaları. ABŞ-ın bu təşkilatda rolu. NAFTA-nın yaradılması və onun Aİ-dən fərqi. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT). Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası (ASEAN). Latın Amerikası İnteqrasiya Assosiasiyası (LAAİ). Asiya Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatı (APEC). Neft İxrac edən Ölkələrin Təşkilatı (OPEK). Müstəqil Dövlətlər Birliyi (MDB) – postsovet məkanının inteqrasiyası. Beynəlxalq maliyyə təşkilatları. Azərbaycan dünya inteqrasiya sistemində.

**Sənaye sahələrinin coğrafiyası.** Sənayenin inkişafı üçün təbii-ehtiyat potensialı. Təbii ehtiyatların qeyri-bərabər yerləşməsi. Sənaye sahələrinin inkişafına təsir edən amillər. Sənaye sahələrinin coğrafiyası. Sənayedə transmilli korporasiyaların fəaliyyəti qloballaşma xüsusiyyətlərinin təzahürü kimi. Ağır və yüngül sənaye sahələri. Sənaye istehsalının okean sahillərinə cəlb olunmasının səbəbləri. Elektroenergetika, metallurgiya, maşınqayırma, kimya və meşə, yüngül və yeyinti sənaye sahələrinin səciyyəsi və yerləşməsi.

**Kənd təsərrüfatı sahələrinin coğrafiyası.** Kənd təsərrüfatının maddi-texniki bazası – mexanikləşmə, kimyalaşma, etektrikləşmə. Kənd təsərrüfatının yerləşməsində ümumi meyllər. Kənd təsərrüfatı istehsalının ənənəvi və müasir formaları. İnkişaf etməkdə olan ölkələrdə “Yaşıl inqilab”. “Yaşıl inqilab”ın əsas komponentləri. Biotexnoloji inqilab. Dünya balıqçılıq təsərrüfatı. Suvarılan torpaqlar. Əkinçilik və heyvandarlığın xüsusiyyətləri və yerləşmə coğrafiyası. Mühüm ərzaq məhsullarının istehsalı və dünya bazarına ixracatı.

**Dünya nəqliyyatının coğrafiyası.** Dünya nəqliyyat sistemi və onun əsas göstəriciləri. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin nəqliyyat sisteminin xassələri. Əsas nəqliyyat növləri: hava, avtomobil, dəmiryolu, boru kəmər və su nəqliyyatı. Dəniz gəmiçiliyi. Dəniz donanması. Dəniz limanları və onların tipləri. Beynəlxalq gəmiçilik kanalları və boğazları. Çay gəmiçiliyi.

**Avropa regionunun iqtisadi-coğrafi səciyyəsi.** Avropanın ümumi iqtisadi-coğrafi səciyyəsi: ərazisi, sərhədləri, təbii şəraiti və ehtiyatları, əhalisi. Avropa regionunda urbanizasiya səviyyəsi. Sənaye və kənd təsərrüfatı sahələri. Regionda turizmin inkişafı. Avropa ölkələrinin ixtisaslaşması. Siyasi xəritədəki dəyişikliklər. Ölkələrin beynəlxalq inteqrasiyada iştirakı.

**Almaniya Federativ Respublikası.** Coğrafi mövqeyi, təbii şəraiti və ehtiyatları. Dövlətin formalaşma tarixi və dövlət quruluşu. Əhalinin sayı və təbii artım. ADR və AFR – vahid müstəqil dövlət kimi. Milli tərkib. Əhalinin miqrasiyası. İqtisadi inkişafın xüsusiyyətləri. Sənaye sahələrinin səciyyəsi. Turizmin inkişafı. AFR-də transmilli korporasiyalar. Kənd təsərrüfatı. Nəqliyyatı və xarici iqtisadi əlaqələri. İqtisadi rayonları, onların ixtisaslaşması.

**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı.** Coğrafi mövqeyi, təbii şəraiti və ehtiyatları. Dövlətin formalaşma tarixi və dövlət quruluşu. Şimali İrlandiya – münaqişə ocağı kimi. Əhalinin sayı və təbii artım. Milli tərkib. Əhalinin miqrasiyası. Urbanizasiya. İqtisadi inkişaf modelinin xüsusiyyətləri. Sənaye sahələrinin səciyyəsi. Turizmin inkişafı. Kənd təsərrüfatı. Nəqliyyatı və xarici iqtisadi əlaqələri. İqtisadi rayonları, onların ixtisaslaşması.

**Fransa Respublikası.** Coğrafi mövqeyi, təbii şəraiti və ehtiyatları. Dövlətin formalaşma tarixi və dövlət quruluşu. Əhalinin sayı və təbii artım. Milli tərkib. Əhalinin miqrasiyası. Urbanizasiya. İqtisadi inkişaf modelinin xüsusiyyətlər. Sənaye sahələrinin səciyyəsi. Turizm və kurort təsərrüfatının inkişafı. İstehsalın və kapitalın təmərküzləşməsi. Sənaye rayonları və mərkəzləri. Aqrar bölmənin çoxsahəli və yüksək məhsuldar olması. Heyvandarlıq və bitkiçilik. Ərzaq məhsulları ixracına görə Fransanın Qərbi Avropada mövqeyi. Nəqliyyatı və xarici iqtisadi əlaqələri. İqtisadi rayonları, onların ixtisaslaşması.

**Amerika regionunun iqtisadi-coğrafi səciyyəsi.** Amerikanın ümumi iqtisadi-coğrafi səciyyəsi: sahəsi, sərhədləri, təbii şəraiti və ehtiyatları, əhalisi. Urbanizasiya səviyyəsi. Aqlomerasiyalar. Meqalopolislər. Sənaye və kənd təsərrüfatı sahələri. Regionda turizmin inkişafı. Dünya iqtisadiyyatında və siyasətində regionun rolu. Beynəlxalq inteqrasiyada

iştirakı. Regional təşkilatlar.

**Amerika Birləşmiş Ştatları.** Coğrafi mövqeyi, təbii şəraiti və ehtiyatları. Dövlətin formalaşma tarixi və dövlət quruluşu. Amerika millətinin formalaşması. Əhalinin sayı və təbii artım. Milli tərkib. Əhalinin miqrasiyası. Urbanizasiya. Aqlomerasiya və meqalopolislər. İqtisadi inkişaf modelinin xüsusiyyətləri. Sənaye və qeyri istehsal sahəsinin rolu. Turizmin inkişafı. Kənd təsərrüfatı və bu sektorun dünya bazarında mövqeyi. Bitkiçilik və heyvandarlığın strukturu.. Nəqliyyatı və xarici iqtisadi əlaqələri. İqtisadi rayonlar, onların ixtisaslaşması.

**Kanada.** Coğrafi mövqeyi, təbii şəraiti və ehtiyatları. Dövlətin formalaşma tarixi və dövlət quruluşu. Əhalinin sayı və təbii artım. Milli tərkib. Əhalinin miqrasiyası. Urbanizasiya. İqtisadi inkişaf modelinin xüsusiyyətləri. Sənaye sahələrinin səciyyəsi. Turizmin inkişafı. Kənd təsərrüfatı. Nəqliyyatı və xarici iqtisadi əlaqələri. İqtisadi rayonları, onların ixtisaslaşması.

6. Голяк А.Н., Плоткин С.И., Ковальчук И.Ф. Радионавигационное оборудование самолетов. Устройство и эксплуатация. Москва: Транспорт, 1981.
7. Кирпичникова Л.Г., Матвеенко Л.С. Приборные комплексы летательных аппаратов. Москва, 1990.
8. Пашаев А.М., Гасанов А.Р., Исмаилзаде Г.И. Радиооборудование самолета Як-40. Б., 2001.
9. Радиолокационные системы воздушных судов. /Учебник для вузов / под ред. П.С. Давыдова Москва: Транспорт, 1988.
10. Aircraft instruments and integrated systems. London: Pearson. Prentice Hall. Longman Group Limited, 1992, 2007.
11. Avionics (selected texts). English in aviation. Avionics students book, 2007.
12. Avionics fundamentals. USA,: Jeppesen, 2007.


## NAVİQASİYANIN ƏSASLARI

Naviqasiyanın əsas anlayışları. Coğrafi anlayışlar. Naviqasiyada kursların müəyyən edilməsində istifadə olunan sistem. Yer səthində mövqeyin müəyyən edilməsi. Kiçik və böyük dairə. Geosentrik və coğrafi en dairələri. Ortodromiya, loksodromiya. Yer səthində məsafə. Ortodromiyanın hesablanması. Naviqasiya sürətlər üçbucağı. Topoqrafik xəritələr. Uçuş enmə zolağına təsir edən külək vektorunun tərkib hissələri. Yer maqnitizmi. Zamanın ölçülməsi. Qayıdış sərhədi və bərabər vaxt nöqtəsi. Aviasiyada istifadə olunan maqnit kompasları. Uçuşun idarəetmə sistemi. Zonal naviqasiya. İnersial naviqasiya sistemləri.

### ƏDƏBİYYAT


1. Воздушная навигация и аэронавигационное обеспечение полётов. Под редакцией Н.Ф. Миронова. Москва: Транспорт, 1992.
2. Воздушная навигация. Методические указания по изучению отдельных разделов. Ленинград: АГА, 1987-1995.
3. Липин А.В. Аэронавигация в международных полетах. Санкт- Петербург, 2014.
4. Михайлов Н.А. Воздушная навигация. Международные полеты. Издание первое. Новосибирск, 2000.
5. Справочник по воздушной навигации. Москва: Транспорт, 1986.
6. Хиврич И.Г., Белкин А.М. Автоматизированное вождение воздушных судов. Москва: Транспорт, 1985.
7. Хиврич И.Г., Миронов Н.Ф., Белкин А.М. Воздушная навигация. Москва: Транспорт, 1984.
8. Черный М.А., Кораблин В.И. Воздушная навигация. Москва: Транспорт,1992.
9. JAA ATPL JEPPESEN, Oxford Aviation Training General Navigation.
10. Ray Preston, Navigation for professional pilots, 2010.

## AERONAVİQASİYA

Hava yollarında uçuşların aeronaviqasiya təminatı. Hava yollarının xarakteristikaları və onlara qoyulan tələblər. Hava yollarının siyahısı. Hava yollarının eni. Qorunan hava məkanı. Aeronaviqasiyada səviyyələşmə normaları. Aerodrom sxemlərinin qurulması və aerodrom minimumlarının təyin olunması. Aerodrom sxemlərinin qurulmasının ilkin göstəriciləri. Sxemlərin qurulması zamanı külək və temperaturun nəzərə alınma prinsipi. Cihaz üzrə uçuş sxemlərinin qurulması. Enmə mərhələləri. Enmənin başlanğıc, aralıq və son mərhələləri üçün sxemlərin qurulması. Hava gəmilərinin naviqasiya komplekslərinin məlumatla təminatı haqqında ümumi göstəricilər.

### ƏDƏBİYYAT


1. Azərbaycanın Aviasiya Qaydaları – Havada hərəkətin idarə olunması. Bakı, 2007.
2. Azərbaycanın Aviasiya Qaydaları – Uçuş qaydaları. Bakı, 2007.
3. Paşayev A.M., Hacıyev N.C., Nəbiyev R.N., Sultanov V.Z. Hava hərəkətinin idarəsi sistemində peyk dispetçer rabitəsi. Bakı, 2005.
4. Sultanov V.Z., Mirzəyev B.M. Şaquli səviyyələşmənin qısaldılmış minimumu (RVSM). Bakı, 2005.
5. Анодина Т.Г., Кузнецов А.А., Маркович Е.Д. Автоматизация управления воздушного движения. Москва: Транспорт, 1992.
6. Аютов Д.Х., Кулиев Г.И., Мухтаров П.Ш. Надежность и безопасность управления воздушного движения. Баку, 2004.
7. Организация УВД. Баку, 2005.
8. Табель сообщений о движении ВС. Баку, 2017.
9. Annex 11 “Air traffic servis”. ICAO, 2010.
10. Annex 15 "Aeronautical İnformation Services"
11. Annex 2 “Rules of the air”. ICAO, 2011.
12. Azerbaijan Aviation Rules – Radio telephony manual. Baku, 2010.
13. Doc 4444. Air traffic managment. ICAO, 2016.
14. Doc 8126. AİS manual
15. Doc 8168. AIRCRAFT OPERATIONS. ICAO – PANS/OPS/611 – 2016.
16. Doc 9432 “Radiotelephony manual” ICAO, 2009.


## HAVA NƏQLİYYATININ HƏRƏKƏTİNƏ XİDMƏT

Hava məkanının bölünməsi və təsnifatı. Hava məkanı və ondan istifadə qaydaları. Ölkənin hava məkanının zonalara və rayonlara bölünməsi. Hava məkanın təşkili. Vizual uçuş qaydaları. Cihazlar üzrə uçuş qaydaları. Xüsusi vizual uçuş qaydaları. Şaquli və üfüqi səviyyələşmə qaydaları. Aerodrom rayonununda və hava yollarında hava gəmilərinin hərəkət sxemləri. Minimumlar.

### ƏDƏBİYYAT


1. Paşayev A.M., Məmmədov Q.Ş., Quliyev H.İ., Əhmədov İ.H. Aeronaviqasiyada kartoqrafik proyeksiyalar. Bakı, 2006.
2. Аэронавигационное обеспечение полетов. Методические указания по стандартам передачи аэронавигационной информации. Санкт-Петербург: АГА,2000.
3. Вовк В.И., Липин А.В., Сарайский Ю.Н. Зональная навигация. Санкт-Петербург: ЦАО, 2004.
4. Воздушная навигация и аэронавигационное обеспечение. Учебник под ред. Н.Ф. Миронова. Москва: Транспорт, 1992.
5. Воздушная навигация. Методические указания по изучению отдельных разделов. Ленинград: АГА, 1987-1995.
6. Липин А.В. Аеронавигация в международных полетах. Санкт- Петербург, 2014.
7. Марков В.И., Митькин А.В., Завизион Н.А. Аэронавигационное обеспечение полетов на международных воздушных линиях. Кировоград, 2002.
8. Организация УВД. Баку, 2005.
9. Табель сообщений о движении ВС. Баку, 2017.
10. Annex 11 “Air traffic servis”. ICAO, 2010.
11. Annex 2 “Rules of the air”. ICAO, 2011.
12. Doc 4444 “Air traffic managment”. ICAO, 2016.
13. Doc 8168. AIRCRAFT OPERATIONS. ICAO – PANS/OPS/611 – 2016.

# Baytarlıq təbabəti

## BAYTARLIQ TƏBABƏTİ

**Ümumi patologiya.** Patologiya, patoloji proseslər və xəstəlik anlayışı. Xəstəliyin dövrləri və nəticələnməsi. Xəstəliklərin baş verməsi səbəbləri və onların inkişafında müxtəlif amillərin (heyvanın növü, cinsi, yaşı, cinsiyyəti və s.) rolu.

**Klinik diaqnostika və yoluxmayan xəstəliklər.** Anamnez, ümumi və xüsusi klinik müayinə üsulları. Ayrı-ayrı fizioloji sistemlərin və orqanların yoluxmayan xəstəlikləri. Ürək-damar və tənəffüs sistemlərinin patologiyası. Həzm sisteminin patologiyası. Mədə-bağırsaq xəstəlikləri (qastroenteritlər, dispepsiya, timpaniya və s.), sidik ifrazının patologiyası. Maddələr mübadiləsi patologiyaları. Maddələr mübadiləsinin pozulması ilə əlaqədar baş verən xəstəliklər (avitaminozlar, hipovitaminozlar, raxit, osteomolyasiya və s.). Zəhərlənmələr. Pestisidlərlə, keyfiyyətsiz yemlərlə, zəhərli bitkilərlə, qarğıdalı, şəkər və yem çuğunduru, bitkilərdən alınan emal qalıqları (pambıq jmıxı və srotu) və s. ilə zəhərlənmələr, ilk yardım və müalicənin prinsipləri və üsulları.

Travmatizm, cərrahi infeksiya, termiki və kimyəvi zədələnmələr. Cərrahi xəstəliklərdə ilk yardım, müalicə və profilaktikanın prinsipləri və üsulları.

**Kənd təsərrüfatı heyvanlarının və quşlarının helmintozları.** Parazitizm və parazitar xəstəliklər. Helmintozlar. Devastasiya haqqında təlim. Dehelmintizasiya və dezinvaziya tədbirləri. Trematodlar (sorucu yastı qurdlar) tərəfindən törədilən xəstəliklər (fassiolyoz, dikroselioz və s.). Sestodlar (lent şəkilli yastı qurdlar) tərəfindən törədilən xəstəliklər (sistiserkoz, exinokokoz, moniezioz və s.). Nematodlar (girdə qurdlar) tərəfindən törədilən xəstəliklər (askaridozlar, strongilyatozlar, askaridioz və s.).

**Kənd təsərrüfatı heyvanlarının və quşlarının araxno-entomozları və protozoozları.** Araxnozlar (gənələr tərəfindən törədilən xəstəliklər), qoturluq xəstəlikləri, otlaq gənələri. Entomozlar. Sərbəst xəstəliklər törədən və xəstəlikləri keçirən həşəratların xarakteristikası. Qaramalın hipodermatozu, qoyunların estrozu və s. Qanadlı və qanadsız qansorucu həşəratlar. Protozoozlar. Heyvanların qan-parazitar xəstəlikləri (piroplazmoz, teylerioz və s.). Koksidiozlar. Tripanosomozlar (qaramalın trixomonozu və s.).

**Ümumi epizootologiya.** İnfeksiya və infeksion xəstəliklər. Bunların baş verməsində mikroorqanizmlərin rolu. Epizootik zəncir. İnfeksiyanın yayılma yolları (kontakt, yem, su, hava və s.), infeksiyanın ocağı və yoluxucu xəstəliklərin təbii ocaqları. Epizootiya əleyhinə tədbirlər: ümumi profilaktika, spesifik profilaktika, qeyri-sağlam təsərrüfatlarda yoluxucu xəstəliklərin ləğvi. Profilaktik tədbirlərin təşkili. Spesifik profilaktika, onun üsulları və vasitələri, immunoprofilaktika. Epizootik ocaqda sağlamlaşdırıcı tədbirlər sistemi, karantin. Dezinfeksiya üsulları və vasitələri. Dezinseksiya və deratizasiya tədbirləri, onların üsul və vasitələri.

**Xüsusi epizootologiya.** Müxtəlif növ heyvanlar üçün ümumi olan infeksion xəstəliklər (qarayara, brusellyoz, vərəm, pasterellyoz, dabaq, çiçək, dəmrov və s.), onların xüsusiyyətləri, mübarizə tədbirləri. Gövşəyən heyvanların infeksion xəstəlikləri (enfizematoz karbunkul, vibrioz və s.), donuzların infeksion xəstəlikləri (qızıl yel, taun və s.), körpə heyvanların xəstəlikləri (salmonellyoz və s.). Atların infeksion xəstəlikləri (manqo, saqqo). Quşların infeksion xəstəlikləri (Nyukasl xəstəliyi, qrip, pulloroz, pasterellyoz, çiçək və s.).

**Baytarlıq mamalığı.** Erkək və dişi heyvanların cinsiyyət üzvlərinin anatomiyası, topoqrafiyası, fiziologiyası. Cinsi yetişkənlik. Dölləmə, boğazlıq, boğazlıq dövrü, doğum, doğumdan sonrakı dövrün xüsusiyyətləri, yeni doğulmuş balaların fizioloji xüsusiyyətləri. Süd vəzilərinin fiziologiyası, müayinəsi, xəstəlikləri və s.

**Kənd təsərrüfatı heyvanlarının süni mayalandırılması.** Döllük erkəklərin seçilməsi, bəslənməsi, yemləndirilməsi, saxlanması, istismarı. Spermanın tərkibi, biokimyəvi xassələri, alınması, qiymətləndirilməsi saxlanılması, nəql olunması, duruldulması, dondurulması. Spermanın dişi cinsiyyət sisteminə yeridilməsi. Süni mayalanmanın təşkili. Rüşeymin transplantasiyası və s.

**Baytarlıq ginekologiyası.** Dişi və erkək heyvanların cinsiyyət üzvlərinin müayinə üsulları, heyvanın boğaz olmasının təyini. Dişi heyvanların cinsiyyət sferası üzvlərinin xəstəlikləri və onlara qarşı mübarizə tədbirləri. Heyvanların qısırlığı və sonsuzluğu ilə mübarizənin əsas prinsipləri.

Əhalinin və heyvanların sağlamlığının qorunmasında, ərzaq bolluğunun yaradılmasında və onların keyfiyyətinin yüksəldilməsində baytarlıq-sanitariya ekspertizasının əhəmiyyəti. Ətlik heyvanların emal texnologiyasının əsasları və gigiyenası. Cəmdək və orqanların baytar-sanitar ekspertizası və bununla əlaqədar profilaktik tədbirlər. Ayrı-ayrı heyvan, quş və bitki mənşəli məhsullarının (ət, süd, yu murta, tərəvəz və s.) baytar-sanitar ekspertizasının xüsusiyyətləri.

**Baytarlıq əczaçılığı və dərmanların texnologiyası.** Baytarlıq əczaçılığı, onun məqsədi, məzmunu və vəzifələri, əsas tərkib hissələri. Dərman, dərman maddəsi, dərman forması, dərman preparatı. Bərk, maye və yumşaq dərman formaları, onların hazırlanma texnologiyası. Dərman uyuşmazlığı. Farmakopeya. Əczaçılıq analizi, onun sxemi və metodları. Dərman maddələrinin qiymətləndirilməsinin əsas prinsipləri.

**Farmakologiya və farmakoqnoziya.** Dərman maddələrinin təsir mexanizmi və farmakodinamikası, orqanizmə yeridilmə və orqanizmdən xaric olma yolları. Dərmanların müxtəlif farmakoloji qrupları. Dərman maddələrinin dozası və dozaların təyini prinsipləri. Dərmanların müxtəlif farmakoterapevtik qruplara bölünməsi. Farmakoqnoziyanın məqsədi, məzmunu və vəzifələri. Farmakoqnoziyanın əsas tədqiqat obyektləri (bitki və heyvan mənşəli dərman xammalı). Dərman bitkilərinin kimyəvi tərkibi və tərkibində olan farmakoloji maddələrə görə onların qruplaşdırılması və təsnifatı. Heyvan mənşəli dərman xammalı və dərman preparatları.

## ƏDƏBİYYAT


1. Allahverdiyev R. Heyvandarlığın patoloji fiziologiyası. Bakı, 2010.
2. Əhmədov Ə.Q., İsgəndərov T.B. Baytarlıq mamalığı, ginekologiya, kənd təsərrüfatı heyvanlarının süni mayalandırılması və rüşeymin transplantasiyası. Gəncə, 2010.
3. Əliyev E.A., Əzimov İ.M., Vəliyev U.M. və b. Epizootologiya və infeksion xəstəliklər. Bakı, 2013.
4. Əliyev E.İ. Kənd təsərrüfatı heyvanlarının patoloji anatomiyası. Bakı, 2009.
5. Əsgərov Ə.A. Kənd təsərrüfatı heyvanlarının gigiyenası. Bakı, 1992.
6. Gəncəyev İ.F, Nəsibov F.N., Məmmədov H.B. Körpə kənd təsərrüfatı heyvanlarının daxili xəstəlikləri. Bakı, 2009.
7. Hacıyev H.M. Kənd təsərrüfatı heyvanlarının yoluxmayan daxili xəstəlikləri. Bakı, 1992.
8. Hüseynov D. Ümumi və xüsusi reseptura (farmakologiyanın əsasları ilə birlikdə). Bakı,1976.
9. İsgəndərov T.B. Ümumi və xüsusi baytarlıq cərrahiyyəsi. Gəncə, 2011.
10. İsgəndərov T.B., Nəsibov F.N. Xırda heyvanların xəstəlikləri. Bakı, 2008.
11. İsmayılov Ə.İ., Təhməzov F.Ə., Tağıyev S.Ə. Dərman formalarının texnologiyası. Bakı, 1989.
12. Kərimov Y., Süleymanov T., İsayev C., Xəlilov C. Farmakoqnoziya. Bakı, 2010.
13. Qədimov R., Məmmədov İ., Ələsgərov Z. Epizootologiya. Bakı, 1998.
14. Qəniyev M. Farmakologiya. Bakı, 2008.
15. Qocayev E.Q. Parazitologiya və kənd təsərrüfatı heyvanlarının invazion xəstəlikləri. Bakı, 1984.
16. Nəsibov F.N. Heyvanların daxili xəstəliklərinin klinik diaqnostikası. Bakı, 2010.
    Səfərov B.Ə. Baytarlığın əsasları. Gəncə, 2010.
17. Абуладзе К.И., Демидов Н.В., Непоклонов А.И. Паразитология и инвазионные болезни животных. Москва, 1990.
18. Акбаев М., Воденов А., Косминов Н. и др. Паразитология и инвазионные болезни животных. М.: Колос, 1998.
19. Бурделева Т.Е. Основы ветеринарии. Москва: Колос, 1978.
20. Конопаткина А.А. Эпизоотология и инфекционные болезни сельскохозяйственных животных. Москва: Колос, 1984.
21. Мозгов И.Е. Ветеринарная фармакология. Москва: Агропромиздат, 1985.
22. Муравьев И.А. Технология лекарств. Том 1 – 2. Москва: Медицина, 1989.
23. Муравьева Д.А. Фармакогнозия. Москва: Медицина,1991.
24. Студенцов А.П. Ветеринарное акушерство и гинекология. Москва: Агропромиздат, 1986.
25. Щербаков Г.Г. Внутренние незаразные болезни сельскохозяйственны х животных. Москва: Лань, 2002.

# Biotibbi texnika mühəndisliyi

## ELEKTRONİKA VƏ SXEMOTEXNİKANIN ƏSASLARI

**Yarımkeçirici cihazlar**. Yarımkeçirici parametrik elementlər: termistorlar, pozistorlar, varistorlar. Yarımkeçirici diodlar: düzləndirici diodlar, impuls diodları, stabilitronlar, tunel diodları, varikaplar, Şotki diodları. Bipolyar və sahə tranzistorları: növləri, iş prinsipi, qoşulma sxemləri, statik xarakteristikaları, ekvivalent sxemləri və parametrləri. IGBT tranzistorları, iş prinsipi, qoşulma sxemləri, xarakteristikaları. Tiristorlar: növləri, iş prinsipi, xarakteristikaları və parametrləri.

**Fotoelektron cihazlar**. Fotoelektron şüalandırıcı cihazlar: işıq diodları və lazerlər, onların növləri, xarakteristikaları və parametrləri. Fotoelektron şüaqəbuledici cihazlar: fotorezistorlar, fotodiodlar, fotoelementlər, fototranzistorlar, fototiristorlar. Bu cihazların volt-amper, spektral və energetik xarakteristikaları. Optoelektron cütlər.

**Elektron açarlar**. İmpuls siqnallarını ötürən açar sxemləri: diod açarları sxemi, bipolyar tranzistorlu açar sxemi, sahə tranzistorlu açar sxemi.

**Elektrik siqnallarını gücləndirən qurğular.** Gücləndiricilərin təsnifatı, keyfiyyət göstəriciləri və iş rejimləri. Gücləndiricilərin əsas xarakteristikaları və parametrləri, gücləndirmə əmsalı. Əks əlaqə və onun gücləndiricinin keyfiyyət göstəricisinə təsiri. İlkin gücləndirici kaskadların iş rejimlərinin seçilməsi və stabilləşdirilməsi üsulları. Ümumi emitterli, kollektorlu və bazalı gücləndirici kaskadlar. Sahə tranzistorlu gücləndirici kaskadlar. Seçici gücləndiricilər. Güc gücləndiriciləri. Çoxkaskadlı gücləndiricilər. Sabit cərəyan gücləndiriciləri. Bipolyar və unipolyar tranzistorlarda qurulmuş diferensial gücləndirici kaskad. Əməliyyat gücləndiriciləri və onların əsasında qurulmuş müxtəlif funksiyalı sxemlər – invertləyən və invertləməyən gücləndiricilər və cəmləyicilər, inteqrallayıcı, diferensial-layıcı.

**İkinci qida mənbələri**. Düzləndirici sxemlər. Hamarlayıcı süzgəclər: sadə tutum, sadə induktivlik və mürəkkəb sxemli hamarlayıcı elektron süzgəclər. İmpuls qida mənbələri. Parametrik və kompensasiyalı stabilizatorlar.

**Funksional generatorlar**. Harmonik rəqs generatorları: LC– və RC– generatorları, avtogeneratorlar. İmpuls generatorları: multivibratorlar, blokinq–generatorlar, xətti dəyişən gərginlik generatorları.

**Rəqəmsal elektronika**. Məntiq cəbrinin əsasları. Məntiq elementləri. Ardıcıl qurğular, triggerlər – asinxron və sinxron RS triggerlər, ikitaktlı sinxron triggerlər, D və T triggerlər, universal JK-trigger və trigger sxemlərinin sintezi, onların həqiqilik cədvəlləri və riyazi ifadələri. İmpuls sayğacları. Registrlər. Koderlər və dekoderlər. Cəmləyicilər. Komparatorlar. Multipleksorlar və demultipleksorlar.

### ƏDƏBİYYAT


1. Axundov N.S., Yolçiyev M.N. Elektrotexnika və elektronika: testlər. Dərs vəsaiti. Bakı: MBM, 2010.
2. Hümbətov R.T. Elektronika. I hissə: Elektron cihazları. Ali məktəblər və texnikumlar üçün dərs vəsaiti. Bakı: Maarif, 2010.
3. Hümbətov R.T. Elektronika. II hissə: Elektron qurğuları. Ali məktəblər və texnikumlar üçün dərs vəsaiti. Bakı: Maarif, 2010.
4. Kazımzadə R.Z., Tağızadə S.M., Yusifova S.B. Elektrotexnikanın nəzəri əsasları. Dərslik. Bakı: ADNA, 2012.
5. Məmmədov R.Q., Hacıyev A.Ə. Elektrotexnikanın və elektronikanın əsasları. Dərslik. Bakı, ADİU nəşriyyatı, 2007.
6. Rəhimov R.M., Manafov A.M., Cavadova S.M. Rəqəmsal sistemlər. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2014.
7. Rəhimova E.H. Elektrotexnikanın əsasları. Dərs vəsaiti. Bakı: MBM, 2013.
8. Sadıqov O. M. Həsənov M. Ş. Elektron texnikasının komponentləri. Dərs vəsaiti. Bakı: AzTU, 2002.
9. Səttarov V.Q., Dadaşova R.B. Elektrotexnika. Dərslik. Bakı: Elm və təhsil, 2014.
10. Tağızadə S.M. Elektrotexnikanın əsasları. Dərslik. Bakı: ADNA, 2015.
11. Yolçiyev M.N., Axundov N.S. Elektrotexnika və elektronika. Dərs vəsaiti. Bakı: MBM, 2012.
12. Берикашвили В.Ш. Основы электроники. Учебник. Москва: Издательский центр Академия, 2013.
13. Гумбатов Р.Т. Электроника и микроэлектроника. Учебное пособие для вузов. Баку: Маариф, 2011.
14. Лачин В.И., Савелов Н.С. Электроника. Учебное пособие. Ростов н/Д: Феникс, 2007.
15. Марченко А.Л. Основы электроники. Учебное пособие для вузов. Москва: ДМК Пресс, 2008.
16. Миловзоров О.В., Панков И.Г. Электроника. Учебник. Бакалавр. Базовый курс. Москва: Юрайт, 2013.
17. Опадчий Ю.Ф., Глудкин О.П., Гуров А.И. Аналоговая и цифровая электроника (Полный курс). Учебник для вузов. Под ред. О.П.Глудкина. Москва: Горячая линия –Телеком, 2007.
18. Пасынков В.В., Чиркин Л.К. Полупроводниковые приборы. Москва: Высшая школа, 2003.
19. Степаненко И.П. Основы микроэлектроники. Москва: Изд. Лаборатория базовых знаний, 2003.
20. Угрюмов Е.П. Цифровая схемотехника. 3-е издание. Санкт-Петербург: БХВ–Петербург, 2010.
21. Хоровиц П., Хилл У. Искусство схемотехники. В 2-х томах. Пер. с англ. 6-е издание. Москва: Мир, 2015.

# Dəmir yolu nəqliyyatı və təsərrüfatı mühəndisliyi

---

**Yol və yol təsərrüfatı. Dəmir yolunun quruluşu və texniki vasitələri. Dəmiryol nəqliyyatının tikinti və qurğuları**

Ümumi mülahizələr. Yolun alt quruluşu, torpaq qatı və onun eninə profili. Su axıdıcı qurğular. Torpaq qatının deformasiyası və onunla mübarizə. Süni tikintilər, onların təsnifatı və vəzifələri. Körpülər, borular, tunellər, dayaq divarlar, tənzimləyici qurğular. Yolun üst quruluşu, növləri və təyinatı. Rels bağlayıcıları, əksqaçırıcılar, calaqsız yol. Rels aralığının qurulması. Əyrilərdə yolun xüsusiyyətləri. Körpü və tunellərdə yolun qurulması. Yol dəyişmələri, birləşmələri və kəsişmələri.

Yol təsərrüfatının vəzifələri və strukturu. Yol işlərinin siniflərə bölünməsi və istehsalının təşkili. Yolun qardan, qum axınından və sel sularından mühafizəsi.

Dəmiryol nəqliyyatında qabaritlər. Dəmiryol nəqliyyatının fəaliyyətini tənzimləyən əsas normativ sənədlər. Dəmir yollarının layihələndirilməsi və tikintisi. Dəmir yolunda trassa, plan və uzununa profil. Dəmir yollarının layihələndirilmə mərhələləri.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Dövlət Dəmir Yolunun işarəvermə təlimatı. Bakı: Göytürk, 2001.
2. Azərbaycan Dövlət Dəmir Yolunun texniki istismar qaydaları. Bakı: Göytürk, 2000.
3. Şərifov K.M., Bağırov İ.X. Dəmir yolunun cari saxlanışına dair təlimat. Bakı: OKA Ofset, 2004.
4. Məmmədov H.Ə., Bağırov S.M., Məmmədov R.V. və b. Dəmiryol nəqliyyatı. Ümumi kurs. Bakı: Çaşıoğlu, 2002.
5. Уздин М.М. Железные дороги. Общий курс. М.: Транспорт, 1991.

# Ekologiya mühəndisliyi

## EKOLOGİYA VƏ TƏBİƏTDƏN İSTİFADƏ

Landşaftın ekologiyası. Landşaftların ekoloji xüsusiyyətləri və landşaftların qruplaşdırılması. Antropogen təsirlərə qarşı landşaftın dayanıqlığı, səmərəli istifadəsi, mühafizəsi. Xüsusi qorunan ərazilər (qoruqlar, yasaqlıqlar, milli parklar).

Litosferin ekologiyası. Torpaq ekosistemi, onun quruluşu, funksiyaları və xüsusiyyətləri (fiziki-kimyəvi və bioloji). Biosferdə torpağın əhəmiyyəti. Torpağın ion mübadiləsi həcmi. Torpaqdan istifadə və onun nəticələri. Torpaqların deqradasiyası, eroziyası, çirklənməsi və təkrar şorlaşması. Torpaqların mühafizəsi tədbirləri. Pestisidlərin təsnifatı və tətbiqi. Pestisidlərin kimyəvi tərkibi və ekoloji xüsusiyyətləri. Mineral gübrələr (azot, fosfor, kalium). Su hövzələrinin evtrofikasiyası. Azərbaycanda torpaq ehtiyatlarının bərpasına yönəlmiş tədbirlər.

Atmosferin ekologiyası. Atmosferin quruluşu, tərkibi və funksiyaları. Atmosferdə kimyəvi proseslər və onların xüsusiyyətləri. İstixana effektinin mahiyyəti, onunla bağlı ekoloji problemlər və onların aradan qaldırılması üsulları. Atmosferin istilik balansı. Atmosfer havasını çirkləndirən əsas mənbələr (təbii və antropogen). Fiziki, kimyəvi və bioloji çirklənmələr. Ozon qatı və onun funksiyaları. Ozondağıdıcı maddələr. Freonlar. Fotokimyəvi duman (smoq). Atmosferi çirkləndirən əsas toksiki maddələr və onların mənfi fəsadları. Atmosferə atılan çirkləndiricilərin azaldılması tədbirləri və təmizlənmə üsulları: mexaniki, fiziki-kimyəvi və termiki. Atmosfer çirkləndiricilərinin quru və nəm təmizlənmə üsulları. Turşu yağışlarının ətraf mühitə təsiri. Atmosferdə fotokimyəvi reaksiyalar. Atmosfer aerozolları, onların təsnifatı (troposfer, okean, terrogen, vulkanik, antropogen), xarakteristikası və iqlimin formalaşmasında onların rolu. Atmosfer aerozollarının canlı orqanizmlərə təsiri. Radioaktiv çirklənmələr və onların təsnifatı (təbii və antropogen). Radioaktiv tullantılar, onların mənbəyi və insana, ətraf mühitə zərərli təsiri. Sənaye və məişət bərk tullantıları və onların utilizasiyası. İstilik energetika sənayesi və onun xarakterik çirkləndiriciləri. Neft və digər sənaye tullantıları ilə çirklənmə və onlarla mübarizə üsulları.

Hidrosferin ekologiyası. Hidrosferin əsas xarakteristikası, onun sərhədləri, tərkibi, ekoloji xüsusiyyətləri və problemləri. Şirin su ehtiyatları. Su ehtiyatlarından istifadənin tənzimlənməsi və keyfiyyətinə nəzarət. Dünyada və Azərbaycanda su çatışmazlığı problemləri. Su hövzələrinin və dünya okeanının üzvi və qeyri-üzvi maddələrlə çirklənməsi. Tullantı suları və onların əsas xarakteristikası. Tullantı sularının təmizlənmə metodları (mexaniki, kimyəvi, fiziki - kimyəvi və bioloji təmizlənmə metodları).

Sosial ekologiya. Sosial ekologiyanın müasir qanunauyğunluqları. Müasir dövrdə əhali artımı və urbanizasiya dövründə ekoloji problemlər. Urbanizasiyanın ekoloji aspektləri. Şəhərlərin çirklənməsinin ekoloji qiymətləndirilməsi və onların idarə edilməsi yolları. Nəqliyyat və ətraf mühit. İnsan biososial varlıq kimi, onun təbiətə təsiri və ondan asılılığı. İnsanın əraziyə adaptasiyası. Stress və onun nəticələri. Sosium. Yaş piramidası. Tomas Maltusun əhali sayının artımı nəzəriyyəsi. İnsanın ekosistemdə rolu və yeri. Ətraf mühitin mühafizəsi işində beynəlxalq əməkdaşlıq.

Təbiətdən istifadənin maddi-texniki, iqtisadi və ekoloji əsasları. Təbiətdən istifadənin qanunauyğunluqları və prinsipləri. Təbiətdən istifadənin idarə edilməsi. Təbiətdən səmərəli istifadə. Alternativ enerji mənbələri (günəş, külək, qabarma, çəkilmə, geotermal, bioenerji). Bərpa olunan ehtiyatlar (tam və şərti bərpa olunanlar). Bərpa olunmayan təbii ehtiyatlar (geofiziki ehtiyatlar, geotermal enerji, hidroenerji, külək enerjisi, istilik enerjisi, Günəş enerjisi, mineral ehtiyatlar). Tullantısız və az tullantılı istehsalat və ona qoyulan tələbatlar. Tullantısız istehsalatın yaradılmasının əsas prinsipləri (xammalın kompleks istifadəsi, yeni prinsipial texnologiyaların yaradılması və təkmilləşdirilməsi, qapalı su və qaz tsikllərinin yaradılması, müəssisələrin kooperasiyası və ərazi istehsal komplekslərinin yaradılması). Ekoloji menecment və auditin qarşısında qoyulan tələblər. Ekoloji auditin təşkili. Ekoloji lizinq. Ekoloji sığorta və onun əhəmiyyəti. Təbii ehtiyatların ekoloji-iqtisadi problemləri. Təbii mühitin hüquqi qorunması. Azərbaycan Respublikasının sərvətlərindən səmərəli istifadənin ekoloji vəziyyəti. Ətraf mühitin mühafizəsində regional və beynəlxalq əməkdaşlıq və onun əhəmiyyəti. Davamlı inkişaf konsepsiyası.

Ekoloji ekspertiza və layihələndirmə. Layihənin texniki-iqtisadi və ekoloji əsaslandırılması. Ekoloji ekspertizanın hüquqi-normativ əsasları, prinsipləri və mərhələləri. Dövlət ekoloji ekspertizası və onun yekun rəyi.

Ekoloji monitorinq. Monitorinqin təşkili və strukturu. Ekoloji monitorinqin tipləri, səviyyələri və növlərinin təsnifatı (çirklənmə miqyasına və müşahidə obyektinə görə). Atmosferin, su və torpağın monitorinqinə nəzarət metodları. Monitorinqin obyekti, təyin olunacaq parametrləri və reallaşdırılma vasitələri. Ətraf mühitin keyfiyyətinə nəzarət sistemləri. Biosferin qlobal monitorinqi – müasir beynəlxalq müşahidə proqramları. Ətraf mühitin monitorinq sistemləri və müşahidə mərhələsinin təşkili. Qlobal, lokal və impakt monitorinq. Biosferin monitorinqi. Azərbaycanın Milli Ekoloji Monitorinq sistemi. Biomonitorinq ekoloji monitorinqin tərkib hissəsi kimi. Bioindikasiyanın formaları. Bioindikator orqanizmlər. Bitki və heyvan orqanizmləri vasitəsi ilə ətraf mühitin keyfiyyətinin qiymətləndirilməsi. Aerokosmik tədqiqat metodları.

## ƏDƏBİYYAT

2. Abdullayev R.B. Biocoğrafiya. Bakı, 2005.

3. “Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017–2020-ci illər üçün Milli Strategiya”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://president.az/articles/21261
4. Əliyev F., Bədələov A., Hüseynov E. və b. Ekologiya. Bakı: Elm, 2012.
6. Əhmədov Ş., Məmmədova Ş. Ekoloji monitorinq, Bakı, 2012.
8. Əzizov A.M. Ekologiya. Dərslik. Bakı, 2007.
9. Əzizov A.M. Təbiətdən istifadənin iqtisadiyyatı və proqnozlaşdırılması. Dərs vəsaiti. Bakı, 2014.
10. Əzizov A.M. Tətbiqi ekologiyanın əsasları. Dərs vəsaiti. Bakı, 2014.
11. Göyçaylı Ş.Y., İsmayılov T.Ə. Təbiətdən istifadənin iqtisadi və ekoloji əsasları. Bakı, 2006.
12. Göyçaylı Ş.Y., Mikayılov N.K., Abdullayev R.B. və b. Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə. Bakı, 1996.
13. Göyçaylı Ş.Y. Coğrafi ekologiyanın əsasları. Bakı, 2010.
14. Göyçaylı Ş.Y., Xəlilov T.A., İbrahimov T.O. Biosferin mühafizəsi. Bakı, 2018.
15. Xəlilov T.A., Zeynalova M.Ə. Qlobal ekoloji problemlər. Bakı, 2014.
16. Xəlilov T.A. Ekologiya və ətraf mühitin mühafizəsinin əsasları. Bakı, 2009.
17. Məmmədov Ə.Ə. və b. Ətraf mühitin monitorinqi. Bakı: Adiloğlu, 2005.
18. Məmmədov Q., Xəlilov M. Ekologiya və ətraf mühitin mühafizəsi. Bakı: Elm, 2005
19. Məmmədov Q., Xəlilov M. Ekologiya, ətraf mühit və insan. Bakı: Elm, 2006.
20. Salmanov M. Tətbiqi ekologiyanın əsasları. Bakı, 1993.
21. Səlimova N.Ə., Sultanova F.M. Ekologiya. Bakı, 2010.
22. Səlimova N.Ə., Sultanova F.M., Babayev Ə.İ. Sənaye müəssisələrinin zərərli tullantılarından ətraf mühitin mühafizəsi. Bakı, 2006.
23. Sultan-zadə F.V. Biomüxtəliflik və onun qorunması. Ali məktəblər üçün dərslik. Bakı: Çaşıoğlu, 2015.
24. Биологический контроль окружающей среды: биоиндикация и биотестирование : учеб. пособие для студ. высш. учеб.заведений ; под ред. О. П. Мелеховой и Е. И. Егоровой. М .: Издательский центр «Академия», 2007.
25. Гаджиева С.Р., Н.Т.Шамилов и др. Роль химических элементов в биосфере. Баку, 2016.
26. Гаджиева С.Р., Ф.Э.Гусейнов. Экологическая химия. Германия, 2018.
27. Жукова А.А., Мастицкий С.Э. Биоиндикация качества природной среды: пособие. Минск, БГУ, 2014.
28. Израэль Ю.А. Экология и контроль состояния природной среды. М., 1984.
29. Коробкин В.И. и др. Экология. Учебник для вузов. М., 2006.
30. Лященко О.А. Биоиндикация и биотестирование в охране окружающей среды: учебное пособие. СПбГТУРП-СПб, 2012.
31. Мариченко А.В. Экология. Учеб.пособие. М.: Торговая корпорация «Дашков и К$^0$», 2006.
32. Одум Ю.П. Экология. М.: Мир, 1986.
33. Панин Г.Н., Мамедов Р.М., Митрофанов И.В. Современное состояние Каспийского моря. М.: Наука, 2005.
34. Передельский Л.В., Коробкин В.И., Приходченко О.Е. Экология. М.: ТК Велби/Проспект, 2007.
35. Савенко В.С.Радиоэкология. Мн.: Дизайн ПРО, 1997.
36. Салманов М. Экология Каспийского моря. Баку, 2003.

# Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi

## FÖVQƏLADƏ HALLAR VƏ ONLARIN TƏHLÜKƏLI FAKTORLARI

**Fövqəladə hallar haqqında anlayış.**

Təhlükə və fövqəladə halların təhlükəli amilləri haqqında anlayış. Təhlükələrin yaranma mənbələri, səbəbləri və təsnifatı.

Fövqəladə hallar (FH-lar) və onların yaranma səbəbləri. FH-ların inkişafı mərhələləri. Fövqəladə halların kriteriyaları. FH-ların münaqişə xarakterinə, yaranma səbəbinə, yayılma miqyasına, gözlənilməzlik dərəcəsinə, yayılma sürətinə, sahə mənsubiyyətinə, təsir müddətinə, nəticələrinin ağırlığına, qarşısının alınması imkanına və yaranma xarakterinə görə təsnifatı.

**Texnogen xarakterli fövqəladə hallar.**

Texnogen xarakterli fövqəladə hallar, qəza və fəlakətlər haqqında anlayış. Texnogen xarakterli fövqəladə halların yaranmasının əsas səbəbləri. Texnogen xarakterli fövqəladə halların təsnifatı.

Radiasiya təhlükəli obyektlər və onlarda baş verən qəzaların səbəbləri. Radiasiya qəzaları və onların təsnifatı. Potensial radiasiya təhlükəsinə görə radiasiya təhlükəli obyektlərin kateqoriyaları. Radioaktiv maddələrin yarımparçalanma dövrü və qatılığı. Aktivlik və onun ölçü vahidləri. Radioaktiv maddələrin ətraf mühitə yayılması (çıxması) təhlükəsi olan qəzalar.

İonlaşdırıcı şüalar. Udulan, ekspozisiya, ekvivalent və effektiv şüalanma dozaları. Udulan, ekspozisiya və ekvivalent şüalanmanın doza gücü. İonlaşdırıcı şüalanmanın bioloji təsiri. İonlaşdırıcı şüalanmanın insanlara təsir yolları. Radiasiya yanıqları. Şüalanmanın təsirinə toxumaların həssaslığı. İonlaşdırıcı şüalanmanın (radioaktiv zəhərlənmənin) insan orqanizminə təsir xüsusiyyətləri. Şüa xəstəliyi. Şüa xəstəliyinin inkişaf mərhələləri. Ekstremal şəraitdə şüalanma müddətindən asılı olaraq insanların əmək qabiliyyətini aşağı salmayan buraxıla bilən cəmi şualanma dozaları. Sülh dövrü üçün bir il ərzində buraxıla bilən şüalanma dozasının hədd qiymətləri. Respublikamızda əhali üçün orta illik yol verilən şüalanma dozası.

AES qəzaları, onların təsnifatı, başvermə səbəbləri. Radiasiya təhlükəli obyektlərin ətrafında yaradılan sanitar mühafizə və müşahidə zonaları. AES qəzası nəticəsində radioaktiv zəhərlənməyə məruz qalmış ərazinin əvvəlcədən təhlükə dərəcəsinə görə zonalara bölünməsi. Radiasiya şəraiti stabilləşdikdən sonra əhalinin mühafizəsi məqsədilə radioaktiv zəhərlənməyə məruz qalmış ərazinin zonalara bölünməsi. AES qəzası nəticəsində yaranan radioaktiv zəhərlənmənin nüvə sursatlarının partlayışında yaranan radioaktiv zəhərlənmədən fərqlənmə xüsusiyyətləri. Radioaktiv zəhərlənməyə məruz qalmış ərazinin zonalara bölünməsi və onların xarakteristikası. Vaxtdan asılı olaraq radiasiya səviyyəsinin azalması. AES qəzası nəticəsində radioaktiv zəhərlənməyə məruz qalmış ərazidə fəaliyyət göstərərkən udulan şüalanma dozasının hesablanması.

Kimyəvi təhlükəli obyektlər və onların təsnifatı. Kimyəvi qəzalar və onların təsnifatı. Kimyəvi təhlükəli maddələr (KTM-lər) və onların xüsusiyyətləri. Toksodoza haqqında anlayış. KTM-lərin təsnifatı. Qəza-kimyəvi təhlükəli maddələrin (QKTM-lərin) dağılması nəticəsində yaranan kimyəvi şəraitin qiymətləndirilməsi üçün ilkin verilənlər və qiymətləndirmə ardıcıllığı. Atmosferin şaquli dayanıqlıq dərəcəsi. Termodinamik meyarın təyin edilməsi. Zəhərlənmə zonasının miqyasının təyin edilməsi. QKTM-in yayılma sahəsindən buxarlanma müddətinin təyin edilməsi. QKTM dağılmasında zəhərlənmə zonasının xəritədə (sxemdə) göstərilməsi. Zəhərli hava buludunun ön cəbhəsinin obyektə çatma vaxtının təyin edilməsi. QKTM-lərin dağılması nəticəsində mümkün ola biləcək insan itkisinin hesablanması.

Partlayış-yanğın təhlükəli obyektlər. Partlayış və partlayışlı yanma. Partlayışların və yanğınların başvermə səbəbləri. Partlayıcı birləşmələrin və qarışıqların fiziki hallarına görə növləri. Deflaqrasiyalı və detonasiyalı yanma rejimləri. Partlayış-yanğın təhlükəli qarışıqların alışması üçün ilkin şərtlər. Aşağı və yuxarı qatılıq hədləri. Stexiometrik tərkibli qarışığın qatılığı. Partlayışlı yanmada obyektdə yanğının baş verməsi. Partlayışlı yanmanın əsas zədələyici amilləri. Yanma və istilik şüalanması haqqında anlayış. Homogen və heterogen yanmalar. Yanar maddələrin həssaslıq dərəcəsinə görə təsnifatı. Materialların növünə görə yanğınların siniflərə bölünməsi. Yanğınların zədələyici amilləri və əsas parametrləri. İstilik şüalarının insanlara təsiri. «Odlu kürə», onun yaranması və insanlara təsiri.

Qaz-hava qarışığı (QHQ) partlayışı, onun zədələyici təsiri və əsas xüsusiyyətləri. QHQ partlayışında yaranan hava zərbə dalğasının əsas parametrləri. Qırıntı və qəlpələrin təsirini xarakterizə edən parametrlər. QHQ partlayışına təsir göstərən amillər. QHQ partlayışında yaranan əsas zonalar. Detonasiya dalğası və partlayış məhsullarının təsir zonasının əsas parametrləri, onların hesablanması. Hava zərbə dalğasının təsir zonası, onun yarımzonalara bölünməsi. Hava zərbə dalğasının təsir zonasında izafi təzyiqin qiymətinin hesablanması. Dağılma zonaları.

Buxar-qaz-hava qarışığının (BQHQ) partlayışı və onun baş verməsi üçün ilkin şərtlər. Açıq yerlərdə baş verən BQHQ parlayışında yaranan hava zərbə dalğasının izafi təzyiqinin qiymətinin və dağılma zonalarının radiuslarının hesablanması. Qapalı yerlərdə baş verən BQHQ partlayışında detonasiya zonasının radiusunun və hava zərbə dalğasının təsir zonasında izafi təzyiqin qiymətinin hesablanması.

Toz-hava qarışığı (THQ) partlayışları. Sənaye tozlarının partlayış təhlükəliliyinə görə siniflərə bölünməsi. Partlayış-yanğın təhlükəliliyinə görə THQ partlayışlarını xarakterizə edən əsas göstəricilər. Qapalı yerdə baş verən THQ partlayışında detonasiya zonasının radiusunun və hava zərbə dalğasının izafi təzyiqinin qiymətinin hesablanması. Açıq yerdə baş verən THQ partlayışının hava zərbə dalğasının təsir zonasında izafi təzyiqin qiymətinin hesablanması.

Kondensasiya olunmuş partlayıcı maddələr və onların qruplara bölünməsi. Partlayıcı maddələrin brizantlılıq və fuqaslılıq xassəsi. Kondensasiya olunmuş maddələrin partlayışında yaranan hava zərbə dalğasının izafi təzyiqinin qiymətinin müxtəlif məsafələrdə hesablanması.

Yayılmış yanar mayelərin yanmasında istilik təsirinin qiymətləndirilməsi. Yayılmış yanar mayelərin yanmasında istilik mənbəyindən istənilən məsafədə istilik şüalanmasının sıxlığınının hesablanması. İnsanlar, bina və qurğular üçün təhlükəli istilik şüalanması zonasının dərinliyinin hesablanması. Odlu kürənin istilik şüalanmasının təsirinin hesablanması. Odlu kürənin epimərkəzindən istənlən məsafədə istilik şüalanması axınının qiymətinin hesablanması.

Hidrotexniki qurğular. Təbii və basqı növlü hidrotexniki qurğular. Hidrotexniki qovşaqlar və onların növləri. Hidrotexniki təhlükəli obyektlərin dağılma səbəbləri. Hidrodinamik qəzalar. Hidrodinamik qəzalar nəticəsində mümkün ola biləcək şəraitin əsas göstəriciləri. Fəlakətli subasmanı xarakterizə edən əsas göstəricilər. Təhlükə dərəcəsinə görə subasma ərazisinin zonalara bölünməsi. Yuyucu dalğanın əsas parametrləri və onların təyin edilməsi. Bənddən olan məsafədən asılı olaraq yuyucu dalğanın təsir zonasının sahələrə bölünməsi. Yuyucu dalğanın təsiri nəticəsində yaranan material itkinin miqdarından asılı olaraq obyektlərin dağılma dərəcələri. Hidrodinamiki qəzaların vurduğu zərəri təyin edən əsas göstəricilər. Hidrodinamiki qəzaların əsas nəticələri.

**Təbii xarakterli fövqəladə hallar**

Təhlükəli təbii hadisələr və onların təsnifatı. Təhlükəli təbii hadisələrin təsnifatı. Planetimizdə qəflətən baş verən endogen və ekzogen proseslərin təbii hadisələrə və proseslərə təsiri. Litosferdə baş verən hadisələr. Atmosfer hadisələri. Hidrosferdə baş verən hadisələr. Bioloji hadisələr.

Təbii xarakterli fövqəladə halların təsnifatı.

Geoloji xarakterli fövqəladə hallar.

Zəlzələ. Zəlzələlərin yaranma səbəbinə görə təsnifatı. Təbii xarakterli zəlzələlərin növləri. Tektonik zəlzələlər və onların yaranma səbəbləri. Zəlzələnin əsas parametrləri. Zəlzələ ocağı. Zəlzələlərin ocağının dərinliyinə görə təsnifatı. Zəlzələnin intensivliyi və maqnitudası. Zəlzələnin enerjisi ilə maqnitudası, intensivliyi ilə maqnitudası arasındakı asılılıq. Zəlzələnin təhlükə dərəcəsi və gücü. Zəlzələlərin güclərinə görə təsnifatı. Zəlzələnin gücünü ölçmək üçün tətbiq olunan şkalalar. Zəlzələdə mümkün ola bilən əsas təhlükələr. Zəlzələlərin planetimizdə yayılması. Azərbaycanda zəlzələlər.

Vulkan püskürmələri, onların yaranması, quruluşu və təsnifatı. Vulkanik püskürmələrdə baş verən proseslər. Vulkan püskürməsinin məhsulları. Vulkanların fəaliyyətlərinə və vulkan aparatlarının quruluşuna (formalarına) görə təsnifatı. Vulkan püskürmələrinin növləri, zədələyici amilləri, məhsulları və coğrafiyası.

Geoloji təhlükəli fövqəladə hallar. Geoloji təhlükəli fövqəladə halların təhlükəli amilləri.

Sürüşmələr və onların yaranma səbəbləri. Sürüşmə prosesinə təsir edən amillər. Yamacların sürüşmə dayanıqlığı. Sürüşmələrin təsnifatı. Sürüşmələrin zədələyici təsiri. Azərbaycanda sürüşmələr.

Qar axınları və onların yaranma səbəbləri. Qar axınının yaranması üçün optimal şərait. Qar axınlarının növləri. Qar axınlarını xarakterizə edən parametrlər. Qar axınlarının zədələyici təsiri.

Tozlu tufanlar və onların yaranma səbəbləri. Görmə məsafəsinə görə tozlu tufanların növləri. Tozlu tufanların zədələyici təsiri.

Təbii uçqunlar və onların yaranma səbəbləri. Uçqunları xarakterizə edən parametrlər. Uçqunların həcmlərinə və miqyasına görə təsnifatı. Uçqunların zədələyici amilləri.

Təbii yanğınlar. Təbii yanğınların növləri. Meşə yanğınları və onların başvermə səbəbləri. Meşə yanğınlarının baş verməsi və yayılması üçün şərtlər. Meşə yanğınlarını xarakterizə edən əsas parametrlər. Meşə yanğınlarının zədələyici amilləri və onların uzunmüddətli təsirində insanlar üçün kritik qiymətləri. Meşə yanğınlarının yanma xarakterinə və meşənin tərkibinə, yanma intensivliyinə görə təsnifatı. Aşağı, yuxarı və yeraltı meşə yanğınları, onların növləri. Dəyişkən və sabit yanğınlar. Yeraltı yanğınların yanma dərinliyinə görə təsnifatı. Yanğının xətti yayılma sürəti.

Torf yanğınları və onların başvermə səbəbləri. Torf yanğınlarının xarakterik xüsusiyyətləri. Torf yanğınlarının zədələyici təsiri.

Çöl yanğınları və onların başvermə səbəbləri. Çöl yanğınlarının yayılma sürəti.

Meteoroloji və aqrometeoroloji xarakterli fövqəladə hallar.

Meteoroloji və aqrometeoroloji xarakterli fövqəladə halların yaranmasına səbəb olan təhlükəli hadisələr. Külək və onu xarakterizə edən əsas parametrlər. Küləyin təzyiqinin hesablanması. Bofort şkalası.

Qasırğalar və onların yaranma mexanizmi. Qasırğanın quruluşu, əsas komponentləri. Qasırğanın müxtəlif adları. Qasırğaların (siklonların) yaranma zonası. Tropik siklonların inkişaf mərhələləri. Güclərinə görə tropik siklonların qruplara bölünməsi. Qasırğanın formalaşması üçün şərtlər (şərait). Qasırğanın əsas komponentləri. Qasırğanın əsas zədələyici amilləri. Saffir-Simpson şkalası. Qasırğanın zədələyici təsiri. Fırtına və onun növləri. Tufan və onun yaranması. Yaranma səbəbinə görə tufanların növləri. Tufanların xarakteristikası.

İldırım və onun yaranması. İldırımların xarakteristikası və zədələyici təsiri. Kürəşəkilli ildırım və onun

xarakteristikası. Dolu və onun yaranma mexanizmi. Dolunun zədələyici təsiri.

Burağan və onun yaranma mexanizmi. Burağanların küləyin sürətinə, vurduqları zərərlərə, güclərinə və quruluşlarına görə təsnifatı. Fudzito-Pirson şkalası. Burağanların qruplara bölünməsi. Burağanların zədələyici təsiri.

Çovğun və onun yaranması. Boran. Çovğunun növləri. Aparılan qarın miqdarına, küləyin sürətinə görə çovğunlarin təsnifatı. Çovğunların zədələyici təsiri.

Hidroloji xarakterli fövqəladə hallar, onların təhlükəli amilləri. Hidroloji təhlükəli dəniz hadisələri və hidrogeoloji təhlükəli hadisələr.

Sunami və onun yaranması. Sunamilərin əsas parametrləri və onların xarakteristikası. Sunaminin intensivlik şkalası. Sunami əlamətləri.

Subasmalar və onların yaranma səbəbləri. Subasmaların yaranma səbəbinə və davamiyyət müddətinə görə təsnifatı. Subasmaların suyun qalxma hündürlüyünə, su altında qalmış ərazinin sahəsinə, vurulmuş zərərlərin miqdarına görə kateqoriyalara bölünməsi. Fəlakətli subasma zonaları. Subasmaların zədələyici amilləri və əsas parametrləri. Subasmaların zədələyici təsiri. Azərbaycan ərazisində subasmalar.

Sellər, onların yaranma səbəbləri. Sellərin yaranma səbəbinə, tərkibinə və güclərinə görə təsnifatı. Sel axınının hündürlüyü, sürəti və davamiyyət müddəti. Sel təhlükəli ərazi. Sel axınının hərəkəti və transformasiyası (halının dəyişməsi) prosesinin əsas xarakteristikaları. Sellərin zədələyici təsiri. Azərbaycanda sellər.

Bioloji xarakterli fövqəladə hallar və onların yaranma səbəbləri. Yoluxucu xəstəlik törədiciləri. Patogen mikroblar. Bakteriyalar, viruslar, rikketsiyalar, göbələklər, mikroblu toksinlər və onların qısa xarakteristikası.

İnsanların yoluxucu xəstəlikləri və onların təsnifatı. Antroponozlar, antropozoonozlar, epidemiya, epidemiya ocağı, epidemik proses, epidemik və ekzotik xəstələnmə, pandemiya. İnsanlar üçün xas olan yoluxucu xəstəliklər.

Heyvanların yoluxucu xəstəlikləri. Epizootiya. Epizootoloji təsnifata görə heyvanların yoluxucu xəstəliklərinin qruplara bölünməsi. Epizootik proses, epizootik ocaq, enzootiya və panzootiya.

Bitkilərin yoluxucu xəstəlikləri. Bitki xəstəliyi. Fitopatogen. Yoluxucu bitki xəstəliklərinin təsnifatı. Epifitotiya, panfitotiya.

**Hərbi xarakterli fövqəladə hallar.**

Nüvə silahı və onun növləri. Nüvə sursatlarının gücü. Nüvə sursatlarının güclərinə görə təsnifatı. Nüvə partlayışının növləri. Nüvə partlayışının əsas zədələyici amilləri. Hava zərbə dalğası. Hava zərbə dalğasının əsas parametrləri. Oxşarlıq qanunu. Hava zərbə dalğasının insanlara və obyektlərə təsiri. İşıq şüalanması. İşıq impulsu və onun hesablanması. İşıq şüalanmasının insanlara və obyektlərə təsiri. Nüfuzedici radiasiya. Nüfuzedici radiasiyanın insanlara və obyektlərə təsiri. Nüvə partlayışında yer səthinin radioaktiv zəhərlənməsi və radioaktiv zəhərlənmə mənbələri. Radioaktiv zəhərlənmə zonaları və onların xarakteristikası. Radiasiya səviyyəsinin vaxtdan asılı olaraq azalması. Nüvə partlayışı nəticəsində yaranmış radioaktiv zəhərlənməyə məruz qalmış ərazidə fəaliyyət göstərərkən udulan şüalanma dozasının hesablanması. Elektromaqnit impulsu. Elektromaqnit impulsunun yaranması. Elektromaqnit impulsunun obyektlərə təsiri. Neytron sursatları və onların zədələyici amilləri. Neytron sursatının partlayışının əsas xüsusiyyətləri. Nüvə zədələnmə ocağı. Dağılma zonaları və onların xarakteristikası. Yanğın zonaları və onların xarakteristikası. Odlu fırtına və onun yaranması.

Kimyəvi silah. Zəhərləyici maddələr və onların təsnifatı. Əsəb-iflic təsirli, dəridə yaraaçan, ümumzəhərli, boğucu, psixokimyəvi və qıcıqlandırıcı təsirli zəhərləyici maddələr, onların qısa xarakteristikası. Binar sursatlar. Kimyəvi zəhərlənmə zonası və zədələnmə ocağı.

Bakterioloji silah haqqında anlayış. Hərbi məqsədlər üçün bakterioloji (bioloji) vəsaitlər kimi istifadə olunan xəstəlik törədiciləri. Bakterioloji (bioloji) zədələnmə ocağı. Karantin və observasiya.

Adi qırğın vasitələri və onların növləri. Yandırıcı silah. Yandırıcı maddələr və qarışıqlar, onların xarakteristikası. Qəlpəli sursatlar, fuqaslar, kumulyativ, betondağıdıcı və həcmi partlayış sursatları, onların qısa xarakteristikası, zədələyici amilləri.

**Sosial xarakterli fövqəladə hallar.** Sosial təhlükə. Sosial təhlükələrin təsnifatı. Sosial təhlükələrin yaranma səbəbləri. Sosial fəlakət. Sosial xarakterli fövqəladə hallar və onların yaranma səbəbləri. Sosial xarakterli fövqəladə halların təsnifatı. Sosial FH-ların əsas risk amilləri. Sosial xarakterli FH-ların yaranmasına səbəb olan risk amillərinin təsir dövrünün mərhələləri.

**Ekoloji xarakterli fövqəladə hallar.**

Ekoloji xarakterli fövqəladə hallar və onların təsnifatı.

Quruda (yerüstü və yeraltı qatlarda, landşaftda) hal dəyişmələri ilə əlaqədar olan fövqəladə hallar və onların təsnifatı. Faydalı qazıntıların çıxarılması, torpağın ağır metallarla, radioaktiv maddələrlə çirklənməsi, meşələrin məhv edilməsi, yamacların intensiv suvarılması, otlaqların fasiləsiz istifadəsi, səhralaşma, torpağın intensiv deqradasiyası və eroziyası nəticəsində yaranan fövqəladə hallar. Torpağın intensiv deqradasiyasının əsas səbəbləri.

Atmosferin tərkibinin və xassələrinin dəyişməsi ilə əlaqədar olan fövqəladə hallar, onların təsnifatı. Parnik (istilik) effekti, smoq (fotokimyəvi duman), ozon qatının azalması (dağılması), biosferin yerətrafı örtüyündə oksigenin miqdarının azalması, səs-küyün artması, turşulu yağışlar, atmosferdə tozun, tüstünün, dumanın artması nəticəsində yaranan fövqəladə hallar.

Hidrosferin vəziyyətinin dəyişməsi (su mühitinin azalması və çirklənməsi) ilə əlaqədar olan fövqəladə hallar. İçməli

su ehtiyatının azalması və suyun çirklənməsi səbəbləri.

Biosferin vəziyyətinin dəyişməsi ilə əlaqədar olan fövqəladə hallar. Geniş sahələrdə bitki örtüyünün, heyvan və bitki növlərinin məhv olması, biosferin bərpaedici qabiliyyətinin kəskin azalması səbəbləri.

## ƏDƏBİYYAT


1. Qasımov C.N., Abdullayeva N.Z. Fövqəladə halların təhlükəli amilləri. Bakı, 2017.
2. Qasımov C.N. Mülki müdafiə. Bakı, 2012.
3. Ocaqov H. O., Hacıyev A. İ. Sabitliyi pozan amillər və onların nəticələrinin xarakteristikası. Bakı, 2003.
4. Ocaqov H. O. Fövqəladə hallarda həyat fəaliyyətinin təhlükəsizliyi. Bakı, 2010.
5. Баринов А. В., Седнев В. А., Шевчук А. Б. и др. Опасные природные процессы. Москва, 2009.
6. Журавлев П. и др. Зашита населений и территорий в чрезвычайных ситуациях. Москва, 1999.
7. Михайлов Л.А., Соломин В.П. Чрезвычайные ситуации природного, техногенного и социального характера и защита от них. Москва, 2009.
8. Юртишкин В.И. Чрезвычайные ситуации. Москва, 2008.

# Dəniz texnikası və texnologiya mühəndisliyi, Dəniz texnikası və avadanlıqlarının istismarı mühəndisliyi

### GƏMİ KONSTRUKSİYASI

Gəminin quruluşu. Gəmi quruluşunun ümumi sxemi. Gəmilərin təsnifatı. Təsnifat cəmiyyətləri. Dəniz Registri. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin (AXDG) nəqliyyat donanması. AXDG gəmilərinə texniki nəzarət. Beynəlxalq Dəniz Təşkilatı – IMO. Beynəlxalq konvensiyalar. Gəmilərin əsas tipləri.

Gəminin möhkəmliyi haqqında ümumi anlayış. Gəminin ümumi (uzununa) möhkəmliyi. Gəminin yerli (eninə) möhkəmliyi. Çəki epürü. Saxlama qüvvələri epürü. Möhkəmliyin normalaşdırılması. Gərginlik konsentrasiyası və onun azaldılması tədbirləri.

Gəmi gövdəsinin konstruksiyası. Gövdə konstruksiyaları. Gövdə materialının seçilməsi. Gövdə konstruksiyalarının birləşmə üsulları. Gövdənin xarici örtüyü və onun açılışı. Göyərtə döşəməsi və kominqslər. Gövdənin yığım sistemləri. Arakəsmələr.

Qurtaracaqlarda və maşın bölməsində korpusun gücləndirilməsi. Baş mühərriklərin özülləri. Faydalı əşyalar. Sukeçirməyən bağlamalar – qapılar, illüminatorlar, lyuklar və s. Üst tikililərin konstruksiyası. Təsnifat cəmiyyətlərinin son tələbləri. İkiqat gövdə – ikiqat dib və ikiqat bort.

Sükan quruluşu. Lövbər və yanalma (şvartov) quruluşları. Yedək quruluşu. Xilasetmə quruluşu. Yük quruluşu.

Gəmi sistemləri. Tryum sistemləri. Ballast sistemləri. Su təchizatı və sanitar sistemləri. Yanğından mühafizə sistemləri. Süni iqlim sistemləri. Ölçmə sistemi, siqnalizasiya və rabitə sistemi, mexanizmlərə xidmət sistemi, mexanizmlərin idarəetmə sistemi. Xüsusi sistemlər: yük, təmizləmə və qızdırma sistemləri.

### ƏDƏBİYYAT

1. Bağırov M.S., Qaraqaşlı N.Q. Gəminin quruluşu və nəzəriyyəsi. Bakı, 2000.
2. Протопопов В.Б. Конструкция корпуса судов. Ленинград: Судостроение, 1984.
3. Правила классификации и постройки морских судов: Т.1. Москва, 2000.
4. Лесюков И.А. Теория и устройство судов. Москва: Транспорт, 1992.

### GƏMİ GÜC QURĞULARI

Gəmi daxiliyanma mühərriklərinin təsnifatı, markalanması və əsas parametrləri. İki və dörd taktlı mühərriklərin iş prinsipi, indikator diaqramları. Mühərriklərin ümumi konstruksiyası, onların tərkib hissələri və elementləri (silindr, qapaq, stanina, fundament raması, porşen, şatun, dirsəkli val, qazpaylayıcı elementlər). Mühərrikin sıxılmış hava sistemi. Mühərrikin yanacaq və yağlama sistemi. Mühərrikin soyutma sistemi.

Mühərrikin işə salınması və işlədiyi müddətdə ona texniki xidmətin göstərilməsi, onun saxlanması və işdən çıxarılması. Gəmi val xəttinin quruluşu.

Gəmi energetik qurğularında buxar generatorlarının təyinatı, iş prinsipi və tətbiq olunma sahələri. Buxar generatorlarının əsas göstəriciləri və təsnifatı. Buxar generatorlarının ümumi quruluşu. Köməkçi və utilizasiya buxar generatorları. Armatura və nəzarət – ölçü cihazları.

Buxar turbomaşınlarının konstruksiyası və iş prinsipi. Gəmi buxar turbinlərinin sxematik quruluşu və təsnifatı. Qaz turbin qurğularının sxematik quruluşu və iş prinsipi.

Gəmi nasoslarının siniflərə bölünməsi. Porşenli və rotorlu nasoslar. Pərli nasoslar. Şırnaqlı nasoslar. Hava kompressorları və hava ventilyatorları. Mərkəzdənqaçma separatorlar və süzgəclər. İstilikötürmə aparatları və su şirinləşdirici qurğular. Sükan maşınları. Lövbər və yanalma mexanizmləri. MARPOL 73/78-Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında beynəlxalq konvensiyasının ümumi qaydaları.

### ƏDƏBİYYAT

1. Возницкий И.И., Михеев Е.Г. Судовые дизельные установки. Москва: Транспорт, 1985.
2. Верете А.Г., Дельвинг А.К. Судовые паровые и газовые энергетические установки. Москва: Транспорт, 1990.
3. Возницкий И.В., Михеев Е.Г. Судовые двигатели внутреннего сгорания /Учебник/ Москва: Транспорт, 1979.
4. Волков Д.И., Сударев Б.В. Судовые паровые котлы. Ленинград: Судостроение, 1988.
5. Дейнего Ю.Г. Технический минимум для судовых механиков. Одесса: Батискаф, 2007.

6. Денисенко Н.И., Костылев И.И. Судовые котельные установки /Учебник/ Санкт-Петербург: Элмор, 2005.
7. Держилов Ф.С., Ботштейн Б. Х., Харитонов В. Д. Технология судоремонта. Москва: Транспорт, 1975.
8. Колесников О.Г. Судовые вспомогательные механизмы и системы. Учебное пособие. Москва: Транспорт, 1977.
9. Ларинов Н.О. Беляев И.Г. Вспомогательные пароэнергетические установки теплоходов. Москва: Транспорт, 1982.
10. Лысенко В.К., Лубочкин Б.И. Судовые паровые котлы. Устройство и эксплуатация /Учебник/ Москва: Транспорт, 1975.
11. Правила технической эксплуатации судовых технических средств РД 31.21.30-83. Москва: Мортехинформреклама, 1984.
12. Резчик Ю.И., Власьев А.Б. Судовые вспомогательные механизмы. Ленинград: Судостроение, 1979.
13. Сизых В.А. Судовые энергетические установки /Учебник/ Москва: Транслит, 2006.
14. Чумаченко И.И. Судовые двигатели внутреннего сгорания. Москва: Транспорт, 1967.

# Dəniz naviqasiyası mühəndisliyi, Gəmiçilik və gəmilərin hərəkətinin idarə edilməsi

## GƏMİ KONSTRUKSİYASI

Gəminin quruluşu.Gəmi quruluşunun ümumi sxemi. Gəmilərin təsnifatı. Təsnifat cəmiyyətləri. Dəniz Registri. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin (AXDG) nəqliyyat donanması. AXDG gəmilərinə texniki nəzarət. Beynəlxalq Dəniz Təşkilatı–IMO. Beynəlxalq konvensiyalar. Gəmilərin əsas tipləri.

Gəminin möhkəmliyi haqqında ümumi anlayış. Gəminin ümumi (uzununa) möhkəmliyi. Gəminin yerli (eninə) möhkəmliyi. Çəki epürü. Saxlama qüvvələri epürü. Möhkəmliyin normalaşdırılması. Gərginlik konsentrasiyası və onun azaldılması tədbirləri.

Gəmi gövdəsinin konstruksiyası.Gövdə konstruksiyaları. Gövdə materialının seçilməsi. Gövdə konstruksiyalarının birləşmə üsulları. Gövdənin xarici örtüyü və onun açılışı. Göyərtə döşəməsi və kominqslər. Gövdənin yığım sistemləri. Arakəsmələr.

Qurtaracaqlarda və maşın bölməsində korpusun gücləndirilməsi. Baş mühərriklərin özülləri. Faydalı əşyalar. Sukeçirməyən bağlamalar – qapılar, illüminatorlar, lyuklar və s. Üst tikililərin konstruksiyası. Təsnifat cəmiyyətlərinin son tələbləri. İkiqat gövdə – ikiqat dib və ikiqat bort.

Sükan quruluşu. Lövbər və yanalma (şvartov)quruluşları. Yedək quruluşu. Xilasetmə quruluşu. Yük quruluşu.

Gəmi sistemləri.Tryum sistemləri. Ballast sistemləri. Su təchizatı və sanitar sistemləri. Yanğından mühafizə sistemləri. Süni iqlim sistemləri. Ölçmə sistemi, siqnalizasiya və rabitə sistemi, mexanizmlərə xidmət sistemi, mexanizmlərin idarəetmə sistemi. Xüsusi sistemlər: yük, təmizləmə və qızdırma sistemləri.

### ƏDƏBİYYAT


1. Bağırov M.S., Qaraqaşlı N.Q. Gəminin quruluşu və nəzəriyyəsi. Bakı, 2000.
2. Протопопов В.Б. Конструкция корпуса судов. Ленинград: Судостроение, 1984.
3. Правила классификации и постройки морских судов: Т.1. Москва, 2000.
4. Лесюков И.А. Теория и устройство судов. Москва: Транспорт, 1992.


## DƏNİZDƏ HƏYAT FƏALİYYƏTİNİN TƏHLÜKƏSİZLİYİ

Dəniz üzgüçülüyünün təhlükəsizliyi. Dəniz üzgüçülüyünün təhlükəsizliyinin infrastrukturu. Dəniz üzgüçülüyünün aspektləri və onların təhlükəsizliyinin təmin olunmasında rolu. Dəniz qəza hadisələri. Gəminin yaşamasının təmin edilməsi. Gəminin batmamazlığı və yanğından mühafizə konstruktiv tədbirləri. Gəminin qəza və yanğına qarşı təchizatı. Dənizdə xilasetmə işləri. Xilasetmə işində beynəlxalq əməkdaşlıq.

Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə üzrə hazırlıq: Ümumi müddəalar. Gəmi sənədləri. Gəmi heyəti. Təhlükəsiz idarəolunma üzrə dənizçilik kompaniyasının əsas rəhbərliyi. Yük əməliyyatlarına rəhbərlik. Gəminin yaşaması uğrunda mübarizəyə dair hazırlıq. Gəmilərin təhlükəsiz idarə olunması və ətraf mühitin çirklənməsinin qarşısının alınmasına dair təlimlər.

Qəza situasiyaları, əməyin mühafizəsi və yaşamaq uğrunda mübarizə üsulları ilə bağlı funksiyalara dair tələblər. Gəmi heyəti üçün şəxsi yaşama üsulları. Şəxsi təhlükəsizlik və ictimai vəzifələr haqda gəmi heyətinin hazırlığı. Yanğına qarşı təhlükəsizlik və yanğınla mübarizə üzrə gəmi heyətinin hazırlığı. Gəmilərdə yanğınla mübarizənin təşkili. Yanğınsöndürmə vasitələrinin və qəza tədbirlərinin tətbiqi.

Gəmi heyətinin təhlükəsizlik təlimatı. İlk tibbi yardım məsələləri. Fövqəladə vəziyyətlərdə görülən tədbirlər haqqında anlayış, o cümlədən, zərərçəkənin düzgün yerləşdirilməsi. Huşun bərpası tədbirləri. Qanaxmanın saxlanılması. Şok vəziyyətindən çıxarmaq üsullarının tətbiqi. Yanıqlarda və pörtülmələrdə görülən tədbirlər, o cümlədən, elektrik cərəyanından alınmış zədələrdə ilk tibbi yardım. Xilasedici qayıqların, salların və növbətçi qayıqların konstruksiyası və onların təchizatı. "Dənizdə təhlükəli və zərərli yüklərin daşınması haqqında Beynəlxalq Kodeks" üzrə hazırlıq. Yük və sərnişin gəmilərinin kapitanları, komandir, sıravi və digər heyət üzvlərinin hazırlığı. Qeyri-mütəşəkkil insan kütləsinin idarə olunması. Qəza cədvəli, qəza təlimatı. Qəza çıxışları. Lift və eskalatorlardan istifadədə məhdudiyyətlər. Dəhliz, trap və keçidlərdə sərnişinləri idarəetmə. Gəminin layihə və istismar məhdudiyyətləri. Təhlükəli yüklər üçün zonalar. Qəza zamanı sərnişinlərlə əlaqə saxlamaq bacarığı. Neft tankeri heyətinin hazırlığı. Neft tankerlərinin quruluşu və avadanlığı. Boru kəmərləri, nasoslar. Yük tanklarının deqazasiya və inertizasiya təmizlik sistemi. Yükün xarakteristikası. Müxtəlif neft yüklərinin fiziki-kimyəvi tərkibi.

### ƏDƏBİYYAT

1. Bəşirov A.A. Gəminin idarə olunması. Bakı: Elm. 2003.
2. Azərbaycan Respublikasının Dəniz nəqliyyat gəmilərində xidmət Nizamnaməsi. Bakı, 2001.
3. Dənizdə gəmilərin toqquşmasının qarşısının alınmasına dair Beynəlxalq Qaydalar, 1972 (2004).
4. Ocaqov H.O. Fövqəlada hallarda həyat fəaliyyətinin təhlükəsizliyi /Dərslik/ Bakı: Çaşıoğlu, 2010.
5. Ocaqov H.O. Rəhbər heyətin fövqəladə hallarda fəaliyyətə və idarəetməyə hazırlanması. Bakı: Çaşıoğlu, 2002.
6. Sultanov Z.B., Abbasov E.O. Dənizdə həyat fəaliyyətinin təhlükəsizliyi /Dərs vəsaiti/ Bakı: Təhsil NPM, 2013.
7. Александров М.Н. Безопасность человека на море. Ленинград: Судостроение,1983.
8. Грузинский П.П., Хохлов П.М. Аварийно-спасательное дело и борьба за живучесть судов. Москва: Транспорт, 1977.
9. Дыба В.Г., Позолотин Л.А., ЧистяковВ.Л. Управление безопасностью судна /Учебное пособие/ Одесса: Моряк, 1997.
10. Дмитриев В.И. Обеспечение безопасности плавания /Учебное пособие/ Москва: Академкнига, 2005.
11. Международная конвенция о подготовке и дипломировании моряков и несении вахты 1978 года, с поправками (ПДМНВ-78). СПб.: ЗАО ЦНИИМФ, 2016.
12. Международная конвенция по охране человеческой жизни на море 1974 года (СОЛАС). СПб.: ЗАО ЦНИИМФ, 2015.
13. Международная конвенция по предотвращению загрязнения с судов 1973 г., измененная протоколом 1978 г. к ней, с поправками - МАРПОЛ 73/78 СПб., ЗАО ЦНИИМФ, 2008.
14. «Международный кодекс по управлению безопасностью (МКУБ) и руководства по его выполнению» АО «ЦНИИМФ»-2018г.
15. Наставление по борьбе за живучесть судна (НБЖС-89), РД 31.60.14-81. Москва: В/О Мортехинформреклама, 1983.
16. Международный морской кодекс по опасным грузам (кодекс ММОГ) , , книга 1. СПб.: ЗАО ЦНИИМФ, 2003.
17. Правила классификации и постройки судов. Ленинград: Судостроение, 1985.
18. Развозов С. Ю. Безопасность плавания /Учеб. пособие/ Часть 1. СПб.: ГМА им. адм. С.О. Макарова, 2002.
19. Сборник №1, №2 Резолюций ИМО. СПб: ЗАО ЦНИИМФ, 1993,1994.
20. Снопков В.И., Конопелько Г.И., Васильева В.Б. Безопасность мореплавания. Москва: Транспорт, 1994.
21. Страшко А.Н. Безопасность плавания /Учеб. пособие/ Часть 1. СПб.: ГМА им. С. Макарова, 2001.
22. Юдович А.Б. Предотвращение навигационных аварий морских судов. Москва: Транспорт, 1988.

# İnşaat mühəndisliyi, Nəqliyyat tikintisi mühəndisliyi

## İNŞAAT MATERİALLARI VƏ MƏMULATLARI

**İnşaat materiallarının əsas xassələri**. İnşaat materiallarının təsnifatı. İnşaat materiallarının quruluşu. İnşaat materiallarının fiziki xassələri. Ümumi fiziki xassələr: orta sıxlıq, həqiqi sıxlıq, tökmə sıxlıq, nisbi sıxlıq, məsaməlilik. İnşaat materiallarının hidrofiziki xassələri: nəmlik, hiqroskopiklik, suhopma, sukeçirmə, şaxtayadavamlılıq. İnşaat materiallarının istilik-fiziki xassələri: istilikkeçirmə, istilik tutumu, odadavamlılıq, odadayanıqlılıq. Materialların mexaniki xassələri**:** möhkəmlik, elastiklik, plastiklik, bərklik, sürtülmə, sürtülüb-yeyilmə, kövrəklik və s. Materialların kimyəvi xassələri**:** adgeziya, kristallaşma, bərkimə, istilikudma və istilikayırma, yanma və s. Materialların texnoloji xassələri: qəliblənmə, mıxlanma, quruyub-yığışma. Materialların estetik xassələri: rəngi, fakturası və s.

**Təbii daş materialları.** Dağ süxurları və minerallar. Dağ süxurlarının təsnifatı. Süxur əmələgətirən minerallar: kvars qrupu, alümosilikatlar qrupu, dəmir-maqnezial silikatları qrupu, karbonatlar və sulfatlar qrupu. Püskürülmüş süxurlar, onların növləri və inşaatda istifadəsi. Çöküntü süxurları və onların təsnifatı. Mexaniki, kimyəvi və orqanogen çöküntü süxurları, onların əsas göstəriciləri. Metamorfik süxurların təsnifatı. Metamorfik süxurların xarakteristikası. Təbii daş materiallarının çıxarılması və emalı. Ədədi daşlar, daş bloklar və but daşlarının hazırlanma və emaledilmə üsullarına görə təsnifatı. Mişar daşları, daş blokları, üzlük və döşəmə tavalarına verilən əsas tələblər. Azərbaycanın təbii daş materialları. Daş materiallarında və qurğularında aşınma prosesi**.** Daş materiallarının aşınmadan mühafizə olunması tədbirləri.

**Keramik inşaat materialları**. Keramik materialların istehsalı üçün əsas və köməkçi materiallar. Gillər, onların növləri və tərkibləri (maddi, kimyəvi, mineral, dənəvər və s.). Keramik materialların təsnifatı və istehsalının ümumi texnoloji sxemi. Adi gil kərpicinin istehsal texnologiyası, xassələri və tətbiq sahələri. Boşluqlu kərpicin istehsalı, xassələri və istifadə sahələri. Keramzit. Odadavamlı kərpic. Keramik material və məmulatların istehsalında istifadə olunan minalar (şirələr) və anqoblar. Kirəmitin tipləri, ölçüləri və xassələri. Keramik üzlük materialları. Xarici və daxili divarlar üçün üzlük keramik məmulatlar. Mozaika və xalça keramikası. Fasad üzlük tavacıqları. Keramik drenaj boruları. Sanitar-texniki keramik məmulatlar.

**İnşaat şüşəsi və tökmə daşlar**. Mineral ərintilərdən hazırlanan materiallar və məmulatlar. İnşaat şüşəsi, xammallar, hazırlanması və əsas xassələri. Pəncərə şüşə lövhələrinin istehsalı, ölçüləri və növləri. Şüşədən hazırlanan digər məmulatlar: üzlük şüşə, profilli şüşə, şüşə bloklar, uviol şüşəsi.

Daş ərintiləri, əsas xammallar, istehsalı və xassələri. Daş ərintilərindən hazırlanan məmulatlar. Sitallar və posa sitalları, istehsalı, xassələri və tətbiq sahələri.

**Meşə materialları.** Oduncaq, onun makroquruluşu və mikroquruluşu. Oduncağın fiziki xassələri. Oduncağın mexaniki xassələri. Oduncağın qüsurları - düyünlər, çatlar, liflərin meyilliyi və buruqluğu, ikiözəklilik, göbələk zədələnmələri, həşəratlarla zədələnmə və s. İnşaatda istifadə olunan iynəyarpaqlı və enliyarpaqlı ağaclar. Girdə ağac materialları və mişarlanmış materiallar. Yarımfabrikatlar və ağac məmulatları. Parket. Şponlar. Fanerlər. Bakelizə edilmiş faner.

**Mineral yapışdırıcı materiallar**. Yapışdırıcı materialların təyinatı və təsnifatı. Havada bərkiyən yapışdırıcılar. Hava əhənginin istehsalı, xassələri və tətbiq sahələri. Əhəngin növləri və keyfiyyət göstəriciləri. Gips yapışdırıcıları. Maqnezial yapışdırıcı maddələr. Maye şüşə və turşuyadavamlı sement.

Hidravlik yapışdırıcılar: hidravlik əhəng, roman sement və portlandsement - ümumi məlumat. Portlandsementin hazırlanması üçün xammallar. Portlandsementin istehsal üsulları. Sement klinkerinin istehsalı, onun kimyəvi və mineral tərkibi. AZS 411-2010 standartına əsasən portlandsementin maddi tərkibinə görə tipləri. Portlandsementin əsas fiziki-mexaniki xassələrinə standartın tələbləri. Sementin möhkəmlik sinfinin təyini və onun əsas göstəriciləri. Portlandsementin tətbiq sahələri. Portlandsementin bərkimə prosesi. Portlandsementin korroziyası. Portlandsementin xüsusi növləri: tez bərkiyən, sulfatlara davamlı, tamponaj, yol və aerodrom örtükləri üçün, ağ və əlvan sementlər. Alüminat sementi. Genişlənən və gərginləşən sementlər.

Yapışdırıcı materiallar əsasında süni daş materialları və məmulatları. Əhəngdən hazırlanan material və məmulatlar. Silikat kərpici. Gipsdən hazırlanan məmulatlar. Arakəsmə panellər və tavaları, ventilyasiya blokları, gips quru suvağı və s.

**Doldurucular.** Doldurucuların təyinatı və təsnifatı. Doldurucuların əsas xassələri. Təbii doldurucular. Qum. Çınqıl. Qırmadaş. Məsaməli iri doldurucular. Keramzit, aqloporit. Köpdürülmüş perlit və vermikulit. Sənaye tullantıları əsasında hazırlanan doldurucular. Üzvi doldurucular.

**Betonlar və dəmir-beton məmulatları**. Betonların təsnifatı və onlara dair tələblər. Betonların sıxlığına, təyinatına, yapışdırıcıların növünə görə təsnifatı. Sement betonlar üçün materiallar: sement, su, qum, çınqıl və ya qırmadaş, onlara verilən əsas tələblər. Beton üçün əlavələr. Beton qarışığı. Beton qarışığının xassələri. Betonun möhkəmliyi haqqında

məlumat. Beton möhkəmliyinin $\frac{su}{sem}\left(\frac{sem}{su}\right)$ nisbətindən asılılığı. Betonun layihələndirilməsi və tərkibinin hesablanması. Betonun laboratoriya və istehsalat tərkibləri. Betonun çıxım əmsalı.

Betonun quruluşu haqqında məlumat. Beton qarışığının hazırlanma üsulları. Layihələndirilən beton qarışıqları və reseptə görə hazırlanan beton qarışıqları. Beton qarışığının qəlibə yerləşdirilməsi və sıxlaşdırılması və sıxlaşdırılma üsulları. Betonun bərkiməsi. Betonun möhkəmlik sinfinin təyin edilməsi. Betonun möhkəmlik sinifləri. Betonun markası ilə sinfi arasındakı əlaqə. Betonun bərkiməsini sürətləndirən üsullar: istilik - nəmliklə emaletmə, elektrik cərəyanı ilə qızdırma və avtoklavda yüksək temperatur-təzyiq şəraitində emaletmə. Betonun bərkimə prosesini sürətləndirəcək kimyəvi əlavələr.

Qışda betonun işlədilməsi. İsti və quru şəraitində aparılan betonlama işləri, betona qulluq edilməsi. Betonun xüsusi xassələri: istilikkeçirmə, şişmə, yığışma, şaxtayadavamlılıq, sukeçirməzlik, oda və radiasiyaya davamlılıq, sürüşkənlik, kövrəklik və s. Xüsusi növ betonlar. Silikat-beton məmulatları.

Dəmir-beton haqqında ümumi məlumatlar. Dəmir-beton məmulatlarının təsnifatı. Dəmir-beton məmulatlarının armaturlanma üsulları. Məmulatların adi və gərginləşdirilmiş polad millərlə armaturlanması. Adi armaturlanmış və gərginləşdirilmiş dəmir-beton konstruksiyaları. Yığma dəmir-beton konstruksiyaları. Yığma dəmir-beton məmulatlarının istehsal üsulları. Yığma dəmir-beton məmulatlarının istehsal texnologiyası.

Monolit dəmir-beton konstruksiyaları. Monolit dəmir-beton konstruksiyalarında istifadə olunan beton qarışığının beton zavodlarında və avtobeton qarışdırıcılarda hazırlanması, tikinti meydançasına daşınması, qəlibə yerləşdirilməsi və sıxlaşdırılması.

**İnşaat məhlulları.** İnşaat məhlullarının təyinatı və təsnifatı. Məhlul qarışığı üçün materiallar: qum, yapışdırıcı maddələr, su və əlavələr.

Sement, əhəng, gips və polimer məhlulları haqqında qısa məlumat, onların hazırlanması, inşaat texniki xassələri və tətbiq sahələri. Məhlul qarışığının xassələri - rahat yayılma qabiliyyəti, axarlığı, susaxlama qabiliyyəti. Plastikləşdirici maddələrin məhlul qarışığı xassələrinə təsiri.

Qarışıq məhlullar. Məhlulun möhkəmlik və şaxtayadavamlılıq markaları.

Hörgü, suvaq və dekorativ məhlullar. Xüsusi təyinatlı məhlullar: inyeksiya, hidroizolyasiya, tamponaj, akustika və döşəmə məhlulları.

**İstilik-izolyasiya materialları və məmulatları**. İstilik-izolyasiya materiallarının təsnifatı. Üzvi istilik-izolyasiya materialları. Oduncaq yonqar tavaları. Oduncaq lifli tavalar. Torf tavaları, keçə, qamışit, mantar tavaları və s. Qeyri-üzvi istilik-izolyasiya materialları və məmulatları. Mineral və şüşə pambıq, istehsalı və xassələri. Dənəvər halda olan istilik-izolyasiya materialları. Asbest əsasında hazırlanan istilik-izolyasiya materialları. Plastik kütlələrdən hazırlanan istilik-izolyasiya materialları. Köpüklü plastlar.

Akustik materiallar və məmulatlar. Səsudan materiallar. Səs-izolyasiya materialları. Səs-izolyasiya materiallarının xassələri.

**Üzvi yapışdırıcı materiallar**. Üzvi yapışdırıcı maddələrin təsnifatı və tərkibi. Bitumlar, qatranlar, polimerlər və onların təsnifatı. Təbii və neft bitumları. Bərk, özlü və maye bitumlar. Bitumların əsas xassələri - özlülük, plastiklik və yumşalma temperaturu. İnşaat bitumları, örtük bitumları və yol bitumları. Qatranlar: daş kömür, torf, ağac qatranları.

Polimer materiallar və məmulatlar. Polimerləşmə prosesində alınan polimerlər. Polikondensasiya yolu ilə alınan polimerlər. Plastik kütlələrin əsas komponentləri. Plastik kütlələr və onların əsas xassələri. Plastik kütlələrin hazırlanma texnologiyası. Polimerbetonlar. Polimerlər əsasında hazırlanan yapışqanlar və mastikalar.

Üzvi yapışdırıcılar əsasında hazırlanan damüstü və hidroizolyasiya materialları.

**Asfalt-betonlar.** Asfalt-betonların təsnifatı. Yayılma temperaturuna görə asfalt-betonların təsnifatı. Qaynar asfalt-betonlar. Soyuq asfalt-betonlar. Doldurucunun iriliyinə görə asfalt-betonun növləri. Təyinatına görə asfalt-betonun növləri. Asfalt-betonda istifadə olunan materiallar: asfalt-beton üçün iri dolduruculara verilən tələblər. Qumlara verilən tələblər. Mineral tozlar. Aktivləşdirilmiş mineral tozlar. Asfalt-beton qarışığının hazırlanması. Asfalt-betonların fiziki, mexaniki, kimyəvi, texnoloji xassələri. Asfalt-betona qoyulan texniki tələblər. Asfalt-betonun tipləri və bu tiplərə verilən tələblər. Asfalt-beton tərkibinin layihələndirilməsi. Asfalt-beton qarışıqlarının sınanılması üsulları. Asfalt-betonun quruluşu. Asfalt-beton örtüklərin deformasiyası və köhnəlməsi.

**Lak-boya materialları**. Lak və boya tərkiblərinin əsas komponentləri: yapışdırıcı maddələr, piqmentlər, həlledicilər və durulaşdırıcılar, doldurucular. Pərdə əmələgətirən maddələr. Yağlar. Əlif yağları. Əlif yağlarının növləri. Lakların növləri. Boya tərkibləri. Boya materiallarının növləri. Yağlı boyalar, Emal boyaları. Sulu boyalar. Emulsiyalar.

**Kompozisiya materialları.** Kompozitlərin tərkibi. Kompozitlərdə matrisa ilə möhkəmləndirici elementlərin birgə iş prinsipi. Kompozitlərin təsnifatı. Lifli kompozitlər. Şüşə lifli kompozitlər. Şüşə liflərin növləri və əsas xassələri. Oduncaq lifli tavalar. Oduncaq yonqar tavaları. Lövhəvari doldurucular əsasında alınan kompozitlər: şüşətekstolit, ağac lövhə plastikləri, kağız-lövhə plastikləri. Dispers doldurucular əsasında hazırlanan kompozitlər. Polimer-sement, polimer-beton kompozitləri.

**Metal inşaat materialları.** İnşaatda istifadə olunan qara və əlvan metallar. Çuqun və polad. Karbonlu və legirlənmiş poladlar. Əlvan metallar. Alüminium-mis, mis-sink ərintisi, latun, mis-qalay ərintisi, bürünc, sink və qurğuşun. Onların

tikintidə istifadə sahələri. Armatur hazırlanması üçün istifadə olunan polad. Armaturun sinifləri və təsnifatı. Metalların korroziyası və korroziyadan mühafizə tədbirləri.

**ƏDƏBİYYAT**


1. Ağabəyli N.M. İnşaat materialları və məmulatları. Bakı, 2011.
2. AZS 411-201. SEMENT: Ümumi təyinatlı sementlərin tərkibi, spesifikasiyaları, qablaşdırılması, saxlanması, nəql edilməsi və uyğunluq meyarları. Bakı, 2010.
3. AZS 473-2011. İnşaat işləri üçün sıx dağ süxurlarından qırmadaş və çınqıl. Texniki şərtlər. Bakı, 2011.
4. AZS 475-2011. Tikinti işləri üçün qum. Texniki şərtlər. Bakı, 2011.
5. Şirinzadə İ.N. Materialşünaslıq. Bakı, 2018.
6. Şirinzadə İ.N., Şirinzadə N.Ə. İnşaat materiallarının fiziki-kimyəvi əsasları. Bakı, 2006.
7. Киреева Ю.И. Строительные материалы. Минск: Новое знание, 2006.
8. Рыбьев И.А. Строительное материаловедение. М.: Высшая школа, 2003.
9. EN 206-1:2000. Concrete. Specification, perfomance, production and conformity, 2000.

# Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi

---

**VAHİD NƏQLİYYAT SİSTEMİ**

**Dəniz nəqliyyatı.** Gəmi termini. Dəniz nəqliyyatının yaranması və inkişafı. Eramızdan əvvəl mövcud olan gəmiçilik nümunələri. Hərbi və ticarət gəmilərinin gəmiçiliyin inkişafındakı rolu. X-XIX əsrlərin yelkənli gəmiləri. Dəniz nəqliyyatının hərəkət tərkibi və onların evolyusiyası. Dəniz nəqliyyatında hərəkət tərkibinin təyinatına, istifadə edilən enerji mənbəyinə, gəminin gövdəsinin suya nəzərən yerləşməsi və ölçülərinə görə təsnifatı. Dəniz nəqliyyatının infrastrukturu. Limanlar. Kanallar.

Dəniz daşımaları. Xətti və qeyri-xətti gəmiçilik. Beynəlxalq alqı–satqı müqavilələrində bazis şərtləri. Böyük və kiçik kabotaj. Dəniz nəqliyyatının iş göstəriciləri. Dəniz nəqliyyatının fəaliyyətinin hüquqi aspektləri. AR Dövlət Dəniz Administrasiyası. Azərbaycan Respublikasının Dövlət Xəzər Dəniz Gəmiçiliyi.

**Daxili su (çay) nəqliyyatı.** Daxili su nəqliyyatının yaranması və tarixi. Yelkənli və avarlı gəmilər. Trekvart kanal şəbəkələri. Vintli və çarxlı paroxodların istifadə olunması. Sualtı qanadları olan və hava yastıqlı gəmilərin çay nəqliyyatı kimi istifadə olunması. Bərələr, onların istifadə xüsusiyyətləri və təsnifatı. Su taksisi. Çay tramvayı. Qlisser gəmisi. Çay nəqliyyatının əsas texniki–istimar xüssiyyətləri və üstünlükləri.

**Dəmir yolu nəqliyyatı.** Dəmir yolu sistemləri. Dəmir yolu nəqliyyatının yaranması və inkişafı. Parovozun meydana gəlməsi. Dəmir yollarının daimi qurğuları. Yollar. Koleya. Dəmir yolu stansiyaları və onların təsnifatı. Vağzallar. Dəmir yolu nəqliyyatının hərəkət tərkibi. Lokomotivlər və onların təsnifatı. Vaqonların təsnifatı. Dəmir yolunda bərə keçidləri: yaranması və inkişafı. Dəmir yolu nəqliyyatında müasir texnika və texnologiyalar. Dəmir yolu daşımaları. Dəmir yolu nəqliyyatının texniki-iqtisadi xüsusiyyətləri və üstünlükləri. Dəmir yolunun əsas iş göstəriciləri. “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti.

**Hava nəqliyyatı.** Hava nəqliyyatının yaranması və inkişafı. İlk hava nəqliyyatı vasitələri, yük və sərnişin aviasiyasının meydana gəlməsi. Hava nəqliyyatının maddi-texniki bazası. Hava gəmisi. Hava gəmilərinin təsnifatı. Hava limanları və onların təsnifatı. Aviasiya şirkətləri. Hava nəqliyyatında müasir texnika və texnologiyalar. Azərbaycan Respublikasının beynəlxalq hava limanları. Aviasiya daşımaları. Müntəzəm və qeyri–müntəzəm aviadaşımalar. Hava nəqliyyatının iş göstəriciləri. Dövlət Mülki Aviasiya Administrasiyası. “AZAL” Qapalı Səhmdar Cəmiyyəti.

**Avtomobil nəqliyyatı.** Avtomobil nəqliyyatının yaranma tarixi. Avtomobil anlayışı. Avtomobil nəqliyyatının meydana gəlməsi və inkişafında dünyanın aparıcı ölkələrinin rolu. Avtomobil nəqliyyatı vasitələri və onların təsnifatı. Minik avtomobilləri və avtobusların təsnifatı. Avtomobil nəqliyyatı ilə yük və sərnişin daşımalarının xüsusiyyətləri. Daşıma prosesinin fəaliyyət göstəriciləri. Nəqliyyat kütləsi, nəqliyyat yolu və vaxtı. Avtomobil nəqliyyatında daşıma marşrutları. Əhalinin nəqliyyat hərəkətliliyi. Avtomobil nəqliyyatı vasitələrinin məhsuldarlığı. Avtomobil nəqliyyatı ilə daşımaların texniki – istismar göstəriciləri. Avtonəqliyyat vasitələri parkı və onun iş göstəriciləri. Magistral avtomobil daşımaları. Magistral daşımaların terminal sistemləri. Beynəlxalq avtomobil daşımaları. Nəqliyyat ekspedisiya xidməti. Yük çatdırılması sistemləri.

**Boru kəməri nəqliyyatı.** Boru kəməri. Təsnifatı. Boru kəməri nəqliyyatının tarixi. Azərbaycan Respublikasının boru kəməri nəqliyyatının əsas iş göstəriciləri. Boru kəməri nəqliyyatının əsas texniki-iqtisadi xüsusiyyətləri və üstünlükləri. Boru kəmərinin buraxma qabiliyyətinin artırılması yolları. Boruların korroziyadan müdafiəsi metodları. Neft kəməri. Təsnifatı. Bakı–Batumi, Drujba neft kəmərləri. Azərbaycan Respublikasının neft ixrac edən neft kəmərləri: Şimal eksport marşrutu - Bakı – Novorossiysk, Qərb eksport marşrutu - Bakı – Supsa, Əsas eksport marşrutu - Bakı – Tbilisi – Ceyhan.

Qaz kəməri. Təsnifatı. Azərbaycan Respublikasının qaz ixrac edən kəmərləri: Cənubi Qafqaz Boru kəməri - Bakı – Tbilisi – Ərzurum, Hacıqabul – Qardabani, Hacıqabul – Mozdok, Hacıqabul – Astara – Binənd. “Mavi axın” qaz kəmərinin özəllikləri. Nabukko qaz kəmərlinin perspektivləri.

Boru kəməri nəqliyyatının sərnişin daşımalarında tətbiqi perspektivi.

**Şəhər nəqliyyatı.** Şəhər. Şəhərlərin təsnifatı. Şəhər nəqliyyatının qısa inkişaf tarixi. Kütləvi şəhər nəqliyyatının inkişaf mərhələləri. Vahid şəhər nəqliyyatı sisteminin xarakteristikası. Şəhər nəqliyyatının növləri və istifadə şəraiti. Elektrikləşdirilmiş dəmir yolları. Şəhər və şəhərətrafı qatarlar və onların inkişaf etmiş ölkələrdə mövcud olan nümunələri. Metropoliten. Yaranması, inkişafı və müasir nümunələri. Tramvay. Tarixi, müasir nümunələri. Sürətli tramvay. Metrotram. Monorels nəqliyyat. Yaranması, tətbiqi. Trolleybus. Avtobus. Yaranması, inkişafı, tətbiqi. İstiqamətləndirilən avtobus. Marşrut taksilər. Asma - kanat nəqliyyat. Şəhərlərdə su, hava nəqliyyatlarının və velosipedlərin istifadə edilməsi. Taksomotor nəqliyyatı, yaranması və istifadə sahələri. Motosiklet taksi. Velorikşa. İntellektual nəqliyyat sistemləri.

**Müxtəlif nəqliyyat növlərinin kompleks inkişafı və qarşılıqlı təsiri.** Daşımaların müxtəlif nəqliyyat növləri ilə yerinə yetirilməsində səmərəlilik meyarları. Daşımaların əsas nəqliyyat növləri arasında səmərəli paylanması. Daşımaların nəqliyyat növləri arasında paylanma prinsipləri. Müxtəlif nəqliyyat növlərinin qarşılıqlı əlaqəsi. Nəqliyyat sistemində nəqliyyat növlərinin formalaşması, inkişafı və fəaliyyəti üçün iqtisadi, texniki, texnoloji və təşkilati bazanın yaradılması. Müxtəlif nəqliyyat növlərinin qarşılıqlı təsirinin vahid texnoloji prosesi və onun işlənilmə mərhələləri. Müxtəlif nəqliyyat növlərinin qarşılıqlı təsirinin *bric* sistemləri. Multimodal nəqletmə sistemləri. Multimodal daşımaların inkişaf etmiş ölkələrin nəqliyyat siyasətində rolu. Intermodal daşımalar. İntermodal texnologiyaların növləri: bərə keçidləri, treyler, kontreyler, rolker, lixter və "çay – dəniz" sistemləri, konteyner və paket daşımaları, müxtəlif koleyaya malik dəmir yolu ilə daşıma. Müxtəlif nəqliyyat növlərinin qarşılıqlı əlaqəsində terminalların rolu. Nəqliyyat dəhlizləri. "Trans European Network" konsepsiyası, "Edinburq təşəbbüsü", Avropa Birliyində nəqliyyatın inkişaf perspektivlərini müəyyən edən "Bəyaz kitab", "Krit konfransı" və onların nəticəsində yaradılmış Panavropa nəqliyyat dəhlizləri. Beynəlxalq Asiya şəbəkəsi. AR-nın beynəlxalq hava limanlarının, Bakı – Tbilisi – Qars dəmiryolu dəhlizinin, Şərq-Qərb (TRACECA) və Şimal-Cənub dəhlizlərinin nəqliyyat növlərinin inkişafındakı rolu. Nəqliyyatda peyk naviqasiya sistemləri.

**Nəqliyyatda elm, ekologiya və təhlükəsizlik.** Nəqliyyatın elmi problemləri. Dəmir yolu nəqliyyatında hərəkət sürətinin artırılması, vaqonların hermetikləşdirilməsi, qatarların kütləsinin artırılması və bunlarla əlaqədar digər elmi problemlər. Avtomobil nəqliyyatında hərəkət sürətinin, yük götürmə qabiliyyətinin, təhlükəsizliyin artırılması yolları. Su nəqliyyatı növlərində yük götürmə qabiliyyətinin, idarəetmənin avtomatlaşdırılma səviyyəsinin, güc qurğularının gücünün, hərəkət sürəti və manevretmənin artırılması istiqamətləri. Hava nəqliyyatında təyyarələrin sərnişin tutumu və yük götürmə qabiliyyətinin artırılması, hər cür havada uçan təyyarələrin yaradılması, yanacağın yeni növlərinin tətbiqi, hərəkətin təhlükəsizliyinin təmin edilməsi problemləri. Şəhər nəqliyyatında ərazinin zəbt edilməsinin azaldılması, duracaq, yerdəyişmə sürətinin artırılması, tam avtomatlaşdırılmış yeni nəqliyyat növlərinin tətbiqi, səs-küy və s. problemlərin həlli yolları.

Nəqliyyatda ekoloji problemlər. Torpağın, suyun və atmosferin çirklənməsi, ərazinin zəbt olunması, səs-küy, titrəyiş, elektromaqnit şüalanma, resursların istifadəsi problemləri. Nəqliyyatda təhlükəsizlik problemləri. Elektromobil. Yaranması, inkişafı və problemləri. Hidrogen nəqliyyatı. Yaranması, inkişafı və problemləri. Kosmik nəqliyyat.

## ƏDƏBİYYAT


1. Aviasiya haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 24 iyun 2005-ci il.
2. Avtomobil nəqliyyatı haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1 aprel 2008-ci il.
3. Cavadov Ə.Ə. Avtomobil yük daşımaları. Bakı, 2009.
4. Cavadov Ə.Ə. Daşımalar və vahid nəqliyyat sistemi. Dərslik. Bakı: Təhsil NPM, 2004.
5. Cavadov Ə.Ə. Nəqliyyat prosesləri və sistemləri nəzəriyyəsinin əsasları. Dərs vəsaiti. Bakı, 1992.
6. Cavadov Ə.Ə. Vahid nəqliyyat sistemi. Dərslik. Bakı, 2010.
7. Cavadov Ə.Ə., Bayramov M.İ., Məmmədov R.M. Avtomobil sərnişin daşımaları. Dərslik. Bakı, 2004.
8. Nəqliyyat haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 11 iyun 1999-cu il.
9. Интегрированная логистика накопительно – распределительных комплексов /Учебник для транспортных вузов/ Под общей ред. Л.Б. Миротина. Москва: Издательство Экзамен, 2003.
10. Курганов В.М., Миротин Л.Б. Международные грузовые автомобильные перевозки /Учебное пособие для вузов/ Под ред. Л.Б. Миротина, Тверь, 2000.
11. Левиков Г.А., Тарабанько В.В. Смешанные перевозки (проблемы и тенденции) /Учебное пособие/ Москва: Росконсульт, 2004.
12. Луканин В.Н., Буслаев А.П., Трофименко Ю.В., Яшина М.В. Автотранспортные потоки и окружающая среда /Учебное пособие для вузов/ Москва: ИНФРА, 1998.
13. Терминология комбинированных перевозок, Prepared by the UN/ECE, the European Conference of Ministers of Transport (ECMT) and the European Commission (EC), United Nations, New York and Geneva, 2001.
14. Транспортная логистика /Учебник / Под общ. ред. Л.Б. Миротина. Москва: Издательство Экзамен, 2005.
15. Троицкая Н.А., Чубуков А.Б. Единая транспортная система. Москва: Издательский центр Академия, 2004.
16. Троицкая Н.А., Чубуков А.Б., Шилимов М.В. Мультимодальные системы транспортировки и интермодальные технологии /Учеб. пособие для вузов/ Москва: Издательский центр Академия, 2009.
17. Энергия будущего /Учебное пособие/ Под общей редакцией академика РАН В.В.Лунина. Москва: АСМИ, 2005.


## DAŞIMALARIN SIĞORTASI

**Nəqliyyat vasitələrinin sığortalanması.** Hava nəqliyyatı vasitələrinin sığortası. Hava gəmilərinin kasko və məsuliyyət sığortası. Avtomobillərin sığortalanması. Gəmilərin sığortalanması.

**Yüklərin sığortası.** Yüklərin sığortalanması. Sığorta obyektinə yetirilmiş itkinin tam və ya qismən ödənilməsi. Sığorta edilən, sığorta ödənilməsinin tələblərini nəzərdə tutan sığorta növləri küllüsü. Konteynerlərin sığortalanması. Yüklərin sığorta müqaviləsi.

Sərnişinlərin sığortası. Sərnişinlərin sığorta müqaviləsi, sığorta müqaviləsinin müddəti. Sərnişinlərin icbari fərdi qəza sığortası.

## ƏDƏBİYYAT


1. "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 24 iyun 1999-cu il.
2. "Azərbaycan Respublikasında nəqliyyat vasitəsinin sahiblərinin mülki məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 31 may 1996-cı il.
3. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 24 iyun 2011-ci il
4. "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 11 iyun 1999-cu il.
5. "Sərnişinlərin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 17 iyun 2003-cü il.
6. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 25 dekabr 2007-ci il.
7. "Sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 25 iyun 1999-cu il.
8. Azərbaycan Respublikasında avtonəqliyyat vasitəsinin sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta haqlarının məbləğlərinin hesablanması qaydası. Bakı, 6 dekabr 2011-ci il.
9. Daşdəmirov F.S. Daşımaların sığortası /Dərs vəsaiti/ Bakı: AzTU, 2014.
10. Sərnişinlərin icbari fərdi qəza sığortası üzrə sığorta haqlarının məbləğinin hesablanması qaydası. Bakı, 6 dekabr 2011-ci il.
11. Адамчук Н. Г. Мировой страховой рынок на пути к глобализации. Москва: РОССПЭН. 2004.
12. Андреев А.Я. Страхование на транспорте. Практикум /Учебное пособие/ Гомель: БелГУТ, 2006.
13. Андреев А.Я., Капский В.Д., Седюкевич В.Н., Скирковский С.В. Страхование на транспорте /Учебное пособие/ Гомель: БелГУТ, 2008.
14. Ахвледиани Ю.Т., Имущественное страхование /Учебное пособие/ Москва : ЮНИТИ-Дана 2002.
15. Владимиров В.В. Основы страхования предпринимательских рисков. Оренбург: ГОУ ОГУ, 2011.
16. Шахова В. В., Григорьева В.Н., Ефимова Е.Л. Страховое право. /Учебник для вузов/ Москва: ЮНИТИ-ДАНА, Закон и право, 2002.
17. Щабека В.Л. Автомобильный транспорт и страхование /Учебное пособие./ Мн.: ВУЗ-ЮНИТИ, 2004.

# Qida məhsulları mühəndisliyi

## ƏRZAQ MALLARININ ƏMTƏƏŞÜNASLIĞI VƏ EKSPERTİZASI

**Taxıl-un mallarının əmtəəşünaslığı və ekspertizası.** Taxıl-un mallarının kimyəvi tərkibi və qidalılıq dəyəri. Taxıl-un mallarının ekspertizasının keçirilməsində istifadə olunan normativ-texniki sənədlər. Taxıl-un mallarının keyfiyyət göstəriciləri. Taxıl-un mallarının orqanoleptiki və laboratoriya üsulları ilə ekspertizası zamanı orta nümunənin götürülmə qaydaları. Taxıl-un mallarının ekspertizasının keçirilməsi qaydaları və metodları. Yarma, çörək, suxari, baranki və makaron məmulatlarının əmtəəşünaslığı və ekspertizası.

**Təzə və emal edilmiş meyvə və tərəvəzlərin əmtəəşünaslığı və ekspertizası.** Təzə meyvə və tərəvəzlərin kimyəvi tərkibi və qidalılıq dəyəri. Təzə və emal edilmiş meyvə və tərəvəzlərin əmtəəşünaslığı və ekspertizasının keçirilməsində istifadə olunan normativ-texniki sənədlər. Meyvə və tərəvəzlərin keyfiyyət göstəriciləri. Meyvə və tərəvəzlərin orqanoleptiki və laboratoriya üsulları ilə ekspertizası zamanı orta nümunənin götürülməsi qaydaları. Meyvə və tərəvəzlərin əmtəəşünaslığı və ekspertizasının keçirilmə qaydaları və metodları.

**Nişasta, şəkər, bal və qənnadı məmulatlarının əmtəəşünaslığı və ekspertizası.** Nişasta, şəkər, bal və qənnadı məmulatlarının kimyəvi tərkibi və qidalılıq dəyəri. Nişasta, şəkər, bal və qənnadı məmulatlarının əmtəəşünaslığı və ekspertizasının keçirilməsində istifadə olunan normativ-texniki sənədlər. Bu mal qruplarının əmtəəşünaslığı və keyfiyyət göstəriciləri. Bu mal qruplarının orqanoleptiki və laboratoriya üsulları ilə ekspertizası zamanı orta nümunənin götürülməsi qaydaları. Bu mal qrupları üzrə ekspertizanın keçirilmə qaydaları və metodları.

**Tamlı malların əmtəəşünaslığı və ekspertizası.** Çay, qəhvə, ədviyyələr, spirtli və spirtsiz içkilər, üzüm şərablarının kimyəvi tərkibi və qidalılıq dəyəri. Tamlı malların ekspertizasının keçirilməsi üzrə normativ-texniki sənədlər. Tamlı malların əmtəəşünaslığı və keyfiyyət göstəriciləri. Tamlı malların orqanoleptiki və laboratoriya üsulları ilə ekspertizası zamanı orta nümunənin götürülmə qaydaları. Ekspertizanın keçirilmə qaydaları və metodları.

**Yeyinti yağlarının əmtəəşünaslığı və ekspertizası.** Yağların tərkibi, təsnifatı və xassələri. Yağların ekspertizası üzrə istifadə olunan normativ-texniki sənədlər. Bitki, heyvanat yağlarının əmtəəşünaslığı və keyfiyyət göstəriciləri. Marqarin, mətbəx, qənnadı yağları və mayonezin keyfiyyət ekspertizası. Yeyinti yağlarının orqanoleptiki və laboratoriya üsulları ilə ekspertizası zamanı orta nümunələrin götürülməsi qaydaları. Ekspertizanın keçirilməsi metodları və qaydaları.

**Süd və süd məhsullarının əmtəəşünaslığı və ekspertizası.** Südün kimyəvi tərkibi və xassələri. Süd və süd məhsullarının ekspertizası üzrə normativ-texniki sənədlər. Süd, qaymaq, turşudulmuş süd məhsulları, pendir, kərə yağı, süd konservləri, dondurmanın əmtəəşünaslığı və keyfiyyət göstəriciləri. Orta nümunələrin götürülməsi qaydaları. Ekspertizanın keçirilmə metodları və qaydaları.

**Yumurta və yumurta məhsullarının əmtəəşünaslığı və ekspertizası.** Yumurta və yumurta məhsullarının kimyəvi tərkibi və qidalılıq dəyəri. Yumurta və yumurta məhsullarının əmtəəşünaslığı və ekspertizası. Ekspertizanın keçirilməsi üçün orta nümunələrin götürülməsi qaydaları. Yumurta və yumurta məhsullarının orqanoleptiki və laboratoriya üsulları ilə ekspertizasının keçirilməsinin metodları və qaydaları.

**Ət və ət məhsullarının əmtəəşünaslığı və ekspertizası.** Ətin morfologiyası, kimyəvi tərkibi, qidalılıq dəyəri. Ətin təsnifatı, damğalanması. Ət və ev quşları, kolbasa məmulatı, hisə verilmiş ət məhsulları, ət konservləri, çəkilib-bükülmüş ət və ət yarımfabrikatlarının əmtəəşünaslığı, kəmiyyət, keyfiyyət və sənəd ekspertizası. Orta nümunələrin götürülməsi qaydaları. Ekspertiza nəticələrinin tərkibi.

**Balıq və balıq məhsullarının əmtəəşünaslığı və ekspertizası.** Balıq və balıq məhsullarının kimyəvi tərkibi, qidalılıq dəyəri. Vətəgə balıqlarının təsnifatı, səciyyəsi və keyfiyyət göstəriciləri. Diri soyudulmuş, dondurulmuş, duzlanmış, qurudulmuş, qaxac edilmiş, hisə verilmiş balıqların əmtəəşünaslığı və ekspertizası. Orta nümunələrin götürülməsi və təhlili üçün hazırlanması. Balıq konservləri, yarımfabrikatları, kürü, qeyri-balıq və xammalın çeşidi, keyfiyyət ekspertizası. Ekspertiza nəticələrinin tərkibi qaydaları.

### ƏDƏBİYYAT


1. Əhmədov Ə.İ., Əliyev N.T. Meyvə-tərəvəzin əmtəəşünaslığı /Dərslik/ Bakı: İqtisad Universiteti, 2009.
2. Əhmədov Ə.İ. Ərzaq malları əmtəəşünaslığı /Dərslik/ Bakı: İqtisad Universiteti, 2012.
